ƏN YENİ
RUS ƏDƏBİYYATI

Antologiya

2 cilddə

2

Poeziya

Bakı

MÜTƏRCİM

2014

Издание осуществлено при поддержке
Института художественного перевода (Россия).

Nəşr Bədii Tərcümə İnstitutunun (Rusiya)
dəstəyi ilə həyata keçirilmişdir.

Məsləhətçi:

Kamal Abdulla
AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor

Redaktorlar:

Telman Vəlixanlı
filologiya elmləri doktoru, professor,

Bella Musayeva
filologiya elmləri doktoru, professor

Tərcümə edənlər:
Telman Vəlixanlı, Etimad Başkeçid, Heydər Orucov,
Rüstəm Kamal, Səlim Babullaoğlu, Əliş Mirzallı

Ən yeni rus ədəbiyyatı: Antologiya. 2 cilddə. 2-ci cild: Poeziya.
– Bakı: Mütərcim, 2014. – 212 səh.

Kitaba ən yeni rus poeziyasının görkəmli nümayəndələri – M.Ayzenberq, T.Kibirov, V.Nekrasov, V.Kuçeryavkin, V.Filippov, A.Anaşeviç, D.Vodennikov, Q.Şulpyakov, V.Kupriyanov, İ.Yermakova, L.Rubinşteyn, K.Medvedyev, Y.Çiqrin və Y. Quqolevin şeirlərinin Azərbaycan dilinə tərcümələri daxil edilmişdir.

ISBN: 978-9952-190-3

© (tərcümə, dizayn) "Mütərcim", 2014

Ən yeni rus nəsri və poeziyası yeni tərcümə layihəsində

Son on il ərzində ölkə Prezidentinin sərəncamları ilə reallaşan latın qrafikalı nəşrlərdə, o cümlədən "Dünya ədəbiyyatı kitabxanası" seriyasında xarici ölkə ədəbiyyatlarının antologiyaları geniş təmsil olunub. Bu antologiyalar arasında rus ədəbiyyatı üzrə antologiyalar xüsusi əhəmiyyət kəsb edir. Əlbəttə, bu layihələrdə bütün rus müəlliflərin ayrıca kitab şəklində nəşri qeyrimümkündür. Hərçənd ilk mərhələdə həyata keçirilmiş tərcümə və nəşr layihələrində sovet dövründə tərcümə olunmuş əksər müəllif və əsərlərin təqdim olunmasına və tərcümə mətnlərinin müəyyən səviyyədə redaktəsinə şərait yaradılmışdı. "Dünya ədəbiyyatı kitabxanası" seriyasında da bütün rus müəlliflərinin əhatə olunması, təbii ki, mümkün deyildi. Klassik ədəbiyyatdan Puşkin, Tolstoy və Dostoyevski, XX əsr ədəbiyyatından rus ədəbiyyatının Nobel mükafatçıları bu layihədə ayrıca cildlə təmsil olunmaqla yanaşı, digər müəllif və əsərlər ikicildlik antologiyaya daxil edildi. Bununla belə, XIX əsrin 80-ci illərindən başlayaraq onilliklər boyu dilimizə fəal şəkildə tərcümə olunan çoxəsrlik rus ədəbiyyatının bəzi nümayəndələrini istər 2005-2006-cı illərdə tərtib olunmuş antologiyalarda ("Rus şeiri antologiyası" və "Rus nəsri antologiyası"), istərsə də 2011 və 2013-cü illərdə "Dünya ədəbiyyatı kitabxanası" seriyasında işıq üzü görmüş eyni adlı, lakin fərqli antologiyalarda təqdim etmək mümkün olmamışdı. Bu, ilk növbədə, postsovet dövrün rus ədəbiyyatına aiddir. Digər bir məqam: ədəbi jurnallarımızın və qəzetlərimizin rus ədəbiyyatına, o cümlədən ən yeni ədəbiyyata fəal şəkildə müraciəti nəticəsində keyfiyyətli və lazımlı tərcümələr ortaya çıxmış, onların dəyərləndirilməsi və kütləvi oxucuya təqdim olunmasına ehtiyac

yaranmışdır. Postsovet dövrdə Azərbaycan ədibləri əsasən sovet dönəmində qadağan edilmiş yazıçılara və əsərlərə, eləcə də ən müasir rus ədəbiyyatının postmodern nümunələrinə müraciət etməyə üstünlük verməyə başladılar. Müstəqillik dövründə ən yeni rus ədəbiyyatdan tərcümələr zamanı yazıçıların Azərbaycanla əlaqələri, onların yaradıcılığında Azərbaycan mövzusu, şəxsi və yaradıcılıq münasibətləri də müəyyən rol oynayır. Məsələn, "Antologiya"nın 1-ci cildində yeni tərcümələri verilən Yuri Polyakov ("Rayon miqyaslı FH") və Boris Yevseyevin ("Qəssab") yazıçılarımız və tərcüməçilərimizlə şəxsi və yaradıcı əlaqələri sayəsində onların yaradıcılığı bir sıra tədqiqatların obyektinə çevrilmişdir. Bakı Slavyan Universitetinin nəşri olan "Azərbaycanda rus dili və ədəbiyyatı" jurnalı göstərilən müəlliflər də daxil olmaqla ən yeni rus ədəbiyyatının təqdimatı ilə bağlı silsilə məqalələri təqdim etməkdədir. Bütün bunlarla yanaşı, Siyavuş Məmmədzadə və Eyvaz Borçalı kimi tanınımış tərçüməçi-şairlər 90-cı illər – yeni yüzilliyin ilk iki onilliyində də əvvəl başladıqları işləri tamamlamaqda davam edirlər. Bunun nəticəsidir ki, Puşkin, Lermontov və Yeseninin yeni və hətta bəzi əsərlərinin ilk Azərbaycan tərcümələri ərsəyə gəldi. Hətta klassiklərimizin qələmindən çıxmış "Hamlet", "Otello" "Yevgeni Onegin", "Mtsıri", "Demon" və s. kimi əsərlərin tərcümələri yeni təqdimatda oxucuların ixtiyarına verildi. Eyni fikirləri xalq yazıçısı Anarın ideyası və geniş müqəddiməsi ilə 2009-cu ildə rusca nəşr olunmuş üçcildlik "Azərbaycan ədəbiyyatı antologiyası" barədə söyləmək olar.

Bütün bunlar onu göstərir ki, rus və Azərbaycan ədəbiyyatlarının qarşılıqlı əlaqəsi, bu ədəbiyyatlardan birinin digəri tərəfindən adekvat resepsiyası prosesi bədii-professional, müasir tələblərə cavab verən tərcüməsiz mümkün deyil. O da həqiqətdir ki, orijinaldan fərqli olaraq (düzdür, bəzi orijinallar müəyyən zaman kəsiyini qət etmədən öz aktuallığını itirə bilir), tərcümə məhsulu köhnələ və bir əsərin tərcüməsi bir neçə müəllif tərəfindən icra oluna bilər.

Təqdim olunan növbəti ikicildlik "Rus ədəbiyyatı antologiya"sını Bakı Slavyan Universiteti və Moskva Dövlət Linqvistik Universitetinin davamlı əlaqələrinin, onlar tərəfindən təşkil olunan müştərək elmi məclislərin, ölkələrimizin tanınmış ziyalıları – akademiklər Kamal Abdullayev və İrina Xaleyevanın şəxsi təşəbbüslərinin nəticəsi hesab etmək olar. Birinci cild "Ən yeni rus nəsri antologiyası", ikinci cild isə "Ən yeni rus poeziyası antologiyası" adlanır. Hər iki cildə daxil olan hekayə, povest, şeir və poemalar Azərbaycan dilində ilk dəfə səsləndirilir. Nəsrdə ən müasir rus ədəbiyyatının Yuri Polyakov, Vladımır Voynoviç, Boris Yevseyev, Tatyana Tolstaya, Lyudmila Petruşevskaya və Lyudmila Ulitskaya kimi məşhur yazıçılar, poeziyada isə təmsil olunub. Azərbaycan dilinə tərcüməçilər qrupunda da kifayət qədər tanınmış qələm sahibləri var: Seyfəl Həsənov, Etimad Başkeçid, Heydər Orucov, Kamran Hacıyev, Telman Vəlixanlı, Rüstəm Kamal, Səlim Babullaoğlu, Əliş Ağamirzəyev və s. Gənc tərcüməçi, layihəyənin tələbinə uyğun bu işə cəlb edilmiş Bakı Slavyan Universitetinin magistrantı Jalə İsmayılovanın də tərcüməsi pis təsir bağışlamır.

İkinci cildin ("Ən yeni rus şeiri antologiyası") tərtibi və tərcüməsinə də əsasən Bakı Slavyan Universiteti əməkdaşları cəlb olunub.

Çağdaş rus nəsri nümunələri ilə müqayisədə poeziyada seçim etmək, seçilmiş nümunələri Azərbaycan dilində səsləndirmək daha çətindir. Biz postsovet dövrdə də ciddi poetik örnəklərlə yadda qalan Yevgeni Yevtuşenko və Andrey Dementyev kimi yaşlı nəslin nümayəndələrini antologiyaya daxil etmədik. Çünki yeni nəsil rus poeziyası sərbəstliyi, gözlənilməzliyi, qeyri-adekvatlığı, forma və üslub qəribəlikləri, yüzilliklər boyu ədəbiyyatdan bizə tanış olan rus mentallığı və düşüncə tərzindən uzaqlığı, verlibr şeir növünün belə kanonları ilə ahəngsizliyi ilə seçilməkdədir. Hər halda, bu, əksər çağdaş rus poeziyası nümunələri üçün səciyyəvidir. Zənnimizcə, postmodern poetik düşüncə tərzinə yeni və əksər hallarda tənqidi yanaşma poeziyadakı bu keçid

dövrünə öz təsirini göstərəcək. Klassik rus poeziyası ruhuna yeni qayıdış olacaq. Bununla belə, azərbaycanca təqdim edilən seir antologiyası təkrarsız görünən müxtəlif adlarla yadda qalır: Mixail Ayzenberq, Timur Kibirov, Vsevolod Nekrasov, Vladimir Kuçeryavkin, Vitali Filippov, Aleksandr Anaşeviç, Dmitri Vodennikov, Qleb Şulpyakov, Vyaçeslav Kupriyanov, İrina Yermakova, Lev Rubinşteyn, Kiril Medvedyev, Yevgeni Çiqrin, Yuli Quqolev.

Telman Vəlixanlı

Mixail Ayzenberq

(şeirlər)

***

Yox, çıxıb getmir o. Arxamda durur
Mərmər soyuqluğu, buz xırçıltısı.
Küləkdə titrəyən ağcaqovaqdır.
Güclə eşidilən, xəstəhal bir səs
Belə xitab edir oğluna, deyir:

«Görürəm, yenə də ayaqyalınsan
Oğlum, bu dünyada neyləyəcəksən
Sən bu əşyalarla, bu həkimlərlə?
Pullar da dəyərdən düşübdür hələ.

Dəri ayaqqabın yırtılıb sənin
Deməli, bircə cüt çəkməyə görə
Nələr istəyəcək səndən Torqsin
Neçə gümüş qaşıq və daha nələr?

Biçdi köynəyimi əbədi dinclik,
Artıq yeni şapka ala bilmərəm
Salıb itirdiyin sərxoşkən, kefli
Həmin o bahalı şapka yerinə»

Bilirəm, bu qışa hazır deyilsən.
Qara daşa gedən yol-riz görünmür.
Hələ əriməyib qar təpələri.
Don vurmuş ağ güllər… onlar da yoxdur
Çünki qoymamışam mən o gülləri.

6 yanvar 1996-cı il

Amerika meşəsi.
Qırxıncı gün.
Zağlanmış poladdan düzəldilmiş ay.
Ölü sükut. Buz kimi işıq topası.

Pəncərə taxtalarını kip bağlayır hava
Əlindən saldığın tapılmaz daha.
Yüz ildir bu qədər qar yağmayıbmış.

***

Hansısa bağ, sonra hansısa tağ,
Əcaib işıq ləkələri tutmuş hər yanı
Ardınca açıqlıq, aralıq, boşluq məkanı.

Və bu yaraşıqlı vahiməni mən
İçimə çəkirəm tor topası tək
Sanki boğuluram ilk nəfəsdəcə.

Burda gözlüyümü, pul kisəsini,
Sədəfli binoklu axtarıram mən.
Yiyəsiz, qaralmış köhnə şeyləri
Yalın əllərimlə irdələyirəm.

Gözlərimə qara buludlar çökür
Qara bayraq asılır yuxarıda
Buludların ardında.

Etrusk sarkofaqı
B.e.ə. 350-ci il

Muzeydə qaralmış yastı daş.
Daş yataqda yan-yana iki nəfər -
Sanki heç ölməyiblərmiş kimi,
Oyanınca qalxmaq istəməyiblər.

Onun uzanılı qolu altında
Eradan əvvəlki zamanlar deyil
Rahatlıqla dolu bir aramgahdır
Şəfqətli, sonsuz bir rahatlıqdır, bil.

Bir ağırdan ağır yorğan altında
Necə bir-birinə qısılmış onlar!
Burada uyuyan sonsuz sevgiyə
Pərqudan yumşaqdır bu daş yataqlar

***

İki il bu mənzildə yaşayan kölgələr
Elə hey şikayətləndilər.
Nələrisə xırdalayır, bölürdülər,
Bölüb qurtara bilmədilər.

Ağır nəfəs alır, işləməyə qoymurdular,
Bu sərsəm uğursuzlar
Nəyisə tərpədir, parçları dınqıldadır,
Sabunu yerə salırdılar.

İnanmazsınız, yenicə ağardılmış
Divarların fonunda
Unudulmuş valslar, qələbə marşları
Eşidilirdi qara boşqablardan.

Sanki çardaqda yarım əsr qalmış
Ot iyi hər yanı sarmışdı,
Elə bil, buradan yarım əsrdir
naftalinli alt paltarı asılmışdı.

Yəqin, haçansa bu mənzildə
Cin-şayətin yaşayırmış.
Gəzməyə çıxmırmış, mətbəxdə otururmuş
Və xəmir yoğururmuş.

Sonra böyük bir nenes ailəsi
Estafeti götürmüş.
Və sıxışdıraraq bu gen dünyadan
Bir-birinin izini sürmüş.

Niyə əlavə haqq vermirlər mənə
Düz iki il bu əlillər evinin
Havasını udduğum üçün
Arxa girişdə bu fərdi mənzildən
Kimlərisə dinlədiyim üçün.

Beşinci paraqrafa qədər
("Dao de dzin")

Çöldə ümumdünya qarı, ümumittifaq yağışı.
Su nəşəli, havalı, novda oynayır şən-şən,
Şərq küləyi vəsf edir bu bulud yürüşünü.
Ancaq mən Şərqə əsir-filan da düşməmişəm.

Mənə də maraqlıdır bu beşinci paraqraf,
Durğu işarəsinin var olması naminə
özünün vahid, bütöv nizamını yaradan:
səma, torpaq, it… İt hardan çıxdı belə?

Bax, beləcə ieroqlif bəzi incəliklərlə
Tamam başqa şeyləri gün üzünə çıxardır
Heç izah olunmayıb bu paraqraf hələ də
Mövzusu hərəkətli, bağları dumanlıdır.

Hər şey görünən olar duman çəkilsə birdən,
Bir canlı mənzərəyə çevrilər bu açıqlıq –
Tüstüylə qucaqlaşan külək can verir orda, -
Başıma sığal çəkən külək mülayim, ilıq.

Ona qalsa, kolluğa, meşəyə çəkilərək
Ağac kimi yaşamaq bundan faydalı olar,
Başıaçıq küləkdə, yağışda ömür sürmək.
Ot, ağac, çöllük – hər şey işə yarayar.

Bu rastgələ əngəllər nəyə lazımdır axı.
Şərqi zülmət bürüyüb, qərbsə güclə sezilir.
Mən bir qullab vururam lap dərindən-dərindən
Və başıpozuq tüstü kuləklərə verilir.

Suda söhbətlər

1
Mən gəlməyəm, mən buralı deyiləm.
Heç olmasa ədəb-ərkan naminə
Mənə doğru-dürüst istiqamət ver.
Bir az pul ver, bir az içmək istəyirəm.
Onsuz da rejimim pozulub mənim.
Bircə həftəliyə çıxıb getməyə
Bilet istəyirəm, səndən bir bilet.
Volqaya apar məni!
Burax gedim, mənə lütf et!

2
Çayın güzgüsü yeyindir.
Yeyindir çayın güzgüsü.
Korsika boyda bir bulud
Tutubdur göyün üzünü.

Buludun sol tərəfini
Aydınladıb göy qurşağı,
Gözqamaşdıran iti çay
Şütüyür ona sarı.

Zaman keçər, bir gün biz də
Köçümüzü çəkərik.
Monoton sayrışmalara,
Pozulmuş, solğun cəlala,
Dibsiz əksə çevrilərik.

***

İstilər səngidi bir az.
Avqust sərin, xətərsizdir.
Bəzi yay aylarında
Məni haraylayan bəyaz,
Dünya mənə daha şirin,
Dünya daha əzizdir.

Elə bil, cənnətdəyəm.
Amma ki, bu cənnətin
Naqisliyi yox deyil:
Arılar zəhlətökən,
Almalar çox qırmızı,
Qara kəpənəkləri
Adidən də adidir.

***

Salam, əzizim, salam!
Nədən belə qırmızı,
Niyə belə tərlisən?

Bəlkə bir saatdır ki,
Liftdə qalmışmısan sən?
Beşinci mərtəbədir?
Belə çətin qalxırıq?
Hə, asan olmadı
Sarı, boz adamları
Gəlib, sevmək açığı.
Neyləmək olar axı,
Borclar qaytarılmalı!

Qızarmış, tərli adam.
Cəl, gəl, yanımda otur,
Sonra nə olar, olar,
Dinlə! Oxuyan xordur.

***

Şəfqət barədə: sifət sanki hisə bulaşıb.
Yaxalıq, heç beləsi dükanda da satılmır.
Əbədi qımışmalar həmişə ayaqdadır.

Həvəssizcə də olsa, baxıb görürsən ki, sən
Onun üz cizgiləri yaşlıdır bir-birindən,

Bax, vasvası saçları, bədgüman hörükləri
Cavandır buxağında oynaşan kölgələrdən.

Bax, onun baxışları ehtiyatla da olsa,
Haçansa nişanlanmış sərhədlərdən aşammır,
Ay işığı zolağı kimi görünür ancaq
Buynuz təbəqəsindən irəliyə adlamır.

***

Saqqız dolaşır ağzımda,
Dartılır şirin-şirin.
Heyvancığaz kimi ovcumda
Yapışqan pəncələri.

Hə, çürüyürsən Rusiyada.
Şuba, qulaqlı papaq.
Asiya hisli-paslı, Avropa zülmət
Afrika qaynar qazan.

Ancaq necə olmasa da
İşıq ucu görünür.
Yeni Dünya uzaqdan
Üzünə gülümsünür.

Qoltuğuna vurub hər şeyi
Uzaqlara varmaq
Ovucumdan yapışqan
Pəncələri qoparmaq!

***

Həyat haçansa xəbərlərlə dolu idi.
Pərt şəkildə deyirdin:
Filan yerə getmə.
Qulağıma pıçıldadığınsa başqa şeylərdi:
Zəngli saat var orada.
Fəlakət hər yeri sarıb.
Belə-belə işlər, ağalar.
Bütün mənzil əziz xələfinin ardınca
Gəzirmiş kimi
Arxanca fırlanırdı,
Sənə həyatı anladırdı:
Gücün yetən işə giriş.
Ağrılar sağalmır.
Səni uzaqdan, qiyabi
Tanımasınlar deyə,
Ayaqların palçıqdan,
Əlin-qolun qumdandır.
Bu qızılı tarlada
Güllərdən, budaqlardan
Yaxşı ev tikmək olar.
Mən belə istəmirdim.

***

1
Qeyri-yaşayış massivində adam
Gözəl bir meşəlik görür önündə,
Yüksəlir səmaya payız sisləri,
Qızılı rəngdədir sislər hələ də.

2
Əliboş köbələk yığan adam tək.
O şehli otların içinə düşür
Öcəşir əzilmiş yaxalığıyla
Köynəyin qolunu hey didişdirir.

3
Meşədə harasa uzanıb adam,
Dinşəyir, kol-kosa çevrilib sanki.
Üstünə kəpənək qonub, dincəlir.
Arxadan xışıltı səsləri gəlir.

Yuxuda görür ki, dəniz dibində
Ağıllı, şüurlu daş ömrü sürür,
Yaşıl dalğaların, qalın suların
Altında sonsuz bir yolda sürünür

Bu daş yerişilə dərin yuxuda
Cismini yumaqtək bir yerə yığıb.
Yan cibində isə istirahətçün
Aldığı bileti tamam islanıb.

Tərcümə edən: Etimad Başkeçid

Timur Kibirov

(şeirlər)

Monitorun qarşısında

Gecə vaxtı
monitorun qarşısında
yeniyetmə ər oturub.
Qəlbi hüznlə doludu,
ağlında şübhələr var,
Dalğındı, Yandeksdən və
başqa axtarış sistemlərindən imdad diləyir:

«Həyatın mənasını mənim üçün açıqlayın,
Mənə kömək eləyin, bu tapmacanı tez tapın»

Rambler cavab verir,
Ramblerin bütün suallara həmişə cavabı var.

Click-i basan kimi
cavab o saat çıxır .

Sorğu: Həyatın mənası,
təklif olunan saytlar: 111444,
sənəd sayı: 2724010
yeniləri: 3915.

İnfinitiv poeziya

(Jolkovskinin motivləri əsasında)

Snikersləmək
Ara vermək və Tviks yemək
Sonra gərnəşmək
Fərqi hiss eləmək

Yeni nəcib dadı yoxlamaq
Lider olmaq
Ayaqyoluda yüngülləşmək
Özünü yaxşı hiss etmək

Billi qətlə yetirməli-1
Billi qətlə yetirməli-2
«Cek pot» oynamaq – qayğısız yaşamaq
Pörtməmək
Piar etmək
Havalı gəzmək
Ədalılaşmaq
Sığal çəkmək

Dəyərdən salmaq
gömrük vergisindən azad olmaq
Odlandırmaq

Utanmadan, usanmadan-

«Mənim gözəl Rusiyam, hələ bunlar nədi ki,
Daha pis vaxtların olub, amma düşməyib qiymətin»

***

Ağılla anlamaq olmaz ki Rusiyanı –
Fransanı da elə, İspaniyanı da elə,
Nigeriya, Karfagen, Britaniyanı da elə,
Roma, Avstriya-Macarıstan, Albaniyanı da elə –
Hər birinin ayrıca yeri vardır onların.

Deyirsiz ki, Rusiyaya ancaq inanmaq olar?
Yox, yox, yalnız bircə Allaha inanmaq olar.

Qalan hər şey vecsizdir,
Nə desən də fərqi yox-
Bizə çatan onsuz da çoxdur, çox:
Rusiyada eləcə ömür sürmək gərəkdir,
Çar üçün, Vətən üçün həm də ölmək gərəkdir.

Relyativizm barədə

Şərti olmağa gəlincə, əlbəttə, hər şey şərtidir.
Mütləqi kim görüb ki.
Nə eşitmək olar,
Nə də təsvir eləmək mümkündür.

Amma di gəl bunu
o aşiq yeniyetməyə başa sal da!

Onun cananının gözəlliyi
əlbəttə şərtidir.
Ayıq başla
hətta şübhəldir.

Amma o axmaq üçün
nə fərqi var,
inan, mütləq ki,
heç bir fərqi yoxdur.

Bir də əgər, istəmirsənsə gözünün altı qaralsın,
ey müdrik, mütləq de ki, qoy, o dünya gözəli
dünya durduqca var olsun!

Və bir də sən əgər doğurdan da müdirksənsə,
Onda bilirsən ki, mütləq bir şey deyil şərtilik deyilən
nəsnə.

Göndərilməmiş sms-ismarıc

A.Blokun məhəbbət lirikasının motivləri əsasında
"Apşu" klubunda yazılıb

Elə ki, yolumun üstdə dayanıb durursuz mənim
Könlümdən bağırmaq keçir: "Çəkilin, yolu kəsməyin!"

Zira yalnız aşiqlərin yanımda vardır haqq-sayı
Yalnız onlar kəsə bilər mənim yolumu havayı.
Yoxsa nədən dayanmısız yolumda boş-boşuna siz,
Dovşan gözlü bir sərxoşa niyə axı zillənmisiz?

***

Dəlibaş şair olmaq yaman yaxşı bir şeydir
Ağlı başında olan adamların yanında!
Amma sənə sirr açım, inan, artıq çox gecdir –
Ağıllılar uyuyur torpağın altda çoxdan.
Çağırar öz səsiylə – dərə dərəni çəkər,
Boşluq cavab yerinə yenə səssiz dillənər.

***

Nabokov, Bayron kimi gəzəsən, dolanasan,
Kimsədən və heç nədən heç zaman qorxmayasan,
Həmişə də hamıya lağ eləyib güləsən, –
Bir zamanlar könlümdən belə olmaq keçirdi.
İndi də dingildəyir arabir içim, indi.
Amma kobudluq məni indi çox qorxudur, çox,
Kütbeyinlik təbəssüm yaratmır sifətimdə.
Qatarların nəğməsi, məncə boşunadır, boş.
Heç hara getməyəcəm, öləcəm xiffətimdən.
Artıq illər keçibdir, əsrlər ötüşübdür,
Artıq öyrəncəliyəm özümlə barışığa,
Artıq öyrənmişəm mən, ram etmişəm özümü.
Unutmuşam nifrəti, tərgitmişəm lap düzü.
Görünür haqlı imiş o davakar tənqidçi,
Mənə yaxşı ad qoydu, qoca, dişsiz Lenski.

Varlıq haqqında ontoloji dünyagörüş

Ey oxucu və əziz dost!
Ətrafa soyuq nəzərlərlə göz atsan
Hər şeyin bir zibil torbası olduğunu anlayacaqsan.
Yox, əgər isti nəzərlə seyr eləsən ətrafı,
Həmin hər şeyi bir baş başqa cürə görəcəksən.

Yaradıcı emalatxanada

Əgər hali deyilsənsə, oxucu,
Sənə bəyan edim ki,
Hər şey kontesktdən asılıdır,
Hər şey, hətta mən də!

Hər şey kontekstdən asılıdır,
Məsələn, qızın gözəlliyi
"Smirnov"un kəmiyyətindən
Və keyfiyyətindən asılıdır.

Odur ki, mənim keyfiyyətim
Və sənin kəmiyyətin
Mütləq və bizdən
Heç cürə asılı deyil.

Təkrar edirəm,
Kontekstdən asılıdır, əziz oxucum,
Kontesktdən kənarda isə
Təəssüf ki, heç nə olmur.

Yalnız Allahdan başqa.

Bu isə gün kimi aydındır.
Hərçənd çox ayıbdır,
Ayıbdır ki, kontekst kimi
Axmaq bir şeydən asılıyıq.

Bu anlaşılandır,
Xoşa gəlməsə də əyandır.
Amma konteksti seçmirlər,
Elə səni də.

Tərcümə edən: Səlim Babullaoğlu

Vsevolod Nekrasov

(şeirlər)

***

milli ideya
elə bizdə də olsun
adam kimi
milli ideya
milli ideya
bir
milli ideya
normal rusiya
milli ideya
istənilən üsulla

/insanlar kimi
milli praktik odur
həm belə, həm elə, həm belə və elə/

***

"ölkənin baş vanyası"
onsuz da

qəribədir
onsuz da
ölkə hələ ki
adına görə
ən azından hələ
necə olsa
vanyalar ölkəsi
mən ivanuşka petroviç
salam viktor şenderoviç

***

təpəcik
uzaqdan
necə
uzaqdan
ya da gendən
həm elə, həm belə
və belə
hər cürə olur
arxada isə
çay
obrazlı desək əks
perspektivdə
perspektivdə
aşağıya getmək.

***

hardasa burda
hardasa burda
hardasa burda
knyaz vyazemski
və poruçikjevski
/yastrjembski pis səslənir bəyəm deyin yastrjembski
olsun ki, hətta çox yaxşı səslənir/
bir bax
və kosmos
və müqayisə et
moskva ilə

***

buloçnaya konditerskaya
tverskaya yamskaya
bilirik necə
sadovaya
samoteçnaya
moskovskaya
həyatı belə də
üzdən
yelena kurlyandskaya artıq ordadır

***

moskvadır bu
həm tamam
həm özü
moskva
həm böyük
böyük maslenisa
və genişdən geniş
geniş kütlə

***

bu nədir belə
yaxşıdırmı bu?
yox
bu yaxşı deyil
bu yevtuşenko.

***

o lya lya
o lya lya yox
mən isə hiss edirəm
ki, mən
ki, nəsə
o lya lya yox
oy oy oy oy oy

***

moskva
nə deyəsən
moskva
daha burda
nə deyəsən
moskva
sözün əsl mənasında

***

qar ələdi
yerimək də olmur
yuri mixayloviç lujkov
gölməçə

***

bağışla ilahi
bu moskva var ya
bu moskvada
qarımızla
ayaqlarımızla
nə etmək olar
hər halda
ayaq basmağa yer yox

***

demə
vaxt paradır.
vaxt
para isə yoxdur
(paralar dayıya
xalaya
pula
paralar
kefi kök olanlarda
para olmur
halı pis olanlarda
paralar
harda
paralar
dmitri aleksandroviç priqov
irina dmitriyevna proxorova
/və b./)

***

nə olsun
heç nə
odur
hər şeyimiz
bizim
əziz
sovet hakimiyyətimiz.

üstəgəl
yaxud nə təhər
yaxud deteka
adının nə olmasının
bir fərqi yox

***

hə axmaq
bu amerika birləşmiş
ştatlarının da
əllərindən heç nə gəlmir
başları çıxmır

***

şanslar sıfır
kolombo kolombo –18
tamam bu
akademiya kimi
bütün
rus söz sənəti
kimdənsə ibarət

***

bəyaz
bəyaz
bəyaz yarpaq
göydən düşüb o
düşüb
qalanı isə
qalıb
ağacda
hər yerdə
harda
indicə
burda
dünən
hamısı vardı
hamısı
hamısı
qeyb oldu
iş-güc
bahar
yox
belə də
deməmək
əlbəttə
yox

***

hər şey tökülür
hər şey tökülür
onda tamam tökülər
əgər
bahar
olsa
nə vaxtsa
nə vaxtsa
olacaq

***

yekə dəyənək
olan
oldu
pis olan
onsuz da pisdir
ən yaxşısı
yaxşı olardı
deyəsən
necədir
koxun sehrli çubuğu

***

hakimiyyət
yalan danışmağı kəsər

ilahi
rusiyada
hakimiyyət yalan danışmaz daha
qum göyərəndə
/məgər belə deyil
deyə bilər
knyaz vyazemski/

***

Soyuq okeanın axarı
(Sokovin)

bir düşünün
rus söz sənətinin
rus söz sənətinin
akademiyası
nə a
nə de
nə mi ya
nemzer
kurisin
aleksandr arxangelski
sıradan bir olay
görünməmiş həyasızlıq
görünməmiş nə var
görünməmiş həyasızlıqlar
elə-belə olmur
bizim sənətimizdə

***

şərəf
şöhrət
şərəf və şöhrət
yenə
sözlər
şərəf
şöhrət
öncə
utanc
vicdan
olsun öncə
o da ki
yoxdur

***

himn dima piroqov
dima priqov himn

***

baxın siyasətə
necədir
boynun

yekədən yekə olub
lap əyridən əyri
bax
yenə
hakimiyyət
edir əclaflıq
əclaflıq
verir hakimiyyət
hakimiyyət yenə də
edir əclaflıq
əclaflıq yenə
verir hakimiyyət
yenə də
hakimiyyət
edir əclaflıq
elə bundan da
böyüyər
bu əclaflıq
hakimiyyətin hakimiyyəti
altında
iş bundadır
kəndli
ya fəhlə
hakimiyyətə olsun
hansını istərsən
yalnız
aydınlıq gətirdik
sənin
nəyinə gərək
sovet hakimiyyəti
sovet hakimiyyəti

***

olum ya ölüm
bilmək istərsən
var olmağını
sən etmirsən
şifahi anlaşmaya görə
kiminlə
anlaşma
sən
bilmək istəsən
çox şeyi bilmək istəyirsən
kiminlə kiminlə
onunla
həm də kim onu tanımır
açığı

***

terror =
şöhrətimiz
vəzifəmiz=
hüqugumuz=
azadlığımız=
dzerjinski
bütov o=
həyatımız
lenin stalin partiyasından bir loxma
və hər şey
öz yerini tapır.

Tərcümə edən: Rüstəm Kamal

Vladimir Kuçeryavkin

(şeirlər)

***

Bu da qış. Mürgülü təbiətin ovsununda,
soyuqdan zarıyır hey, inləyir qara tramvay.
Zəng çalınır, şaxtalı hava sarsılır birdən.
Quşbaşı qar. Parklarda təkəmseyrək adamlar.

Bu sazaq boğazında sürünən ilbiz kimi.
İşıqfor sönüb, mənim sətrim şəhəri gəzir.
Və bir bulud boylanır evlərin arasından,
bir qarı sifətində,
mənim bloknotumda ilişir həmişəlik.

***

Nə sadə görkəmi var,
qızıl zanbaq, qırmızı nəhəng kimi.
Pəncərənin önündə tək-tənha darıxıram,
cəmləmək istəyirəm fikirlərimi.

Kədərim sərbəstdir, haçan istəsə
gah bufetçi qadını xatırlar,

gah da bir başqasını unudar –
burda, dərinlikdə darıxır okean,
iri pəncələrilə sığal çəkir kontinentlərə.

Öz doğma ləkindən ayrılmış zanbağım isə,
stəkanda məhzun, təkcənə, tənha.
Canında heç şirə qalmayacaq tezliklə,
odur ki, toparlan, getmək vaxtıdır daha.

Lermontov küçəsindəki pivə barında

Alabəzək maşın keçər küçədən,
bir az içmiş adam birdən səntirlər.
əl eyləyər bellərini dikəldib,
alyanaq qüruba baxan kəndlilər.

Bağı-bostanıyla heç öyünməyən,
eləcə yolda uzanıb gövşəyən,
inək də gələr və biz oturarıq,
pivə içib, Tanrıdan danışarıq.

Külək səngiyər və zəncirotular,
Artıq rahat-rahat çiçəkləməzlər.
Gözünə baxaraq bufetçi qızın,
Beləcə asudə dincələrəm mən,
Əlimə hardansa quş qonmuş kimi.

Ürək

Sisli, qaşqabaqlı iyun günündə,
Küçədə, bayırda hər addımbaşı
Tanış bir sifətə rastlaşmayınca,
Qızılgül kolu tək açmış ürəyim,
Mənim xoşhal qəlbim kimi isitsin?
Bilə bilmirəm.
Onu bilirəm ki, ətraf bomboşdur,
Bax, bunu heç cürə başa düşmürəm.

Bir dəstə qızılgül götürüb gəlin,
Ürəyin yerini verməsə belə.
Gəlin, bu məsələni yoluna qoyaq,
Qorxub-çəkinməyə dəyməz, inanın,
Xələl gətirmərəm comərdliyinizə.

Əcaib tellərə bükülmüş tamam,
Sizin yumşaq, pəmbə bədəninizə,
Belə pastel kimi toxunaram mən.
Soruşsanız niyə?
Burada bir ürək yanıb.
Hələ də alışıb-yanır bəndəniz.

***

Üzümə-gözümə qar yağır mənim.
Sıxıla-sıxıla bir qız yeriyir.
Əynindəki kürkü yerlə sürünür,
Və bir canlı kimi yerdə tərpəşir.

Mən də dəliqanlı, gözəl bir oğlan,
Bu kürkü qucağıma götürürəm.
Relslərin üstüylə götürülürəm.
Uçuram qanadlı madyan misalı.

Belə dar-daracaq tramvay kimi,
Qaçıram, uçuram, uşaq ki, uşaq.
Yolboyu qəhvəyi, mixəyi evlər
Sayrışır, görünüb, yoxa çıxaraq.

Mən isə bütün ürəyim, qəlbimlə,
Ölümümü belə gözə alaraq,
Öpürəm yumşacıq dodaqlarından,
Belə uçuruma yuvarlanıram.

***

Küknar bir də haçan xışıldayacaq,
Haçan qurd gözümə baxacaq mənim!
metroda yol getmək xoşdur hər halda,
güclüdür, suludur yenə bədənim.

Sevimli gülümün başı diz üstə,
Amma bu diz mənim deyil, hayıf ki,
Tatar üzlü zabit roman oxuyur,
Titrəşən hərflərə dikib gözünü.

Qəlbimdə sarı sim titrəyir bu dəm!
Adamlar çaxnaşıb, oturur yenə.
öz mahnısından sərməst olmuş şairin
sevimli, sədaqətli qadını kimi,
Rusiya başını qoyur çiynimə.

***

Saqqal, sərt və qaba üz cizgiləri:
O, kitab oxuyub və o, igiddir.
Bir cüt yaraşıqlı kişi gözləri
Süzürlər, elə bil, mənimkilərdir.

Oturmuşuq, nəfəs alırmış kimi.
Vaqonda ütələk səslər uçuşur.
Siçanlar sakitcə, nəfəs dərmədən
Havaya zillənib şeir qoşurlar.

***

Bütün pravoslavlar pəhriz tuturlar,
Mən bəxti yatmış da araq içirəm.
Mənə bir yazığı gələn də yoxdur,
Mən qurdam, mən bülbül-filan deyiləm.

Bol-bol pivə içib, gedirəm yolla.
Nəsə pıçıldayır mənə bu bahar.

Pəmbə buludların aralarında
dolaşır uçuşur hansısa ruhlar.

Sakit danışıram, sənətkar kimi,
Karıxmış, pərişan sənə baxıram,
Mənim qibləsizim tərpəşir yenə…
İşə bax, közərir bu sacayağı,
Mənim belə şeir yazdığım yerdə.

Yəhudi və monqolla cənab o. ilə görüşə gedərkən

I

Sürücü yerində dikəldi birdən:
Qabaqda acıqlı yol polisi var…
Ah, yollar, of, bu vahiməli hiss!
Tanış quzğunlarla dolu yuxular.

Uzaqlarda bir maşın qanad açıb.
Yanpörtü təpədən bir ev boylanır.
Kənd arxada qalır, toz basmış motor
Monqol kimi məhzun zümzümələrlə
Yenə də bu sonsuz yollara dalır.

II

Gözəl maşın yel kimi ötüb-keçir,
Lap uzaqda, elə bil ki, keçidir.
Qaşqabaqlı monqol qalxır, dikəlir.
Bellərini dik tutub, qaçır nəcib ağaclar.

Sükandan yapışmış susqun sürücü,
Uzaq üfüqlərə dikmiş gözünü.
Mürgülü sərnişin. Atır özünü
Dağdan aşağıya kor kilsə birdən.

III

Cibimdə bir qırmızı şüşə göz yaşı tökür,
Evinə qaçan əsgər burda Tanrını görür.
Arxada guruldayır, uğuldayır kainat,
Dəmiryolu yer kimi gülür, uğunub gedir.

Necə sehrli yoldur!
Bu əsgərin gözünü qan necə tutub, bir bax!
Bütün möhlətlərin sonu çatmışmı doğrudan?
Yəni doğrudanmı mən salamat qalacağam?

***

Ah, onun gözəl tumanı!
Ah, onda hər şey gözəldir, hər şey!
Tanrılar kimiyik biz, gəl, bərabər deyilik:
Mən əyyaşam! O isə – gözəllər gözəli Base.

Qarşımda dayanıb o, qürurlu, məğrur.
Mənsə onun önündə belibükülü, məhzun.
O – mənim ucalıqda dayanan hissəciyim.
Mən – onun ətrafında fırlanan ruh misalı.

***

Pəncərədən görünüb, yox olar Sadovaya,
Rəqs edər odlu-odlu qara, uzun corablar,
Yad başmaq nəvazişlə gülümsəyər üzümə,
Peterburqda yadelli, əcnəbi kimi xoşhal –

Biz sənlə, sevgilim, oturarıq yanbayan,
Tutuşar qəlblərimiz, bundan sonra – əlvida…
Bax, onlar dəstə-dəstə səmanı doldurublar,
Sanki böyük bir savaş başlanıb oralarda.

Tərcümə edən: Etimad Başkeçid

Vitali Filippov

(şeirlər)

Yuxu

Gecə saat birdir… Tanrım, mən neyləyirəm.
Şirin yuxu, gözəl yuxu. Yox, bəsdir daha!
Qartmış, qoca bədheybətə oxşayıram mən,
Atəş sarıb sanki məni, yanıram odda.

Güzgüdə gördüm özümü bircə anlığa,
Yəni bu doğrudanmı mənəm, ay aman?
Ürəyimin odu sönüb, gözlərim yorğun,
Güzgüləri görən gözüm yoxdur o vaxtdan.

Dolaşıq fikirlər, çeynənmiş qafiyələr,
Mənə çoxmu lazımdı vaxtsız oyanmaq?
Heç şeyə yaramadı bütün bu hazırlıqlar,
Sizi bir də görməkçün yatmaq lazımdır, yatmaq…

Canlanma

Bütün sərhədlər itir maskasız oturunca,
Boşuna öyrənmədim yaşamaq sənətini.
Əsas odur, bacarıb tez-tez özün olasan,
Vecinə almayasan xırda, cəfəng şeyləri.

Boğazımı ilgəyə salmaq istərkən yenə,
Yadıma salıram ki, geriyə durmaq olmaz.
İş-güc başlayır yenə – istefaya əlvida,
Piyada vəzir olur, təpərin olsa bir az!

Çətinliklər

Mübahisə etmirəm, yaşamaq asan deyil,
Hər zaman maneələr gözləyir yolda bizi.
Ancaq taleyi sorğu-sual etməli deyil,
Axı həyat bir qutu konfetdir, bir assorti.

Kimlərinsə Tanrıdan payı var, vergilidir,
Kimlərsə zəhmət çəkir, əməyilə qazanır.
Kimsə öz arzusuna yetişməz illər boyu,
Bir başqası hər şeyə göz qırpımında çatır.

Varlısan, kasıbsan: nə fərqi var, vacib deyil,
Sənin yolun hey doğru qapılara aparır.
Eşitmək olmur onu, gözlərə də görünməz,
O hardasa ürəkdə, könüllərdə yaşayır!

İnanıram, gün gələr, insafa gələr uğur,
O gözəl, ağ üzünü mənə sarı da tutar.
Və mən dağı dağ üstünə qoya bilərəm, demək,
Hər şey yerini tutar, hər şey gözəl qurtarar.

Seçim

Demək olar, hamı ilk yaşlarından,
Bəziləri hətta ondan da qabaq,
Sadə bir suala cavab axtarır,
Nə edək, ruh əsirsə ehtiyaca?

Bəlkə də artıqdır bunları demək,
Bu dünyada vacib nələr var, nələr.
Elə ki, seçməyin zamanı gəldi.
Ruhunu yalnız bu ram edə bilər.

Heç kəs şirin-acı məsləhətlərlə,
Nizamlaya bilməz öz növrağını.
Növrağı başqadır insan ömrünün,
Özün tapmalısan cavablarını!

Payızı gözləyərkən

Kimsə qovurmuş kimi havalı, başılovlu,
Gözləyirəm nə zaman düşəcək ilk soyuqlar.
Göylərin etinasız gözlərinə baxıram,
Varımdan yox oluram, soyuyur ehtiraslar.

Elə arzulayıram yağışlı, boz günləri,
Tamam başqa aləmdir bu günlər mənim üçün.
Belə günlərdə fikrim, xəyalım qanad açır,
Sanki birə beş artır mənim qüvvətim, gücüm.

İşsiz-gücsüz yaşamaq istəmir axı insan,
İndi necə olmasa, birtəhər keçinərəm.
Pərdənin qaraldığı anı gözə alaraq,
Arındım cəhənnəmə düşmək fikirlərindən.

Belə yalnız fani fikirlərlə yaşamaqdan
Sevmək, aşiq olmaq istəyirəm - cana doydum!
Mənim cənnətim isə sahibsizdir baharacan,
Həsrətlə gözləyəcək dumanların yolunu.

Yarımcan

Yarımcanam, ancaq hələ məni atmayıblar,
Mənim yolum yalnızca irəlidir, blirəm!
Atılmış bir kənara bütün sərsəm fikirlər,
Gündoğanı yanğıyla ciyərimə çəkirəm.

Bugünkü yay günüylə yaşamaq olmaz, bunu
Kimlərsə deməlidir, dilə gətirməlidir.
Ancaq… bir başqa səmtə yönəltdi məni nəsə,
İnanmamaq da olmur, bu da mənə bəllidir.

Mən özümü hamıdan yuxarı tutammaram,
Çünki hamıdan güclü həmişə tapılacaq.
Bizə ancaq iş qalır, həyat nəşələrindən
Uzaq dayanıb bir az, ucalığa tapınmaq.

Mən də, dediyim kimi, apogey həvəsində,
Kompasım düz işləyir, buna ümid edirəm.
Yarımcanam, ancaq hələ məni atmayıblar,
Mənim yolum yalnızca irəlidir, bilirəm!

Virtuoz

Fortepianonu gözəl bilən bir maestro,
Öz gözəl alətinin arxasına oturur.
Bir qədər narahatdır, içkilidir bir az da,
Bilirsiniz, şeirimdə belə şeylərsiz olmur.

Başlayır, nə başlayır, bu nə möhtəşəm ifa!
Doğrusu, adam bilmir inansın, inanmasın.
Elə bil, ehtiyatla, yüngül addımlarıyla
Otağımı doldurur bir poema havası.

Elə yanğılı çalır, gözümü doldurur yaş,
Ürək fərəhlə dolur, ruhum titrəyir mənim…
Bu elə ehtişamdır, gizlətmək mümkün deyil,
Bu sehrin havasında gizildəyir bədənim.

İdiot

Növbəti idiotu salamlayırıq,
Sizin kimi gənc olub o da haçansa.
Tez böyüyüb, nəhəng olmaq istəyib,
Gözəl körpəliyi unutmayıb ancaq.

Qazanc axtarmadan, minnət güdmədən,
Sözə könül verib, şeirə bağlanıb.
Ona neçələri öz donuzunu
Sırımaq istəyib, o isə hər yol.
«Ulduzlarımı sizə vermərəm» deyib.

Onu bütün ilhamı, bütün qayəsi,
Sadə insanlara, zəhmətkeşlərə ,
Onun şeirlərindən təskinlik tapan,
Məvaciblə birtəhər keçinənlərə,
həsr olunmuşdu.

Onlarsa idiota hey deyirdilər:
əslində göründüyün kimi deyilsən,
üzündə maska var, bu maskanı çıxar,
Pissən sən, sözümüzdən inciməyəsən.

Günahkar özünsən, baiskar özün,
Yalançısan, hiyləgər, ikiüzlüsən,
Əgər bu xislətindən əl götürməsən,
Birbaşa cəhənnəmə düşəcəksən sən.

İdiotsa onlara cavab verdi ki:
Gündüz-gecə bilmədən, nəfəs dərmədən,

Sizinçün əlləşmişəm, vuruşmuşam hey,
Sizinçün yazmışam mən, sizə yazmışam.

Ancaq niyəsə ona inanmadılar,
axı lovğa idi o, təkkəbbürlüydü.
Özünə inamlıydı, sadiqdi ancaq,
Və könüllərdə yuva qurmaqdı dərdi.

Axı neyləsin indi bizim plebey,
Onu bu hallara saldılar açıq.
Bel bağlaya bilmir artıq heç kəsə,
Nə həvəs qalıb, nə şövq azacıq.

Heç nə haqqında

Yağışlı boz şəhərin səsli-küylü havası,
Xoş edir ovqatımı, könlümü sevindirir,
Mən belə havalarda çox-çox rahat oluram,
Qəlbimi sevgi sarır, ürəyimi isidir.

Çətin ki, kimlərisə maraqlandıra bilsin,
Bir cavanın boş, cəfəng uydurmaları.
Yaxşısı bu, şəhərin səs-küyünü dinləyin,
Ürəkləri həvəsə gətirən havaları.

Bu havalar insanı düşündürür, deyilmi?
Zaman, məkan haqqında fikirlərə qərq edir.
Neçə il yaşamısan, gör, bu fani həyatda,
Nə qədər yol keçmisən, bu yollar hara gedir?

Görəsən, mən bunları niyə deyirəm sizə…
Bu səsi, bu havanı dinləyəsiniz deyə.
Bu adi yay fəslidir, sıradan bir yay ayı,
Hisslərin qasırğası, emosiya tufanı.

Əski-üskü

Köhnə şeirlərimi oxuduqca arabir,
Bütün çılpaqlığıyla, aydınca dərk edirsən,
Zamanın insan üçün nə demək olduğunu,
Gözlərinə zillənmiş qürubun işığında,
Sürəksiz darıxmanın ani od-alovunu.

Keçmişdəki özümü xatırlayıram bu dəm,
Nələr arzulayırdım, nələr fikirləşirdim.
Yad röyalar görürdüm şirin yuxularımda,
Necə səbirsiz idim, necə hay-küylü idim.

Necə vəfalı idim aşiq olduğum qıza,
Necə qan uddururdum bardakı əyyaşlara.
Heç nə unudulmayıb, xatirimdədir hər şey,
İçməmiş sərxoş idim, elə bil, o zamanlar.

Köhnə şeirlərimi oxuduqca arabir,
Bir idiot görürəm qarşımda, amma nədən?
Bax, o da sizin kimi cavan idi haçansa,
Uçmaq ehtirasını unutmayıb hələ də.

Hisslər

Hara çıxıb getdin? Eybi yoxdur… istiləşər
Sən qayıdan baş, qayıtmaq istərsənsə əgər.
Sən yoxsan, siqaret tüstüsünə isinərəm,
Şaxta, ayaz taparsan sabah mənim yerimdə.

Bilirsənmi nə qədər darıxır, ağrıyıram,
Amma quşdan da qıvraq, yüngül idim haçansa.
Tanışdır mənə bu hiss, bu hissi tanıyıram,
Mən alçaqdan uçardım, sən isə səmalarda…

İndisə çıxılmazlıq… hisslərim qırıq-qırıq,
Bir vaxtlarsa bu hisslər sığmırdı içimizə.
Gözəl günəş altında dolaşmaqdan doymazdıq,
O vaxtlar mübtəlaydıq bizlər bir-birimizə.

Qəlbimin çığırtısı bu iztirabdan doğur:
Bir dəfə yaşayırıq, puldan da, insandan da,
Qiymətlidir bu hisslər, bunu bilməmiz gərək,
Necə olursa, olsun onları itirməyək.

İstedadsız şair

Yeni nə dediniz guya siz mənə,
Mənim istedadım yoxdur, tutalım.
Mənim bu dünyada nə işim qalır,
Özümə qəsd edim, bəlkə, qurtarım?

Necə «peşiman»am, bir bilsəydiniz,
Vecimə almıram sizi qətiyyən!
Mən öz bildiyimi yazacağam hey,
Mənə nə, nə keçir könlünüzdən.

Bəlkə də, hörmətli «xanım»lar, «bəy»lər,
Hələ düz-əməlli kəsmir ağlınız?
Nədənsə sizləri aldatdığımı,
Hiylə gəldiyimi zənn edirsiniz.

Oxucuya, axı, epik lazımdır,
Çaxnaşmalar, vuruşmalar, tələtüm.
Bu cəfəng şeylərdən heç biri amma,
Yoxdur məndə… əsas mənadır, məna.

Aslan

Gözü qızmış qəzəbli, hirsli gümüş aslanam.
Etiraf olunmağı bezmişəm gözləməkdən.
Yaman qanıqarayam, yer tapmıram özümə,
Daha əvvəlki cavan oğlan ola bilmərəm.

Polad da bax, beləcə, sərtləşir sərtləşdikcə.
Bədənim daş kimidir, kəndirdir əsəblərim.
Gələcək çar sərtləşib, möhkəmlənəcək, ya da,
Ya da onun qərarı çox tez olacaq, qəti.

Yox, mən hələ sınmağı ağlımdan keçirmirəm,
Məni öldürmək elə asan məsələ deyil.

Buna şübhə etməyə vaxtım olsaydı əgər,
Yaşaya bilərdimmi, bax belə, deyib-gülə.

Mənim polad əsəblərim
Qəzəbdə bərkiyir…
Mənim polad iradəm
Qorxuda…
Gümüş aslan isə
Həyatda…

Yay axşamı

Hər axşam yeni bir səhifə açır,
Başımda yeni fikirlər dolaşır.
Elə bir iş də yox məşğul olmağa,
Donuq ulduzlar da qaçmış uzağa.

Havanı doldurub xoş rayihələr,
İçimə çəkirəm tez-tez havanı.
Ay işığı sığal çəkir torana,
Qapqara buludlar tutub hər yanı.

Rənglər göz oxşayır, al-əlvan rənglər,
Suların üzündə işıq sayrışır.
Axşam necə düşdü, xəbər tutmadım –
Mənim Ay işığına qarışıb başım.

Adda-budda səslər və yenə sükut…
Elə bir sükut ki, qulaq batırır.

Bizə təslim olmaq bu xəyallara,
Sakitcə yuxunu gözləmək qalır.

Nə qədər uzaq olsam da

Heç bilmirəm nə deyim,
Gəlməsin sənə asan.
Yalnız sənsən gözümdə,
Nə qədər uzaq olsam.

Nə düşmüsən arxamca,
Məndən gen düşüb həyat.
Sən gördüyün yalandır –
Haylı-küylü maskarad.

Həyatımı verərdim,
Necə də təmiz, safsan.
Qorxuram…belə getsə,
Başıma iş açasan.

Hətta…bax, elə indi,
Adın çıxmır ağlımdan.
Yalnız sənsən ağlımda,
Nə qədər uzaq olsam.

An

Yaddaşıma həkk elədim bu gözləri,
Bu gözlərdə əbədiyyət özü vardı.
Həyat özü, həyatdan da artıq şeylər…
Mən onlara sonsuzadək hey baxardım.

Bu fərəhli röyalara tutulmuşdum,
Ondan başqa kimsə gərək deyildi mənə.
Hələ onun bənövşəyi pomadası
Boşluqlardan işıq tutur sifətimə.

Metrodakı güclü küydən ayılıram,
Axmaq kimi görünürəm, bu nə işdir?
Gəlib çatdım, artıq çıxmaq zamanıdır,
Vaqona boylanıram, vaqon bomboşdur…

Orada

Bilinməzin qapısını açıb da,
Qapının önündə dayanacağam.
Qəlbimdə səslənən musiqi bu dəm,
Caza oxşayacaq əməlli-başlı.

Burda bir siqaret yandıracağam,
Qapıdan içəri zillənəcəyəm.
Mənə qadağandır orda nə varsa,
Caz qəlb çırpıntısıyla əvəzlənəcək.

Bu qorxudur, yoxsa şübhə toxumu?
Bədənim üşənir, əsir ürəyim.
Anlaşılmaz zülmət güc gəlir mənə,
Qorxu lap canıma işləyir mənim.

İşığın yoxluğu deməkdir zülmət.
Qapını mən özüm uydurmuşam, hə,
Mən burda hər şeyi öz bildiyim tək,
Boyayacağam yay rənglərinə.

Dediyi kimi

Qardaşım Şekspirin sözünə görə,
Mən təlxəyəm, oyunbazam səhnədə.
Ancaq mən onunla razı deyiləm,
Özümə güvənmişəm çünki həmişə.

Sən demə, gerçəkmiş onun dediyi,
Sanki Nostradamus, peyğəmbər kimi.
Mən zirək meymun tək əyləndirirəm,
Təki ağaların açılsın kefi.

Bunu başa düşdüm, neyləyim indi?
Axı başqa şeylər gəlmir əlimdən.
Bəlkə çıxıb gedim, yox belə olmaz.
Onlarla davaya çıxım yoxsa mən.

Yox! Tapdım! Tamamilə ciddi olmalı,
Qoy atım, yesinlər fikirlərimi,
Ölümlə, həyatla oynamamalı.
Ehtiyac varmı ki, dəyişdirməyə,
Mənə taleyimi və qədərimi.

Tərcümə edən: Etimad Başkeçid

Aleksandr Anaşeviç

(şeirlər)

***

Gəzib-dolaşırıq padşahlar kimi
Belə təyyarələr, gəmilər kimi
Uçuruq Kremlin, Qızıl meydanın
Üstündə qarğatək qanad gərərək.
Hər şey şölələndi bir də görürük
İşə başlayınca zaman relesi.

Amma uşaqlıq da var idi axı:
Çiçəklər, kağızlar, safsarlar
Dondurma köşkləri, dəhşətli qorxular
İndi baş-beynimizi sarıblar ağrılar
Dilimiz altında əriyir dərmanlar
Qulağımızda Gillepsinin trubasının küyü
Cənub fontanında olduğu kimi
Bəbəklərimizdə işıldayan sikkələr.

***

Mr. Filonov, Sizdən bir xahişim var…
Öz yanınıza alın məni, yarğana uçuram

Helikopterimin pərləri zədələnib
Yardımınıza ehtiyacım var.
Yaxşılığınızı unutmaram, ayağınızı öpərəm
Duaçı olaram sizə, hərənin öz tanrısı var
Meydanlara çıxaram, hamıya sizdən danışaram
Adınızı pişiyimə, atıma qoyaram
Təkəbbürü unudaram, sadə adam olaram
Müqəddəs olaram, rus mentalitetinə qarşı çıxaram
Mr. Filonov, SOS, cavab gözləyirəm.

***

Bu da ədəbiyyat həyatı
Alkoqol, aseton, zəhrimar…
Çox şey var, bilmirsən hara qoyasan.
İblis qabağına qatıb aparır
Liberiya, Sardiniya, Beyrutu
Hər şəhərin özünün öz Brutu
Belə-belə manevrlər, taktika, belə-belə işlər
Telman küçəsində barmağına dolamış hamını
Xəlvəti, zərif çiçəklər açmış Qızçiçəyi kimi
İçərini də, çölü də sarıb iblislər
Görmürsənsə, yaxşı bax, gözlərini sil
Görüncə nəfəsini tut, tərpənmə
Bir daha gözdən keçir yazılanları
Ruhdan düşmə…
Bütün pəncərələrdə cənnətdən nişanə var
İblis rahat buraxmır, hey qovur:
Səslər eşidirik – qovhaqov, vurhavur

Vişnu, hara üz tutmuşuq, hansı nirvanaya giririk…
Tacdar və məkrli olmaq istəyir hamı birdən
Fasbinderin Martasını əzişdirmək keçir ürəyindən

***

Şairi alqışlamayın heç zaman…
Ona görə
Yeddinci siqareti çəkirəm dalbadal
Siqaret, papiros, sinderella
Bir az aralıda gəzişir Polina
Arabir göyə açır əllərini
Üzünə işıq salır Ay, Venera, Merkuri
Vurnuxur, manekeni qamçılamaq istəyir
Gözündən qığılcım qopacaq, Makkenanın qızılları
Anidən görünüb yox olacaq
Tələs, tələs, baxmaq lazımdır, premyeri
Bağlaya, möhürləyə bilərlər,
Ölçü götürə bilərlər barəsində
Burada çoxdandır qaydasız oynayır hamı
Çoxdandır libassız, qrimsizdirlər
Statist darıxır, prima hamının yerinə
Rəqs edir ayağı döyənək olunca
Heç kəsi alqışlamayın heç zaman
Uyuyuram
Sərxoş Polina otaqda gəzişir
Bir tək o qalıb bu şəhərdə, bu məkanda
Bataqlığa düşməyib, liftdə qalmayıb, elə-belə
Öz yuxularında, çevrilmələrdə, öz yaddaşında

***

Coğrafiyanı öyrənməklə başımızı niyə xarab edirik deyirəm…
Yerimdən tərpənən, addım atan deyiləm
Pəncərəni açıb qışqırıram: «Yardım et! Boğuluram, alçaqdır tavan»
Mən burda təkəm, uzanıb siqaret çəkirəm, çatmır havam
Coğrafiya, qlobuslar, atlaslar, kontur xəritələr
Mənim mənzilimdə, bu şəhərdə yoxdur heç biri…
Alo, insanlar, sizi dinləyirəm, bax
Məni yola salmağa gələrsiniz sabah
Gedim, ən kəsə yolu tapmağa çalışım
Bu barədə göyərçinə, ağaca, qardaşıma, anama
Anama və bütün kəndə danışım

***

İncimə, Praskovya, dava salma
təkcə səni sevirəm Moskva ətraflarında
Darıxıram, gecələr yata bilmirəm
Görürsən: ayaqlarımı qaldırmışam, böcək kimi ölürəm,
Boğazım ilgəkdədir
Hər şeydən arınmış bir an durur
Bütün bunların arxasında
Simona Şults deyiləm mən, inan
Simona Şults cənnətdədir çoxdan
Onsuz da darıxıram mən

Böcək özünə gəldi, ormana daldı həmən
Mən korset taxıram, düzdür
Amma dəli deyiləm
Pomada da, pudra da həmişə mənimlədir
Yaxşı ki, hes kəs mənim keysimə baxmır belə
Sənin mənə verdiyin kosmetikanı polislər aldı
Yaxşı pomadaydı, sadəcə aləmdi
Proskovya, bir bax, nə olub əllərimə
Yaralar, xoralar, daha nələr
Görürsən, gül açır əllərim
dişiciklər, erkəkciklər, ləçəklər,
beynim xarab olub, təmirə ehtiyac var başımda
gəl, başqa ölkəyə gedək kiçik bir maşında

Triya: tərk etmə

Mən, German, Sofya və Serafima
Dənizdə üzürdük. Polşanı adladıq biz
Zəvvarlar kimi yorğun, bağrı qan idik amma
Tanrının saf qulları, paltarsız və qrimsiz

Yoldan-izdən sapmadan, düz gedirdik, düppədüz
Arxada qalır Vyana, Praqa, Rusiya quyusu dibsiz
Slavyan kilsələrinin qızılı qübbələri, mavi Prado
Gedirdik, əl-ələ, sıx sıralarla, addım-addım

kiminin şöhrəti, kiminin pulu var, bizim yolumuz,
gedirdik, Tanrıdan əta olunmuş yol xəritəsilə biz
dəniz kükrəyirdi, karaoke müşayiətilə gedirdik sanki
dalğaları yarırdıq, elə bil, əl-qol atırdı çılğın Rokki

Germanla Georgi batdılar, Sofya, Serafima
və mən qaldıq
Faciə pantomiması ilə yoldaşlarımızı ağladıq.
göz yaşlarımız dəniz gilinə çevrildi
Moskva və Berlin arasında mərcan adası bitdi

Serafima aşiq olub tərk etdi bizi, irəlilədik bizsə
Az qala boğulacaqdım duzlu suda, tüpürdüm,
tutuldum öskürəyə
Qarşinin səyahətçi qurbağası kimi bədbəxt idim tamam
Düşünürdüm: çox yorğun, çarəsizik, biz hara,
bu yol hara.

Səmada qara dəliklər açılmış bir yerlərə çatmaq…
Köçəri sirkdəki kimidir, deyirlər, orada heyvanlar
bir-birinin qanına susayıblar, insanlar vampir
Orada hər şey qoxumuş pendir iyi verir.

Cənnət demə buralara, Sofya, cənnət deyil bura
Məni tək qoyma burda, çıxıb getmə heç yana
Az qalıb: görürsən, Çin görünür irəlidə, ay can
Yüz addım da atsan, artıq müqəddəs olacaqsan

inadla bu qədər yol gəldik, çin oldu arzular,
dabanlarımızı yedi, yandırdı duzlu sular
qaraçı iynələrinə, öləziyən közə döndük, dəyişdik
ikimiz qaldıq həyatda, krallar kimi nəcibləşdik

bizə German və Georgi kimi dibə vurmaq olmaz
Serafima kimi özünü xərcləyib,
pəncərədən baxmaq olmaz

Qara dəniz suyu boğur, sınmış şüşə venamı doğrayır
Sofya, cəld tərpən bir az, gecəyə bürünür çöl-bayır

Bax: boşluqdan çıxırlar Serafima, Georgi, German,
Donuq baxışlarında güllər açılır həmən
Lap canlı kimidirlər: duzlu, buzlu sularda
Daşa döndülər onlar,
Gəminin vintləri də sındırmadı onları

German, Georgi, Serafima qaya tək dikildilər önümüzdə
Bir orduya döndülər: bu qədər gümüş güllə
yox idi axı bizdə
Hər şeyi toz eləyən cəhənnəm maşınları onlar
Lap Eduard Hill kimi qəmli-şirin oxuyurlar

Sofya, yuxarı qalxaq, irəli gedəmmiriksə,
Orada sevgiləri günah saymazlar bizə
Göylərə qaldıracaq sənin gülüşün bizi
Atıb-tutacaq belə, böyük fırtına kimi həmən
Sofya, «ölüm» deməmək üçün deyirəm bunları mən.

***

V.K.

Ruscada kimə deyək ki: sevirəm səni, hara
Oda, qoz ağacına, skamyaya, sərçəyə, rüşvətxora
Yalan demirəm, deyəcəyəm
Qururumdan keçəcəyəm, onu öldürəcəyəm.

Acından ölürəm, özümə öz döşümü verirəm
Korneliyə, Avqustinə, Pavelə deyirəm:
Sevirəm, İngiltərədən, Rusiyadan çox sevirəm
Xalamdan, Liverbuldan, tünd tənbəkidən
Şotland viskisindən də artıq sevirəm mən
Çoxlu araq, çoxlu ət, çoxlu canıbərk rus kişisi
Soyuq, qaranlıqdır – nə əbədi göz yaşlarım görünür,
nə üzümün qırışı
Bu kiçik bir şəhər idi, bir andaca böyüdü
Özümü itirdim burada, maşınların arasında itdim
Necə açım qapısını bumbuz otağımın
Hanı mənim kokanim, həşişim hanı?
Fukk off; İ forgot what is the Russian for: əl çək
Bu sözlər üçün yaranıb dodağım, dilim, boğazım məgər?
Neyləyim: rus cır-cındırı ilə doludur ətrafım
Ən qiymətli şeyləri dostlara dağıtdım
Özüm az qala torpağa gömüləcəkdim –
burda quyular çoxdu
Daşları, xalamın məktublarını, kil dərsliklərini özümün
İngilis kral köklərimə bağlamalı oldum.

***

poçtda görmüşəm: sol əlilə imza atır əsgərlər
Anomaliya: necə xatırlamayasan Freydi burda
Bir rəfiqəm var mənim, adı Valyadır
Küçələri dolaşır, başı üstündə yanan halədir
O, evlərə girir, çardaqlara qalxır
Vəhşi pişiklər və siçanlar əlinə atılır

Qara milçəklər, bitlər sol əlindəki yeməyə daraşır
Ürəyiyumşaqdır, gecələr bəzən kimə görəsə ağlayır
Qonşular uyuya bilmirlər onun səsindən
Qonşu qonşuya deyir: sakit ol, yat,
başını balışın altında gizlət
Qonşu da qayıdır ki: yuxum yoxdur, nə balış,
nə həkim kömək eləməz
Valya sol əlilə imza atan əsgərlərin yanına gedir
Əsasını itaqqıldadaraq, onların kazarmasına girir
Və onların gözündə səhləb, şəbbu kimi çiçəkləyir.

***

Krestıda yaşayıram, zərlənmiş yerlərdə, hava körpülərində
Ağlamırdım, gülmürdüm, dəyişirdim göz önündəcə
Ağıllı, mehriban idim, yelbeyin ləçərə çevrildim
Nədən danışdıqlarını bilirəm on beş yaşlı kişilərin
Hansı dildə, hansı sözlərlə, anşırıram
Hirsli və ya sərxoş olanda mən də elə danışıram
Məni meşəyə aparın, bu ilahi məhbəsdən qurtarın
Darıxıram burda, bir əyləncə yox klubdan savayı
Rəqs etmək, oynamaq, sonra dodaq-dodağa öpüşmək
Böyük riskdir bu, ətraf düdəmələrlə doludur
Başından vurub, itin yuvasına salarlar, ondan da betər
Qarnından unutma məni bitər.

***

bütün bayramı boş evdə keçirdim, belə
Qohumlarım Kostromaya ölməyə gediblər
Bayırda hay-küy, bayram, karnaval
Mənimki isə qanqaraçılıq, karvalol
Pəncərədən hava şarı düşdü içəri, aman
Bu dəhşət qurtarmayacaq heç zaman
Dəflər vurulur, sümsülər çalınır hər yerdə
Tum və piroqlar tutmuş insanlar əllərində
Mən bu qələbəlikdə azıb, itə bilərdim
Hamını belimə yükləyib çəkə bilərdim
Ancaq yerimdən tərpənə bilmirəm, heysizəm
Atıblar məni dostlar, yoldaşlar, bələdçilər
İt yiyəsini tanımır, atəşfəşanlıq, kef sürən adamlar
Şənlənir hamı: əsgərlər, klounlar, axmaqlar
Mənsə uzanmışam, papirosla mələfəni yandırmışam
Ölümə, onun soyuq oduna qısılmışam

Pavlovun iti

O hürmədən, aşmadan, zingildəmədən
Sonuncu vaqonu tərk etdi birdən
Babadan, nənədən, qanundan doymuşdu cana
Gözəl həyata qovuşdu: ölüm, şana
«bədənimdəki qıllar deyil, uzun-uzun saçlardır
İnsan saçlarıdır, qapqara, şəvə
Şimal qütbündə də soyuq olmaz mənə, –
O, Pavlova deyirdi qadın səsilə, –
Sənin ürəyində belə üşümərəm mən

Ürək bir yana, skalpel altında da üşümərəm
Alova-oda çevrilər mənim saçlarım
Səndən qaçıb şaxtaya, təmiz havaya çıxaram
Sən pis adamsan, Pavlov, bilmirdim, səni sevirdim
Əvvəldən də sevmirdim, sonra sevdim,
sonra yenidən itirdim
Başımı itirmişdim, damcısalan altındaydım,
Fikirli-fikirli sənin mavi gözlərinə baxırdım
Pavlov, bilirəm, səni heyvanları sevməyə
vadar edə bilmərəm
Nə də evlənməyə, badə toqquşdurmağa
sövq edəmmərəm
mənim bədənimi parçalayıb-didməkdir sənin işin
Bunu ürəkdən edirsən, manyak kimi, nəfəsini dərmədən
Artıq yumurtalıqsız, beyinsiz, dalaqsız qalmışam mən
Gözümü, baldır sümüyümü, qulaq pərdələrimi itirmişəm
Yarımcan dayanmışam, kar eləmir dava-dərman
Məni kim çıxaracaq, Pavlov, bu quyudan
Mən itəm, Pavlov, it, Pavlovun iti
Anna Pavlova yox, Vera Pavlova yox,
Pavlik Morozov yox
Hətta mənimçün göz yaşı tökən, Moskvalı Lena da deyil
Burax məni, azad et, nə olsun ki, şikəstəm
Şikəst olsam da eybi yox, pişik ki deyiləm
Burax məni, bir təpik vur dalımdan
Ancaq yavaş vur, sevərəkdən, elə-belə
Ki, mən qaçım, qaçım, yeldən qanad taxıbmış kimi,
uzaqlara
Maşınların arasıyla, azadlığa, zibilliyə, başqa məkanlara
Pavlov, sən öyrətdin mənə dünyadan həzz aparmağı
Bu sehrli, bu geniş, gözəl dünyadan açığı.

Peterburq

Sən qovduqca qaçıram**,** ağzıma gəlir ürəyim
Qupquru quruyub, kuraqaya bənzəyir ürəyim
Sənin sevgin fikşn-dir, axı mən şiksayam
İkslər və iqreklər başımı doldurub tamam
Mən dəlibaş dəmiryolu quşuyam
Xoşuma gəlir evdəki Osvensim, nələr, nələr
Burda məni bibərlə yandırır, sözlə zəhərləyirlər
Mən öz yolumla gedirəm sakitcə, V.Hersoq kimi
Sən Vudi Alleni sevirsən, onun yəhudi nəğmələrini
Onu yamsılayırsan – bel əyilib, uzun bakenbard
Yüngül polyak ləhcəsi, nazik barmaqlar,
Mümkün deyil sənin daş zirehini dağıtmaq
Daxildən isə istridyətək yumşaqsan, yupyumşaq
Paçanın arasında üçüncü göz, sinəndə əjdahalar
Tənbəkiylə yemləyirsən onları, gen-bol, doya-doya
Pərdənin arxasından baxırsan dünyaya

***

İnşaatçı, ocaqçı, bələdçi və sürücü
Adalara getdilər quşlara baxmaq üçün
Yel dalayan üzlərini göylərə çevirdilər
Onları nə küçə, nə nəhəng balıq,
nə intuisiyaya görə gəlmişdilər
Danışan kələf, sehrli mil gətirmişdi onları
Dörd adamdılar, od-alovdan nişanə kimi

Çoxdular, çəyirtkə, mənənə kimi
Baxınca Ay görürlər yalnız, quşlar axşamlar yatırlar axı
Dəmiryolu tozuna bulaşıb bələdçinin paltarı
İnşaatçı paz çalır, ocaqçını odluqda yandırdılar
Adanı dörd dolaşdı sürücü öz maşınında
Quşları görmədilər gəl ki, qış düşəndə ölürlər onlar
Qanadlarını yığıb, od kimi uçurlar sazaqlı qarışıqlıqda

Qış

Pərgarlar, tərəzilər-filan, əcaib yazılar
Üç günə qış düşəcəksə, kimə lazımdır bunlar
Qara dəlikdəyik sanki: heç nəyi görmək olmur
Baş-beynimin içində guppagup çəkic vurur
Bu ölkəyə lazımsız təyyarə azıb, uçur.
«Heç yana getmə, - deyir, deyir polis nəfəri
Hava yumşaqdır yaman, yalan, böhtan vaxtıdır».
İnanmıram, duyuram: Milad durub arxamda
Vertep bərq vurur, mənə bəxşişlər hazırlanar
Elə hədiyyələr ki, heç yuxuna da girməz:
Qar, brilyantlar və yiyəsiz heyvanlar.

Yüz libas birdən

Üst-üstə yüz libas geydim
alış-veriş yerini tərk etdim

satıcı bunu görmədi, təəccüblənmədi
başqa işləri vardı çünki

əlim əsirdi, papirosu tutammadım
yüz libası birdən yandırdım
deşikləri çantamla tutdum tamam
üstlərinə kəpənək tikməli olacağam

yüz libası birdən buladım
yuyardım, paltaryuyan olsaydım
məcburam qanlı ləkələrlə dolaşım

son ağlımı da aldı sevgi
hamı üz döndərdi, tərk etdi məni
qara pivə içdim – yüz ildi dadmamışdım
yaxınlaşdım, öpdüm, yüz libası birdən çıxardım

***

illər uzunu yatdım, gözümü açmadan, yüxü görmədən, qaranlıqda
Qaranlıqda: sanki yad kölgələr düzülmüş bir sırada
Kim idi məni qırx illik karantində saxlayan
Bunu hansı kitabdan, hansı filmdən öyrənmək olar
Başım ağrıyır: bir kilo aspirinlə də kömək etməz
Fikirlər dolaşır beynimdə, fikirlər ilmə-ilmə
Mən bura qoyduqları yadımdadır, amma necə gətirmişdilər, hardan
Qırx ildir uyuyuram burda, daş barabanda

Hardasa Həbəşistanda, Feodosiyada, İranda
Niyə məhz məni seçiblər, kimlərin içərisindən
Ağacla döyüblər, zəncirə vurublar,
başımı qırxıblar dibindən
Bu tələdə qırx il necə yanmışam mən
Doğrudanmı belə davam edəcəyəm yaşamağa
Ömür boyu hörümçəklərlə, göyərçinlərlə,
mələklərlə, buludlarla
Hərdən qülləyə baş çəkib,
mənə əcib məxluq kimi toxunan
Nəhənglərlə danışmalı olacağam

Türkiyə: saat almaq

Çəkiylə saat aldım İstanbul bazarından
Böyük bir ov iti didib-parçalayırdı məni durmadan
Bir kilo siferblat, dişli çarx, əqrəb almağım ucbatından
gərək Barbara Streyzandınkı kimi kiçik bir libas alardım
onu şirin-şəkər Türkiyədə də unutmamışdım
mahnıları dilimdəydi, istidən məhv olub,
kiflənməmişdilər
saatları vağzala götürərkən böyük bir çantada
onlar nə qədər vaxt hesablamışdılar
vağzala qədər yüz addımlıq yolda
bütün dəqiqələri üst-üstə hesablasan
bir sutkadan az keçməmişdi hər halda
həyəcandan əsirəm, elə bil, saat yox,
qızıl külçəsidir apardığım
yükdaşıyanlar böyür-başımda pıçıldaşırlar,

göz vurur bir-birinə, pıqqıldaşırlar
belə bir məziyyətlə ilk dəfədir ki yol gedirəm
öz yükümü heç kimə etibar etmirəm
qoy qollarım üyüşsün, əzələlərim dartılsın
eybi yox, qoy türkcə söysünlər – yamanlasınlar
ən yaxın rəfiqəmə belə etibar etmərəm, əmin olsunlar
rəfiqəm Peterburqda gözləyir məni, həb atır
pəncərədən ayrılmır, kətildən qalxmır

Qadın çevrilməsi

Axır ki, onu da sezdilər, gördülər
Əvvəllər sezmirdilər, indi görüb təəccübləndilər
Uzun, ağ libas vardı əynində
Nəfəs alammıram, kömək edin mənə
Pillələri qalxdı, çamadanı açıb bütün geyimlərini yoxladı
Bu gün lap gözəl görünməli, ən gözəl mən olmalıyam
Axşam üstü mane olmasınlar deyə telefonu söndürdükdə
Fikirləşdi ki, hər şey yaxşıdır,
bundan da pis ola bilərdi əslində
Hamının başına gəlir, kraliça deyiləm ki,
sadə insanam yəni
Eybi yox, qoy heç nə alınmasın,
heç kəs sevməsin məni

əsas sadiq olmaqdır özünə,
öz qərarından geriyə durmamaq
üç gün sonra bədəni başqa maddədən,

libası başqa parçadan olunca
ətrafını başqa quşlar, başqa heyvanlar sarınca
qapını sındıranlar gördülər və hər şeyi anladılar

Tərcümə edən: Etimad Başkeçid

Yuli Quqolev

(şeirlər)

***

Külək güclənir. İslanır hər şey.
sönür izlər bir anda.
Siqaret çəkirsən Vest-Leyk tərəfdə,
suların yanında.

Yanındakı yenə həmin fiqurdur,
meyxoşdur yəni.
öz əksini xatırlayırsan qaşqabaqlı
və qayıq kürəyini.

Evterpa deyilsə, qoy Kalipsa olsun,
bu daha xoşdur.
Evkaliptin böyük ətəkli kölgəsi,
ona üz tutur,

Sanki bələdçisini itirmiş kimi,
Ay qarasına,
Rəvan gəlişidir bu təqvimin,
əl havasına.

Rəvan sürüşmələr, qaranlıq körfəz,
kiçik dalğalar.
Əsl zamanıdır üzülüşməyin
boş noyabrla.

Yarpaqlar cücərir burda sulardan,
qar çiçəkləyir.
Ancaq toxununca göy qübbəsinə,
yerə çilənir.

Nimfanın üstünə, mənim başıma
çilənir, yağır.
Sanki kabusları sudan, qurudan
bir yerə yığır.

"Diet..." yazılıb şüşənin üstünə...
sonrası sudur.
o bunu bilir
və düz buraya enir.

Yeddiillik, xəyali pərdə ardından
hey baxıram mən,
olub-bitənləri görə bilməyən
tək mən deyiləm,

Ki, uzaqdan tanınan qara Orfey,
sürüşkən qənimət,
suyun altında,
üz tutub, yol alıb gedir elə hey.

O, şəffaf Taranı adlayıb keçir,
öndə Avallon,
əlindən buraxmır heç gitaranı,
o bir Apollon.

Nə oyun çıxarır bu qara Orfey,
baş açmaq olmur.
bu hoqqalarla nə əcəb, – soruşuram mən –
suya qərq olmur?

Könülsüz cavablar, cavaba uyğun
ləng hərəkətlər
Külək güclənir, hər şey islanır
bir anda sönür izlər.

Gənc Kalina

Bolqar mahnısı

Ey cavan Kalina, geri dön, qayıt,
sən gələ bilməzsən mənim ardımca,
çünki bizdə otlar hündür və qayım,
sən gələ bilməzsən mənim ardımca.

Bir əfi ilana çevriləcəyəm,
beləcə yanına gələcəyəm mən.
Otların içiylə sürünəcəyəm,
həmişəlik sənin olacağam mən.

Geri dön, geri dön, cavan Kalina,
sən mənim ardımca gələ bilməzsən,
çünki burda, bizdə dərindir sular,
sən mənim ardımca gələ bilməzsən.

Qərarsız balığa çevriləcəyəm,
beləcə sulara dalacağam mən,
sənə çatacağam suları keçib,
həmişəlik sənin olacağam mən.

Geriyə, geriyə, cavan Kalina!
Sən mənim arxamca düşə bilməzsən,
bir-birindən kiçik uşaqlarım var,
xoş ömür sürürük arvadımla mən.

Bir qara vəbaya çevriləcəyəm,
beləcə yanına yetişəcəyəm,
arvadı öldürəcək,
uşaqları sevəcəyəm,
həmişəlik sənin olacağam mən.

Dörd öyüd kitabından

Elə bil ki, yatırsan, ölülüyə vur özünü,
adını gizlət, necə ki, ovcunu gizlədirsən
gecələrin ahında və boş vurnuxmalarda.
Bu boş vurnuxmalarda qapalı göz qapağı,
günəşin işığında göz bülluru bir qədəh.
Sən bunu dadmamısan, yelpazə var əlində.

Ah, nə qədər astagəl, necə ləngdir bu yeriş,
gün günorta zamanı, ancaq torana doğru
gedir getdikcə aslan, düşmənləri yenərək,
dağlara dırmaşaraq, imarət axtarır o,
bu boş vurnuxmalarda bir ağaca rast gəlir.

Mən sənə deməyincə gözlə, ayılma hələ.
O açar deşiyindən görünən loğman, təbib
qapıdan stellaja, stellajdan qapıya
var-gəl edir otaqda, hanı bəs zəngçiçəyi,
şamlar hara yox olub, taxıl qabı hardadır?
Və loğman hirs içində əriyən düyü ilə
göyləri yemləməyə, ram etməyə çalışır.
Qorxudan sarısını udmuş səfirlər görür,
niyyətləri kirlidir, söhbətləri qorxulu:
Əgər yolda qəfildən loğmana bir şey olsa,
yükü yansa, yaxud da arabası qırılsa,
ya da "vur", "öldür" deyə qışqırıqlar eşitsə -
öldür, yoxsa ölümü öz gözünlə görərsən,
evdən onun önünə taxıl gətirən qoşqu
yolda sınarsa əgər, yaxud da qarşısına
bir pişik, susamuru, meymun, ilan çıxarsa,
küləksiz bir havada ocaq sönərsə əgər,
Mən sənə deməyincə gözlə, ayılma hələ.

Yuxuda görəsən ki, cənuba yollanırsan,
qızıl axtarışında, düşmənlə çarpışırsan,
bac-xərac ödəyirsən, gəlin də gətirirsən,
stol arxasına lüt əyləşirsən onunla,
saçını qırxdırırsan, içirsən "düt" deyincə,
lüt-üryanı görürsən - cənuba yol alırsan,

uçuruma düşürsən, məzarlıqda yatırsan,
lüt-üryanın başını görürsən sən yuxuda.

Yuxuda görürsən ki, kök atıb ürəyində
tikanlı-çopur palma, yaraşıqlı şanagüllə,
üstündə yuva olan koma bitmiş başında,
yuxuda görürsən ki, qırmızı geymiş gəlin
yanında əyləşib və sən qırmızı bər-bəzəkdə
rəqs eləyib, Sahibi əyləndirirsən burda.

Yuxuda görürsən ki, sularda boğulursan,
hisli-paslı, kirlisən, balıq səni udunca
yenidən öz ananın bətninə qayıdırsan,
hiss edirsən: dərisi soyulur ayağının.

Çıraq sönür və gözlə görünməyən tüstü, his
saçlarına toxunur, otağı dolaşaraq,
budur, sənin almazdan düzəldilmiş başında
buruq-buruq saçların görünür daraq-daraq,
alnında, gözlərinin üstündə damar-damar,
Ay hönkürüb ağlayır, elə bil ki, bu ara.
Ovcunda dənələnir sanki gözünün nuru.
İşığı uda-uda boşalır göz bülluru.
Zülmətdə tir-tir əsir, titrədir dilin sənin.
Budur, göz büllurunu boşaltdın və formalar
əriyir göz önündə, bir sədaya çevrilir,
Budur sən hələzunu boş buraxdın və səda
əriyir göz önündə, bir qoxuya çevrilir.
Qanadlar zəifləyir, qoxular öləziyir,
Dil quruyur, hissiyyat yox olub gedir həmən.

Yerin gücü, qüvvəti Suya dalır, qarışır,
hərəkət azadlığını və sərbəstliyini
itirir qanunsuz, məhzun baxışlar.
Suyun gücü, qüvvəti Oda dalır, qarışır.
Odun gücünü isə Külək alıb aparır.
Qeybə çəkilir hər şey, künc-bucaq, dəlmə-deşik.
Əl əsnəyən ağıza sarı uzanmağında.
Sanki bir dovşan qalıb, tir-tir titrəyən dovşan
arasında çırpınır qovuşan kirpiklərin.
Hər şey bitdi, qurtardı, artıq ayıl yuxudan.
Külək də boşluqlara əsir, əsir durmadan...

Nəfəsalmaya sevgi

Çox şeylər öyrətmişdi atam mənə.
Sevgi aşılamışdı
Dikkensə, ştanqa, çiy tərəvəzə.
Ayaqqabımı özüm təmizləməyəndə
kefi pozulurdu həməncə.
"Axşamdan hazırla kitablarını, çantana qoy..."
O bütün qiymətlərimdən xəbərdardı,
necə ki, biçarə David Kopperfild
qoyun ətindən kotletin üzərində
zar-zar göz yaşı tökür,
eləcə də, mən qatığın üstündə ağlayardım.
Əslində düz eləyirdi atam,
məndə qatığa sevgi aşılayırdı.
O mənə Qoliafı xatırladırdı.
Ayaq xizəyi sürməyi öyrədirdi atam.

Suyun altında nəfəs tutmağı,
Atam yenə də haqlıydı.
Ciyərmi doldurarkən üsyankar havayla
daha çox qorxurdum atamdan,
onun düzünəqulu haqlılığından.
Atam nəfəsalmaya sevgi aşılayırdı.
Yadımdadır, bir dəfə vanna otağına
duzlu çay dolu çaydan gətirmişdi.
O, çayı burnuna tökür və deyirdi:
"burnumuza çəkirik...
və o saat vəziyyətimiz dəyişir,
daha sağlam oluruq".
O, ilan kimi qıvrılırdı az qala,
heç gözümün önyndən çəkilməz
dişlərini necə qıcırdatdığı,
səssiz suallarımın cavabında
burun pərələrindən püskürən tüklər.

Sərbəst güləşə tutqundu atam,
ya da fransız güləşinə.
Tez-tez bir əzablı yuxu görürəm:
atam alt paltarındadır, mən alt paltarsızam,
və atam mənimlə güləşir.
Sərbəst fransız fəndlərini
öyrənməyə çalışırdı mənimlə birgə,
o bir əlilə mənim qolumu burur,
o biri əlilə boynumu sıxırdı bir anlığa.
İkili, yox, deyəsən, üçlü
Nelson, yox, deyəsən nelson adlanırdı bu fənd.
Atam sevgi aşılayırdı üryanlığa,
çılpaq yatmağı öyrədirdi mənə.

Atam gözəllikdən söz açırdı,
çılpaq kişi şəkilləri göstərirdi,
"Bu, Apollondur... Bu, Herakldır...".
Ölüb-dirilirdim utandığımdan.
Utandığımdan az qala ağlayırdım.
Günlərin bir günü ağladım da,
sonra üz vurdum ona: "Bəsdir!",
atam da bir başqa cür dirəşdi -
o andaca heyranlıqla baxan gözlərim
türk qadın hamamlarının əvvəllər
görmədiyim fraqmentlərinə ilişdi.

Atamla Moskvanı dolaşırdıq,
Moskva ətrafını gəzirdik.
Günlərin bir günü, yadımdadır,
həyətimizdəki bağçaya gəldik.
O ikitəkərli "Orlyonok"a mindirdi məni,
o, "İrəli!" əmri verdi,
mənsə, "Dönürəm!" deyirdim,
"Səni döndərərəm ha...", atam cavab verirdi.
Əmin idim - döndərər.
Uğurlu misal deyil, olsun ki, amma
oyuqlardan biz-biz duran otları,
Asfaltın diş-diş relyefini görürəm,
dayələr uşaqları çağırır həlim səslə,
səkkiz dövrə vurmaq qalır mənəsə.

Uğunub gedirlər bağçadakılar,
başımıza gülür Moskva ətrafı,
şaqqanaq çəkir bütün Moskva.

***

(ixtisarla)

Boy-buxunlu, yaraşıqlı, girdəsifət,
fiziki gücdən də xali deyiləm,
bazburtlu oğluyam ata-anamın,
amma ki, yaramaz doğulmuşam mən.

Bəli, mənlik deyil etibar-filan.
Qoy mənim alibim köməyim olsun.
narahat eləyən nə varsa məni
qoy deyim, hamının xəbəri olsun.

Qoy dilə gətirim günahlarımı.
Metro olayını danışım sonda.
...Bir dəfə MXAT-a gəldik Olyayla,
Janna Moro rol aparırdı onda.

Bu hansı rol idi, xatırlamıram,
səhnədə şövqlü səkirdi,
və zalda oturmuş hansısa axmaq,
Janna Moronun şəklini çəkirdi.

Buna yarım saat dözdüm açığı,
və zalı tərk edib, çölə çıxarkən,
bilet yoxlayana şəkil çəkənin
yerini, sırasını nişan verdim mən.

Olyanın gözləri, heç bilmirdim ki,
başından da böyük ola bilərmiş.

Bəlkə də haqlıydı, bilmirəm, amma
adamda nə qədər nifrət olarmış!

Bundan betəri də olmuşdu, ancaq,
belə ki, yadımdan çıxmaz heç zaman.
Bir yaşıdım vardı Puşkin soyadlı,
yola getmirdi heç kəslə bu oğlan.

Anapa. Tələbə düşərgəsində
qara günəş kimi parlayır üzüm.
Bilmirəm nə oldu, necə oldusa,
burada sözümüz çəpləşdi bizim.

Benkendorf, Dantes, Bulqarin!
Varislərinizi məyus etmədim,
necə qıcandımsa, qolaylandımsa,
onların gözündə artdı hörmətim.

Deyəsən, birinci mən vurdum onu,
özü də zərbəni elə endirdim,
onun alt çənəsi sındı həməncə
mənimsə çənəyə dəyən yumruğum.

"Siz bu yaramaza baxın, ay aman,
görün bir Puşkini nə hala saldı!
hə, görünür, atası Yenq Saridir,
anası isə Meir Kaxane", -

ata Puşkin haldan hala düşərək,
söydü, yamanladı məni o ki var.

Qara dənizdəki həmin hadisə,
mənimçün Qara çay olmadı amma.

mənim nəyim vardı dilimdən başqa,
onu da göstərə bilmirdim nəsə,
hə, pəltəklərə ilişirdim mən,
ayaqsızlara sataşırdım nədənsə.
Timur və Lenagilə gedirdim hərdən,
(necə qoyurdular evə, bilmirəm),
evə gələn kimi dil-dil ötürdüm:
"Sizin Tom! Küçüyü verin də mənə!"

Tərcümə edən: Etimad Başkeçid

Dmitri Vodennikov

(şeirlər)

Hər şey haqqında şeirlər

Sevgililər baxışır, səni görmürlər ancaq,
Giş və parçadan kukla görürlər, görmək üçün
– Mənə bax! – Axı sənin taleyin deyiləm mən,
Yoldaşınam, sevgilin, çiçəyin və itinəm.

…Yeri gəlmişkən, bu it…
Yatağıma uzanıb, işığı söndürərkən,
Qaranlıqda oturub şöngüyür və gözləyir,
Gözləyir ona haçan «gəl bura» deyəcəyəm.
(çox mərifətli itdir).
«Yanıma gəl!» deyincə dəli kimi, çılğınca
Atılıb-düşür həmən, qabaq ayaqlarını
Çarpayıya dayayır, dünyanın görmədiyi
Qulaqları titrəyir, boynunu uzadır hey
Dırmaşmağa çalışır, çalışır, baxır key-key.

Bu zülmətdən qurtulmaq istəyir var gücüylə,
Bu doğma hənirtiyə, isti sığınacağa,
Bu balışın üstünə, adət etdiyi yerə
Elə can atır, mənə elə gəlir ki, bu dəm
Bu başqa bir qaranlıq,

Başqa sıçrayışlardır…
Sanki ona zülmətdən çağırıram, o isə
Hoppandıqca hoppanır, amma haçansa bir gün
Hoppana bilməyəcək.

1.
Pasxa. Kandarda əyləşib buddizm tanrısı,
Arxası mənə, üzü eyvana
(günəşdə xoşallanır, başı kəkillidir),
Gəlib-gedənə baxıb donquldanır,
Yoğun səsilə acılayır, durmur, dincəlmir.
- Nədir, - deyirəm, - Barabaşka, Tanrıya inanmırsan?
Tanrıcıq çevrilir, gülümsünür, cavab vermir.

2.
əvvəllər başqa cürdü: başqa cür sevirdilər insanlar,
vüsala yetişincə nələr çəkirdilər onlar.
mən yaş əski götürüb düşürdüm arxasınca,
o isə ora-bura vurnuxurdu otaqda.
Qapqara yumaq kimi
Tualetdə borunun altına gizlənirdi,
Gözlərini yumurdu, burnunu tualetin
küncünə dirəyirdi.
Küçük kimi titrəyir, yarpaq kimi əsirdi.
ancaq qaçmağa yer yox: yer üzündə təkcə mən
Torpaq kimi amansız, Tanrı tək yumru idim.

bütün bunlar, elə bil, türmədə baş verirdi,
hər şey çox dözülməzdi, darıxdırıcı idi.
Bir dəfə yaxşıca döyüldükdən sonra
(dörd aylıq idi onda),

sürünə-sürünə yanıma gəldi,
sinəmə dırmaşdı, uzanıb uyudu.
Aramızda böyük bir naqolaylıq dururdu.
Mən onun zərif boynuna, sallanmış qulaqlarına
baxdıqca baxdım.
Və birdən anladım: MƏN SƏNİ SEVMİRƏM
DEYƏSƏN,
HEÇ ZAMAN SEVMƏYƏCƏYƏM ARTIQ.

...Biz oyananda bahar gəlmişdi artıq,
iki əlvan tırtıltək qucaqlaşıb yatmışdıq,
bayırda hava ilıq, yatağımız istiydi
və bizim isti qollarımızdan sevginin
zəif cərəyanları axıb gedirdi.

3.
Bu da biz...
İkimiz də usanınca "get" deyəcəksən mənə,
xovlu məxmərdən olan bütün oyuncaqları,
kasa, qaşıq, qayışlar,
tava, sənin it arayışların -
bunların hamısını toplayaraq bir yerə,
dolduracağam həmən bir əsgər heybəsinə.
və vidalaşmağa gələcəyəm sənlə,
başımı qoyacağam yenə sənin sinənə...
Artıq növbəti ildə
etinasız və laqeyd, adi bir pişik kimi
oyanacağam yenidən.

4.
Çünki sevgi soyuqdur. - Özü də sənin deyil,
Tanrı da deyil belə amansız, ağır olsun,
sənin qarnın və mənim əllərim çox istidir,
onların arasında sıxışmış sevgi isə
gülün iç üzü kimi etinasız, laqeyddir.

5.
illər boyu burada yaşasam da
ağlıma da gəlməzdi ki,
heç nə bilmirəm sevgi haqqında.
(artıq çox şeyləri də bilməyəcəyəm) –
çiçək səhər-səhər iri, tünd-qırmızı ağzını açır,
ordan söndürülməmiş tünd-yaşıl od-alov saçır.

Bu od sönmür... Küləkdə sınıxmış bu alov üçün
hər şeydən keçirsən - ağıldan, bədəndən, əllərdən,
körpəykən umduğun ecazkar taledən, qismətdən,
amma kimin nə vecinə, nə yandı, nə itdi səndən.

7.
Odur ki, mənim də vecimə deyil...
Nə isti qadın göbəyi, nə kişi eybəcərliyi,
nə yazı yazan adam, nə it
(sən onu vurursan, o isə yaltaqlanır şit-şit)...
- Günəş olmaq istəyirəm mən,
soyuq külək olmaq istəyirəm,
mənsiz açan çiçək olmaq istəyirəm.

8.
Çünki özünü "tikib qurtarmaq" yox, dağıtmaq lazımdır,
dilin ucunda titrəşən hərflər kimi,

tədricən şüurlu dəbdəbəyə çevrilmək,
ki, sənin demək istədiklərini
təkrarlamaq istəməsin heç kəs.

9.
Söz verdin özünə bu gün:
bundan sonra, nə qədər ki, canında can var
müticəsinə, gülümsəyərək baxacaqsan
etinasızca sayrışan işıqlara,
onlardan da girdə, alyanaq nə var dünyada?
Yoxdur – heç ehtiyac da yoxdur başqalarına.

10.
Elə isə, niyə heyfsilənirəm görəsən,
ki, kam almadığım bu həyəcan, çılğınlıq, xışıltı
qaranlıqda məndən inciyib gedəcək.
Əlimə götürmək belə istəmədiyin
bu kobud qadın həyatı, bu biçimsiz oğlan ağızı,
zingildəyən zülmət parçası
bir azdan biryolluq gözdən itəcək...

11.
– Elə ona görə təəssüflənirəm, əzizim,
ki, sonsuz yay mövsümünün axırında,
(indi mən sənlə oddan və zülmətdən yoğrulmuş
çarpayının yanında danışıram),
sən mənim böyük günəşim və amansız küləyimdin,
yalnız mənimçün açılan
yeganə, dəhşətli çiçəyimdin.

Mənim sənə özgə məktublarım

Bir yaxşı bağban kahı əkdiyi ləkləri quşlardan qorumaq üçün onların ətrafına kəndir çəkirdi. Onun arvadı dükandan qayıdıb, ləkləri sarmış anlaşılmaz, mürəkkəb bir tor gördü. Bu sonrakı dəliliyin ilk əlaməti idi.

(Psixiatriyaya aid kitabdan)

– Gözlərimi yumub, işığa zillənəcəyəm,
bəyaz, gur, uzununa işığa
və deyəcəyəm: – altı yaşım vardı,
otuz altı oldu,
arada olanlar isə – düşmür yadıma.

1.

.....
.....
.....
.....
.....
.....
.....
.....
.....

2.

"Açıq bloqlar", elektron gündəliklər deyilən anlayışlar var.
əvvəllər Şellinin, Bayronun, sonra Marina Svetayevanın,
sonra Anna Frankın gündəlikləri vardı
(Niderlandda faşistlərdən gizlənən qızın),

indi də bizimkilər, özünüz deyin -
bütün küləklərə açıq: sadə, sirli,
yol kənarındakı pıtraqlar kimi yelbeyin...
baxın, bir qız yazır: *necə də getmək istəyirəm burdan*! -
sonradan öyrənirsən ki, bu onun son yazısıymış
(onu zorlayıb öldürüblərmiş),
başqa bir qadın (hələ 40 yaşı olmayıb)
sovet xəstəxanasındakı uşaqlığını xatırlayır:
"... gecəykən yaxınlaşıb, balışı ağzına basdım,
yeganə çıxış yolum bu idi çünki,
çünki cana doymuşdum təhqirlərdən, döyülməkdən,
ancaq indi də heç nəyə heyfsilənmirəm mən.
Elədir, qorxulu bir şey yoxdur (necə yəni yoxdur?),
bu daha çox gülməli, ədəbsiz, maraqsızdır...

3.
Üzə çıxan kimi kişi yaraşığı
tutdular onu, qazamata saldılar.
– Çardan olmayan, knyaz törəməsi, şahzadə,
de görək, nə qaldı axı səndən,
1492-ci ilin 20 sentyabrında
on dörd yaşlı İvan, yeddi yaşlı Dmitri Andreiç?

– Heç nə deməyəcəyəm, qazlar-durnalar, siz axmaqsınız,
–
knyaz törəməsi deyir (qonur gözlüdür o, yəqin ki),
köynəyi yaşdır, çürüyüb torpağın altında...
... İkinci məktubumu yazıram sənə: "*Salam,*
əgər məni anlasın, bağışlasın deyə insana,
özü də məndən kiçik, balaca birisinə

əmr etmiş, yox, tələb qoymuşamsa, demək ki,
nəyimsə çatmırmış bu həyatda
(ya da çox olub həmin şeydən, belə gətirib mənimki)...

4.

bu mənada - açıq həyat, qanqalotu, bağayarpağı
görünməmiş təcrübədir (sələflərin başa düşmədiyi):
– Bütün gizlinlər açılır nə vaxtsa, - budur onların dediyi.
– Yox, bütün gizlinlər bu gün açılır, - onlara cavab veririk.
hasar dibindəki pıtraqdan, səliqəsiz-kirli
bağayarpağından.

– Özün düşün, çox-çox yüzilliklərdən sonra
yerkökünü quşlardan qoruyarkən,
tilov ipini dolaşdıracaqsan,
boylanıb görəcəksən cavan arvadını alaqapıda,
ancaq adı nədir onun – Nadenka, Raya:
Bunu xatırlamayacaqsan.

5.

Mənə yazırsan ki: "...*Sənə qadın kimi, canlı bədən kimi,*
sevən ürək kimi lazım deyiləm.
mən sənə şeir kimi lazımam yalnız.
və sən öz qüdrətini dürüst qiymətləndirmədən
bu şeirlə gör neyləmisən?
Elə etmisən ki, başqalarına görə
mən "göz önündə əriyib gedənə" çevrilmişəm.
yaxud mən "qəbiristanlıq abidəsi"yəm artıq
təəccüblənirlər məni canlı görüncə.

Söz yox, baş daşı da əsl şedevr ola bilər,
sənin "tərsinə piqmalion" rolun məni incitmir, yox.
Günahkar sən deyilsən əslində.
özünü təqsirli tutmağını istəmirəm
olub-bitənlərə görə.
sadəcə onu bil ki,
tək bircə baş daşı kifayətdir mənə.
Artığı lazım deyil, danışdıqmı, hə?

6.

Sənə yazıram: "...*yaxşı anlayıram Tütçevin kədərini,*
o, böyük yolun həndəvərində yeriyərkən.
çünki o sümüklərə və meyitlərə deyirdi dərdini,
ya da mələklərə yalvarırdı,
ki, mahiyyətcə eyni şeylərdir.
O, xəyalət görünər-görünməz
öz səbəbiyyət yeri ilə ona sürtünmək istəmir.
o sadəcə onu qucaqlamaq istəyir.
AMMA QUCAQLAYA BİLMİR.
Mənsə bunu eləyə bilirdim.
ayrılandan sonra ilk dəfə,
dekabrın 22-də Olya küçəylə çıxıb gedərkən
onu qucaqladığım kimi.
Biz 10 saniyəyədək qaranlıq küçədə dayandıq,
ürəklərimizin döyüntüsünə qulaq asdıq
və anladıq ki, bundan yaxın ola bilməyəcəyik artıq,
artıq heç nəyi dəyişdirmək mümkün deyil.
ÜRƏYİM PARÇA-PARÇA OLMADI,
- Tütçev belə demişdi.
Amma əvəzində hər gün parça-parça olur indi..."

7.

Sən mənə yazırsan: "*...budur, sənin raritet məktubunu tapdım*
yanlış park etməyə görə cərimə qəbzlərinin içində.
məktub 15 iyul 2003-cü ildə yazılıb.
Printerdən çıxarılıb.
Bu, aydın məsələdir, vida məktubudur,
onu niyə kağıza çıxarmışam, özüm də bilmirəm.
yəqin çöllükdə oxuyub ağlamaq istəyirmişəm,
amma təbiətimin şuxluğundan unutmuşam.
Bəlkə də ağlayıb-hönkürmüşəm, çünki
çöllüyün ləkələrinə bulaşmışdı məktub
(mən poçtuma şehli çöllərdə baxmağı xoşlayıram).
Kim bilir, artıq xatırlamıram,
nə fikirləşirdim onda?
o mətn qaralaması
hazır məhsula uyğun gəlirsə,
sənin bu əski, üç min qırx yeddi nömrəli vidalaşman da
indiki vidalaşmaya elə uyğun gəlir..."

8.

Bax, bu məktubu da elə o cür yazırıq -
sənə, heç kimə yox, heç hara yox, nə üçünsə,
çinlilərdə Gucci və prada kimi.
– Yaşamaq mümkün deyil
ayaqqabı altlığını bulaşdırmadan,
mənim ayaqqabı altlığımda kimlər var -
iki nənəm, anam və Praqa.

9.

Ancaq hələ ki - on ikinci dəfə adbaad (nəzərə alın)
qabalaşmış, şirin, iyul ayındakı, yelbeyin və ayı kimi -
mənim yeganə yazılı *sən*im
mənasız şeir məkanım mənim
21-ci əsrdə hamının gözü önündə çiçəkləyir.

10.

Və nə qədər ki, bütün bunların
– torpağın çılpaq yerlərinin,
Qədim Rusiyanın, Pyotr Rusiyasının, Sovetlər Birliyinin,
yeni Rusiyanın üzərində mənim
kimə ünvanlandığı bilinməyən (özüm də xatırlamıram):
anama, Lenaya, atama, bacıma, yoxsa Kolyaya,
(çünki indi bütün sevgi hekayətlərindən
daha vacibi budur mənə), -
mənim qızıl məktubum uçur,
mən oturub yazıram:
...yalnız üç gündən sonra Moskvada,
göndərdiyin sms-dən bir dəqiqə qabaq
anladım birdən-birə
ORAYA NƏ ÜÇÜN getdiyimi.
bütün ayların, kilometrlərin, bu üç günün içindən keçib
sənin gözlərinə baxmaq,
sənə sarılmaq üçün getmişdim.
çox güman ki, sonuncu dəfə.
bir vaxtlar aeroportda olduğu kimi.
elə-belə: qardaşyana, nə sevgili,
nə də keçmiş sevgili kimi.
sadəcə elə-belə - on saniyəliyə, sanki həmişəlik.

Bir şey maraqlıdır mənə -
bu qədər vaxt, bu uzun kilometrlər
on saniyəlik qucaqlaşmaya dəyərdimi?

Tərcümə edən: Etimad Başkeçid

Qleb Şulpyakov

(şeirlər)

***

Ortaboy, eynəkli, saqqallı kişi
yanımda, yad dildə sözləri dinməz
üyüdür balıqtək Ayın altında,
yatmıram, yatmırsan, gic gedir başım -
doğurdan məndə bir iş var deməli,
budaqda quş idim, bayquşam indi;
sirli əlifbanın içində pəsdən
zümzümə eləyib uçuram- qəsdən.

***

Əl-əl qaçır qaranlığa elə ki əldən verirsən,
qaçır ağ sap gözədəyməz yun köynəyi sökür, gedir.
Vağzalyanı meydandakı bir kor tutuquşu isə
dilim-dilim hərflərdən bala-bala söz düzəldir;
bitəcək sonra mazurka, qurtaracaq sarı perron,
göyərçinin tüklərini yel qovacaq künc-bucağa-
həmin ağ sap bir zamanlar qələm tutan bilək idi,
indi isə çərpələnglər uçurdur mavi səmaya.

***

Qarlı küçələrə çıxacam gecə
elə ki bir səbəb qalmayacaq heç,
vitrin balıqları yalqız üzəcək,
bir də üçkünc paket- mürgüləmiş süd-
əvvəlin əvvəli, qapqara torpaq,
yunandan varyaqa dönəcəyəm mən,
bir də ki səmatək bomboz kağızda
qalxın söyləyəcək ağ xalat qadın

Afanasi Məməmədova

1.

«Allah-Allah!»-
qala divarları boyunca əkilmiş sərvlərin
qara budaqları boyunca Xəzər küləyi gəzişir, səs salır,
qışa qərq olmuş şəhərə doğru səmt alır.

«Allah-Allah!»-
muzey gözətçisi,
bozarmış paltodakı köhnə bakılı,
açar seçir, bazarda
balıq seçən kimi.Sərdabənin
qapısını açır, amma özü içəri keçmir.
Budanmış sərvin yanında
ovuclarını göyə açaraq gözləyir.

Mən qapını çəkdim və yalın
divarlar arasında tək qaldım.
Zirzəminin ortasında yeddi
sinədaşı donub qalmışdı sanki.
Onlar qayığa da oxşayırdılar,
əhəngə oturmur, batıb qalmış
 (kiçik vaqonlara da)
Bu qayıqların altında kim yatırdı?
Yola nə vaxt çıxmışdılar ?
Bir neçə sətirlik kufi hörüklü yazı-
vəssalam, bu idi onların yadigarı:

«Məlikül şüəraydım
mən şahın sarayında
hər günü mədhlər yazdım,
mən ilin hər ayında.
Səkkiz yüz doxsanıncı
ili qaraydı hicrinin,
köç elədi Xəlilullah,
indi daş altdadı təni…»

Kim tanıyardı səni, söylə mənə,
sən ey Abşeron knyazı?
Şamaxıdan Şəkiyə və daha hara
uzanırdı bir vaxtlar torpaqların.
Əgər o bir neçə sətir olmasaydı,
Kim idi sənin lə kəlmə kəsən?
Necə uzanırsan,uzan,
hansı naxışların altında,
necə istəyirsən tut biləklərini əllərinlə,
sümüyü ətdən,

tozu cəsəddən yalnız zaman ayırır,
amma o da fanidir,keçicidir.

2.

Üçüncü gün qərara aldıq ki,
şəhərdən çıxıb Bayıla gedək.
Eşitmişdim Nobel qardaşlarının
neft buruqları hələ də dimdikdi,
nədənsə onları görmək istədim.
Dənizlə səma görüşürsə
havada açıqdı deməli.
Qulaqlı papaqdakı taksi sürücüsü,
köhnə moskvalı,
üstəgəl mühəndis-kimyaçı
iki şirvana yolun kənarındakı
təpəlikdə düşürtdü bizi,
böyük məscidin yanında.
Yeni tikilirdi məscid,
Liman kranlarının fonunda
ağappaq eklerə bənzəyirdi.
Küləkdən qorunmaq üçün
başını yaylıqla bağlayıb
hasarın yanında qaldın,
aşağıdakı kor dənizə baxırdın.
Mən isə meydan-meydan, hasarlanmış
qəbiristanlığa qalxırdım
sürüşkən yoxuşla,
daha da balaca görünürdün
mən yuxarı qalxdıqca,

daşlar da daha yaşlı görünürdü.
Deşiklər, yuvalar qaralırdı torpaqda,
qəbir, sərdabə qır-qırıntıları.
Yuxarıda hər şey bir-birinə qarışmışdı.
Nəyisə ayırd eləmək olmurdu.
Yalnız külək, hava şırnağı
Qulaqlarımda öz havasını çalırdı.
…Beləcə yatırdı onlar,
Hirkan küləklərinin sığalı altında.
Ayaqları çöldə, adsız-soyadsız,
öz narahat, dəlik-deşik yuvalarında,
Nobel qardaşlarının
paslı qüllələri də
elə hey baş endirirdilər.
Elə onda fikirləşdim:
eybi yox, qoy ölüm mən,
daş ovxalansın,
yalın ayaqlarım çöldə qalsın,
külək
qəbir daşları üstündəki yazıları aparsın,
ya da zibili qovsun,
ya şimala tutu üzümü, ya şərqə
çevrilim bir böyrümdən o biri üstə,
amma özgə diliylə özgə ləhcəsiylə,
buruqları saya-saya
təkrarlayım:
«Allah-Allah!»

Santa Maria dei Miracoli kilsəsində düşüncələr

Katolik ibadətində
insan ən alçaq taxta skamyada
dizlərini qatlayaraq
səcdəyə gedir –
və sanki bununla deyir:
– Ey Xaliq və Aləmlərin Rəbbi,
insan sənin yaratdığın
ən alçaq varlıq deyil!

Pravoslav ayini zamanı
insan soyuq məbəd döşəməsində
dizlərini qatlayaraq
səcdə edir –
bununla da sanki deyir:
– Ey Xaliq və Aləmlərin Rəbbi,
insan sənin yaratdığın
ən son varlıqdır!

Avropa və Asiya haqqında,
bizim fərqimiz və
bizi birləşdirən o az şeylər barədə
danışarkən, düşünürəm ki,
məsələ heç də dildə/mədəniyyətdə,
tarixdə və coğrafiyada deyil,
məsələ elə həmin
keçilməsi mümkün olmayan
birpilləli taxta skamyadadır,

P.A-ya ithaf

…bizim ölülərin
donmuş violonçellərini
qabından çıxardırıq,
hər gün və hər simini
not-not dınqıldadırıq
asta-asta və hər gün –
bir vaxtlar necə səsləndiyini
anlamaq üçün.

Bütpərəstliyə giriş

Əgər "İnqilab meydanı" stansiyasında
milyonlarla toxunuş hesabına
it heykəli parıl-parıl parıldayırsa –
demək həmin itə ad vermək,
şəcərə düşünmək,
onu güllərlə, meyvələrlə bəzəmək
və qarşısına nəzir qutusu
qoymaq lazımdır.

Sizin yeraltı yolçuluğunuzu
mavi budaq tanrısı qoruyur

Əgər bu baş vermirsə,
demək sizin nəziriniz
aldığınız biletin qiymətinə
daxil idi sadəcə.

Tərcümə edən: Səlim Babullaoğlu

Vyaçeslav Kupiryanov

(şeirlər)

Zaman vadisi

Fəza boşluğunda
zaman vadisi
coşan bir ilhamın
şəffaf çeşməsi

biz ona baxırıq
sanki güzgüdü
biz ondan içirik
görərək nədi

gücümüz olsun ki
bir yerə çataq
ordasa
görməyə bir şey tapmayaq

Dəfetmə nəzəriyyəsi

Ayna ol və göstər bir-bir hər şeyi
yerlərdə və göydə nələr var isə
günəşi əks elə.
Görürsən:
ləkələr dəyir gözünə
fərsiz uşaqların – anlaqsızların.

Günəşə daş atır
 həmən uşaqlar
analar qışqırır:
- Qurtarın, bala!
Bədbəxtlik rəmzidi
Sınıq bir güzgü!
 Daş sənə tuş gəlir –
əyri güzgüyə
Zərbələr yeyirsən
və bir vaxt gəlir
uşaqlar böyüyür
və səndə görür
Ədavət toxumu səpilmiş məkan

Gərəkdi səndəki bu əyriliklə
düzəlsin dünyanın nizamı həmən
bir də ki ürəklər.
Qalmasın daş üstə bir daş
təhrifdən
pozulmuş çöhrələr bir də canlansın.

Həyat təcrübəsi

Eksperimental planetdə
təcrübəsiz bir adamın
təcrübə nümunəsi kimi
yaşayıram

əyib-büküb
sınayırlar məni
məkanda dartıb uzadır
zamanda sıxıb yığırlar

müqavimət göstərirəm
nəfəsimi içimə alıb
qəlbimin dərinliklərində
gizlənirəm

öz yerimdə
görürəm ki
məndən savay
bir kimsəsi ola bilməz

özümənzərlər sırasında
həyat təcrübəsi qazanıram
kimsəninkinə bənzəməz
təkrar olunmaz

inanın bu təcrübəmə
özgənin çıxdığı sınağa
bir kəs inanmaz

Ötəri sevinclər

İnsanlar bahara çıxırlar
hamı çəmənlərdə gəzişmək
istəyir
heç kəs əkmək və biçmək
istəmir

Sabah açılır
dünya yuxudan oyanır:
hamı məhəbbət məktubları
gözləyir
kimsə məktubları
çatdırmaq istəmir.

Əbədiyyət məqamı
yetişir:
hamı zamanı
durmağa səsləyir!

Daha heç kəs
vaxtını
xərcləmək
istəmir

Müasir adam – 1

Təzə doğulmuşun
və ölmüşün
arasında bir adam –
yaşlı adam

Nə də eləsə
görüntü yaradır
guya doğru eləyir o
nə eləyir

Müasir adam
meymun və
gələcək insan arasında
orta məxluq.

Nə edəsən ona
göstər ki guya
bir şey etməyə ona
heç lüzum yox

Müasir adam
ifrata varmağı
sevməyən
yaşlı adamdır.

Çünki onsuz da bu ifratlar
üz-üzə gəlir

və özünü elə aparır
ki bir-birini tanımır.

Onlar düz edir
orta hesabla.

Müasir adam – 2

Müasir adam
Dünyanın gedişatından uzun-uzadı danışır
İlan kimi məftillərdə dartınır,
Dəniz səsilə birgə molyusk kimi
Telefon qulaqcığında yer alır
Preslənir
əbədiyyət axtarır
sərt diskdə qalmaqla
dəniz möcüzəsinə
televizor akvariumun məhbusuna
çevrilir
elə hey yığcamlaşır
kiçilir
müasirləşir
artıq onu işə salmaq
söndürmək və durdurmaq
səsini almaq qaldırmaq
kəskinliyi nizamlamaq olar
o özünü görmür
eşitmir
tanımır

Xalq

Ən müxtəlif insanların
ölçü göstəricidır xalq

İnsan xalqdan doğur
və bütün ömrüylə
bütün gücüylə
bu ölçülərə şübhə doğurur o

biri yuxarı
biri aşağı

təkcə bir insan itirdikcə xalq
heç nə itirmirsə
onda öz sifətini də
itirir o

amma insanın sifəti yoxsa
xalq bir şey itirməz

Xalqın itirəsi bir şeyi yoxsa
bu bəşəriyyətçün böyük itkidir

Pələngin nəğməsi

Mən pələngəm, pələngəm, pələng
Tayqanın gurultusu, cəngəlliklər şimşəyiyəm
Bir vaxtlar haçansa hər yeri od alanda

Su heç olmayanda
Mən oddan qurtuldum
Ətrafımda yaşıllıqlar yaratmağa can atdım ki
Yaşıl gözlərimdə əksini tapsın
Aman baxışlarıma tuş gəlməkdən qaçın
Çün baxışlarım dişimdə donub
İzimə düşməyin
Çün həmişə arxazca gəzirəm
Və insana nifrət edirəm
Çün o ev pişiklərinin xidmətçisidir ki var

Tərcümə edən: Telman Vəlixanlı

İrina Yermakova

(şeirlər)

Anşlaq

Cənnətə girəndə müqəddəs
alqışlar deyəndə adamlar
yer üzü may olar, gələr səs –
göylərdə şeypurlar parlayar

Səs-küylə gəlirlər bax budur
alovdan tacları yan durar
zəncinin dişitək bərq vurar
gündüzlər hay-haray gurultu

Ağ dəsmal – qapqara barmaqlar
şeypurun düyməsi basılır
hər insan qəlbində allah var
ilahi ürəkdə nur saçır

Hər bir kəs – birinci! hər kəs – kral!
Ulduztək hər biri alışar,
Qır kimi işıqda bərq vurar
Göz yaşı içində günəş – al

Əsl armstronq kimi ay parla
Xellou dolini salamlar
Müqəddəs adamlar cənnətdə
Gəzəndə yer üzü nurlanar

Zəhərlər çəkilib qəlblərdən
Qulaqda qızıldan svinq yanır
Cənnətdə anşlaqdır və həmən
Müqəddəslər yerə qayıdır

***

Budur günəş partladı oldu mən deyən
alışır başım acı yovşan iyindən

Kölgəm dəyməyir gözə yoxdur heç yerdə
yer üzü darısqaldır mən olmasam da
Nə işartı, nə boş yer var yer üzündə
Odur yalın ayaq mən gəzirəm suda

Suyla üzü yuxarı – saxla məni su!
ömrüm boyu sözlərim mənimçün sərvət
Yaşıl qarnı yuxarı süzür bir ulduz
Ondan aşağıdasa – zil qara zülmət

Su üzündə gəzirəm utanmadan mən
bərk ayaqda yol tapıb göyün düzünə
söz satıb alacağam özümə çəkmə
iz salacağam qışa həm yer üzünə

***

Tufanın dalınca hey tufan
qar vıy-vıy vıyıldar güllətək
qudurub qar tamam bağırır
gözdeşən xırda cin
əlində süpürgə ağappaq
ağarıb həm quyruq həm qulaq

Qar burur tufandan burulğan
cin isə süpürür süpürür
həyatda xırdalıq nə varsa
hamısı qatbaqat örtülür
süpürgə çiçəklə örtülür

Bir azca səbr elə mırt vuraq
şərabı badədə qızdıraq
budur bax necə də yamyaşıl
süpürgə də belə rəng alır
əsəbdən ürəyim zəiflər
bu küncə o küncə hey dəyər

Dalınca gələcəm necə var
içəcəm
ağarmış kürkümü
götürüb çiynimə atacam
və qarın altına cumacam

Allahın əmriylə tufanlar
olacaq bir də ki səmt külək
bir koma qar olar ayrıcı

ağızın dediyini qulaq
eşitmir
hər tərəf qardı qar
sonra da sel olar sel olar

Ballada

Dmitri Polişuka

Dünyaya gələndə cənab Nel
dahi menestrel
beşiyini tərpətdi
şən qüssə atıb əl

Pişik tək mehriban
ilan tək zəhərli
qüssənin dalınca həmin an
o getdi irəli

Muzanı bizləyir o qüssə
və onu irəli hey dartır
bu möhkəm birliyin isə
şəffaflığı artır

Bütün dünya hərracdan
satılanda bir anda
hamı çəkilib getdi
qüssə qaldı yanında

Göylər qaranlıqlaşıb
çağıranda susmağa

qüssə yaşıl gözüylə
səsləyəndə qabağa
Yaşıl işığı görüb
o yeridi irəli
daha qeyzlə oxudu
həmin o nəğmələrdən
daha şəni yox idi.

Deyirdi deyiləm tək

Nəşini son mənzilə
o qüssə yola salır
sətirlər arasından
oynaq-oynaq boylanır

Şarmankaçı

Alabəzək yeşik, rəngarəng qüssə
həyətdən həyətə ömürü boyu
küləkdə titrəyən meymunciyəzsə:
– Yadındamı?
– Bilirəm.

Çay qırağı, meşə yolu, təzə cığır
qazanılan xırda pulun cingiltisi –
yadındamı – şarmankanın həzin səsi -
ha burduqca dəstəyini ağır-ağır.

Qırmızı qoftalı meymunu cırnadır,
Şarmanka boynunda, ha dartır, ha dartır,

Fırladır, dəmirdən dəstəyi fırladır,
Sanki bu torpağı çox sevir, çox sevir.

Əlləri donmada. Artıq şər qovuşur.
Aramsız cırıldar qayışlar.
O səni sevir ki. Yaxşı da.
Olanı budur.

Gəzərti səslərin saflığı saxta
Qızdırır yeşiyi yalnız bir anlıq –
Qürbətdə, mən necə, bu ötən vaxta…
– Yadındayam?
– Bilirəm: ayrılıq, ayrılıq

Mnemozina

İşıq soyuq, həyat – gözəldən gözəl.
gülür, əsir, uğultuya yüksəlir,
vaxtsız başsız qalmış kəpənək kimi
ənginlikdə pərvaz edir, hey süzür,
dəqiqə tozunda – hər biri əzəl.
Uçarda yadında nə qalır sənin?
Alabəzək rənglər. Təlaş. Çaşırdın,
buz təki işıqda pərvazlanırdın,
Qaçarda, uçarda, yerə baxmadan,
hər dəfə özünü ötüb keçərək,
o soyuq işığı sən qızdırırdın –

dayan, Mnemozina, dön geriyə bax,
gedərdə,
bircə an,
xatirə kimi.

Kerç

Nə bir qız nə gəlincik var
divar boyu balıq toru
Gümbəzdən bir ilğım qalxar
Dalğa altda çınqıl qoru

Tikanlı zoğal ağacı
Üz aşağı gedən cığır
Şər qarışır acı-acı
Zülmət dalğaları sağır

Avqust ayı – şər qovuşur
Tezdən də betər qovuşur
Qaçıram – ürəyim bişir
Odlu zoğalın üstündə
Canlı bir zülmət yetişir

Yadımdadır – şənlik gecə
Yadımdadır – qorxu-qadağa
Ulduzlar sürüşüb necə
Kürəyim boyu üz aşağı

Qızmar göyün yanar tağı
Üzbəüz dayanıb baxır
Zoğam – boy atıram budur
Uğuldayan qara sudur

Əl üstündə mən yuxudan
qayıdanda evə geri
ağrı verir həmin o an
ulduzların yanıq yeri

***

İtil birdəfəlik.
İtdin. Əbədi.
Axı sən hamıdan yaxşı itirsən.
Donmaqda olan su cingilti salır –
Xırda pul kimi.
Qırovdan qum üstə bəyaz iz qalır.
Odessada payız cənnəti mehi
İlbəil üfüqlər yaxınlaşmada
Ləpələr izlərdən alırlar behi.
günəş təzə qəpiktək parlamada.
Özünü nə qədər pis aparsan da
Müsbət qəhrəmanım tək bircə sənsən –
Qəpiyi göyə at – oyun oyna sən.
Havadan, metaldan peyda olursan,
Körpünün yanında axı bunu sən
Yaxşı bacarırsan hamıdan yaxşı,
«Salam» da deyirsən.

Sanki heç nə yox,
Dalğalar körpünü döyəcləyərlər –
Gəmilərin bitkin siyahısında
duzlu bir xətt çəkir səyyah damlalar,
dünyanı dolaşıb gəlir hər yandan,
dənizi azaldır damlalar, bir-bir,
sürahi üstündə salınır izlər,
qar yağır çəpinə, qarlanır düzlər,
sanırsan bura da Rusiyadır,
sanki yer kürəsi sığınıb bura,
son səfərdə yollar dönüb cığıra.

Gəlirsən, qar kimi, yolların – beton,
gedirsən hamıdan yaxşı yolunu,
şaxta, soyuq, sazaq – qarışıq zaman.
Çınqıl su dibində salır nurunu.

***

Yerdən üzü göyə gedir bir axın,
Orda quzulaşıb yerə çökəcək.
Odissey dolanır, gəlməyə yaxın
qırx il İtakaya eyləmir ürək.

Durbinlə göz qoyur adaya qoçaq,
Görür üzlərdəki həyəcanları,
Atəş də var orda, tüstü də, ancaq
Kölgə salmır daha öz adamları.

Yenə məhəbbətlə süzməkdə bizi:
Küləkdən titrəyir yerində ada,
Üzlü elçilərin silməkçün izin
Dəmirə əl atar, qılınc oynadar;
Hasarın dibində çiçəkli yonca,
Bir rels parçasını külək yellədir,
Səhərə toxunan örtük boyunca
Ən incə naxışlar tədricən itir.

Damlalar uçarda yuyur işığı,
Göydə yeddi rəngə bölünür işıq,
Oğullar səfərə çıxır sübh çağı,
Günlər daha gözəl, ömrə yaraşıq.

Yanır mis detallar günəşdə par-par,
Pişiklər bağırır ara vermədən:
Gah sevgi, gah vuruş – dünyaya nə var,
Dupduru, apaydın o, göz önündə.

***

O elə baxır ki, görür elə bil,
mən elə baxıram, görürəm guya,
heç nə baş verməyir, lal-dinməzdi dil,
sanki başlamışıq yenə davaya.
O elə baxır ki, sanki haqq verir
Mənsə cinlənirəm, donum alışır,
Yanmayan paltarım üstümdə o an
Od alıb yanır.

Budur dayanmışam çöldə lüt-üryan –
Dünya sənətinin həsrətində mən,
Və aydın görürəm, yox mane olan,
Qəlbim parçalanır tən iki yerə,
Yanıb, qarsalanmış məftilli sahə
Bizim aramızda dayanıb gerçək –
Bir də qarsalanmış otlar üstündə
Çox diqqətlə baxan tək bir cüt çiçək.

Yonca

Çovğuna, tufana, qışa bax –
burduqca burulur yenə qar.
Şüşədə yaranıb üçyarpaq –
çırpılan qarlardan – naxışlar.

Qar altda ölkənin zağası.
Qarsanmış yolkalar qaralır.
İstidirmi sənə, qadası?
Gecə tən, saat da zəng çalır.

Dağıdıb kolları, xaçları,
Aşırdıb qırmızı qapağı,
tabutundan qalxır rus çarı,
tərk edib əbədi yatağı.

Zülmətə zillənir gözləri -
Sərgərdan aytək izləyir
Necə də qar basıb düzləri,
Səmanı çəp pərdə gizləyir.

Bu gecə necə də keçir şən,
yumulur gözlərin qapağı.
Bu ölkə – tək ana, o nədən
İtirir birbəbir uşağı.

Külək də qudurubdur yaman.
Qarları aramsız sovurur.
Taxt-taca tüpürür, həmin an
Tüpürcək havada buz olur.

Ehtiras yatmayıb, buz olur,
Tədricən yığılır sel ola

Buz olmuş ehtiras alt qatda,
Yatmayıb, gözləyir ola sel.
Çarın qar qalağının altda
Qan rəngli yoncalar açır gül.

***

Sürün, ilbiz, sürün yola
tələsmə
pəncən ilə yeri yoxla
tələsmə
buynuzların necə qəşəng
ay ilbiz
bu doqqazı necə keçək
axı biz

Ərin sənin hara belə
tələsir
yatıb, yoxsa köpükdə batıb
əsir
kimi tapıb, kimi harda
gözləyir
gəzəyənti ərin kimi
həsləyir

Palladanın sevimlisi
(nəfəs dər)
Okeanın tavanı dibi
yetər
(ulduzların işıq saçır)
İşin saz
okean da onun üçün
çox dayaz

Amma onu necə olsa
Ev çəkir
Axı onun öz mələyi
Evdədir
Yol qurtarır düşməyəsən
Tələsə
Rast gəlməzsən quruda sən
bir kəsə

***

Sinəmdəki kəpənəyim
qaldır yerimdən,
nəsə kəsilib kələyim
durammıram mən

Nəfəsi al – dərin sadə,
dayanma bekar
aldığın havadır bir də
qəfəs və ruh var.

Çırpınırsan nədir belə
döş qəfəsində
çıx aradan pərvaz elə
göyün üzündə

Qaldırırdın axı deyən
guya həyatı
nəfəs dərib göyə millən
dolan elatı

Qanadların sürtünmədən
deyən od alır
don vurub başını nədən
motor səs salır

Yaman zəif vurur damar
qorxubdur nədi
verrəm sənə mən o ki var
cənnət şərbəti

Ulduzlar dəli rəqsdədir
naqillər yalın
apar məni hara gəldi
qoyma ki qalım

Nəfəs, kəsilir kələyin
alışır sinə!
yanmış ciyər kəpənəyi –
qara pərvanə.

Afrodita

Qatı şirin köpükdən
duzlu ölgün köpükdən
damcılar və köpükdən
yaxşı bir fit çalaram.

Yelkəni yellər külək
damarı gəzər külək
divarda şəkil isə
tərsinə dönər nəsə

Gəmiçi, ay gəmiçi
məni də say, gəmiçi
apar məni, ha çaşır
dalğalar pıçıldaşır

Gəmiçi, ay gəmiçi
qızarır suyun içi

günəş rəngini qatır
mən hazıram mən hazır

Görünür göyərtədə
qüsursuz bir gəmiçi
kraxmalı kitelində
əlində tutub şprisi

Köpüklər hey qaynaşır
gəmi fiti bağırır
gəmi az qala aşır
sular bizi çağırır

Başımda gəzir külək
xırda ağ gəmi uçur
balıqları ötərək
nurlu dalğanı yorur

Gedir altı sapsarı
üstü al bir rəng alan
köpükdən tüstü qalxan
həmin məclisə sarı.

Layla

Ölməyəcəm mən heç zaman
Ölməyəsən sən heç zaman
Yarpaqları qovur külək
Cənnət bağı yağış yaman

Çadırlar yaş ağır budaq
Cırıldayır sular altda
Qadın – axmaq – nə ağlamaq
Ay adam yat. yat ay adam.

Yat
Bu bayram – alma günü
Damcı altda yarpaq – bu dəm
Uydursunlar – çıxar ünü
Yalan deyil, deyil Adəm

İlan kimi su burulur
Yalan idrakdan şirincə
Alma zəhri – can qovrulur
Cənnət bağında əsməcə

Cənnət bağı – şimşək çaxır
Naqillər alışıb aman
Daxmamıza alma baxır –
Ölməyəsən sən heç zaman

Alma

Onun dili haça. Edir fasilə,
Konyakın üstündən alma gəmirir
İki rus dilində gətirir dilə –
Hər şey və birdən – yağlı vəd verir.

Başımız üstündə əyilib əncir,
Kölgələr sürünür, yarpaq salır səs,
Par-par yanır badə, üzüklər – nədir
Başımı əridən, oyadan həvəs.

Qabda dilim-dilim alma düzümlə
(Yer ilə göy, bir də Qum və Şan-şöhrət)
Gülür, dodaqların çevirir gilə
Almanı çevirir qarmağa və sədd
Aşılır, qıvrılır tilov ilantək,
Havada dəyirmi neçə iz salır –
Paltar bədənimə yapışır, gerçək
Onurğam buzlayır, belim od alır

Əncir əriyibdir – qatranı axır,
Bir dövrə də vurub, tərk etmə qəti!

… budaqda günəşdən tumurcuq yanır –
Nəyinə gərək bu ilan cənnəti…

***

Vaxt uzundur, yaman uzun, elə su kimi.
Oturaydım su altında – olub həmdəmi.
Bu ağacın altındaca oturaydım mən.
Oturaydım, bu sulara baxaydım hər dəm:

necə yanır su dibində görünməyən qum,
qızıl-gümüş cingildəyir, eyləyən hücum

dalğaların necə tez-tez dəyişir rəngi,
gəlir quşlar, hər tərəfdən gəlir ahəngi.

Sığınıblar mənə quşlar – sanırsan ki mən –
Əl-ayağam, başam – artıq nə gərək bədən.
Çalacaqlar gözəl hava sanırsan məndə,
Onlar üçün heç maneə yox bədənimdə.

Yox düşmənim. Çox arxayın oturmuşam mən,
Sahil boyu nəsə üzsə, quşları həmən
Saxlayaram öz içimdə, qoymaram çıxa –
Bir qanadlar səs-küy salır sıx qamışlığa.

Vurub peysəri ağaca, sıçrayıram dik.
Xəfifləyən vaxtımızda çox gülməliyik.
Yenə ləələklər pırıldar, salar hay-haray.
Sonra sükut. Vaxt isə çox, günləri ha say.

***

Yüngülayaq, gəzərgi dost,
şənlik verən, ruh oxşayan,
titrəyişli şəfəq yayan,
nəfəs kəsən, gicgah deşən,
uzaq skripka kimi bic-bic
səhər-səhər qəlb oxşayan,

çağıran yox, qoy səni mən
ciyərimə alım tezdən.

Günəş şərqə dığırlanır,
əks-sədalar uzun-uzun
söhbət üçün qəlbim yanır
gəl bir söhbət edək, quzum.

Ləzzət verən, can gətirən,
ey canlı ruh, çapıb şən-şən,
başım üstə odla çəkər
əyri-üyrü yanar xətlər
mənim qızıl diyircəyim,
«ura» deyim – sən yox demə,
qədərindən yox xəbərim,
uç irəli – heç qəm yemə.

***

Deyirlər ki, xoşbəxtəm mən,
Deyirlər ki, yellər əsən
bu aləmdə yaşayıram
Başı parlaq, şərab vuran
Bir mələyin faciəvi
Lirasını daşıyıram.

Bu mənzildən o mənzilə
hey dolaşan sətir təki
salon, çayçı demirəm mən
Şərab süzən sirli ələ
Baxıram əl etsə, səki
Lira verim çalsın həmən.

Şair, körpə,
Başqa kəslər,
Kol altında yatan çoban,
Səhər çağı
Buza dönmüş barmağıyla
Sim tərpədib zilə çıxsa,
GÖYƏ QALXAR
Həmin o an.

Səma susur, səs millənir
Göyə sarı, yatan zaman
Bu min yaşlı, simlər dinir –
Mən əbədi cavan kimi
Tələsmədən, çəkinmədən
Tərpədirəm gümüş simi.

***

Allahın kol-kosu havada –
Bənzəyir məftilə
yandırır ağrıdır hökmünü
verməyə səbr elə

Həyatım asılı bir tükdən
Bu sükut – qondarma
dayanıb çəkirsən siqaret
pencəyin qurama

Qondarma sükutu pozmada
əl dəyən kimi sim,
sevginin çatacaq əvəzi
bir gözlə, əzizim.
Muzadan bir hay yox, çatanda
qayğılar lap sona,
Fit çalıb keşikçi dayanmaq
Haqq salan bostana,
Əkinə, heyvana baxaraq
keçmişə ha yanmaq,
silinmiş adımı rəhmətlə
arada bir anmaq

***

İşartı da yoxdur dünyada indi
Kedron qaynamada
əsgər dəstəsi
qara təpə yarır – keçmək çətindi
bölmədə zülməti bir budaq səsi

Vaxt daralıb
Bağda addım səsləri
İşıldaböcəklər baş üzərində
Oyatmaq mümkünsüz daha bizləri
uzanmışıq yanan kolun dibində
Yerə biz yan-yana sərələnmişik
Azad görünməzik axirətədək
Sənin ən birinci şagirdlərin tək.

Sardinya Vircinya Samarada da
İkimininci̇də
hərəkətsiz şar
Üstündəyik bir də
aydır səmada –
sanırsan sürtülmüş gümüş bir dinar

Tərcümə edən: Heydər Orucov

Lev Rubinşteyn

(şeirlər)

«Bu mənəm»

1
Bu mənəm

2
Bu da mənəm

3
Bu da elə mənəm

4
Bu valideynlərimdir. Deyəsən, Kislovodskdayıq. Yazı: «1952»

5
Voleybol topuyla olan Mişadır

6
Xizəklə olan mənəm

7
Qalya iki pişik balası ilə. Yazı: «Bizim canlı guşə»

8
Soldan üçüncü - mənəm

9
Ufa bazarı. Yazı: «Ufa bazarı. 1940-cı il»

10
Naməlum şəxs. Yazı: «Əziz Yeloçkaya M.B.-dən xatirə. Xarkov ş.»

11
xalatda, əlində qiyməkeş olan isə mənim atamdır.
Yazı: «İş qaynayır»
Xətt mənimdir.

12
Anam kar dərzi Tatyana ilə. Hər ikisi çimərlik –
Yazı: «İstidir. 54-ün yayı»

13
Alt paltarda olan mənəm

14
Oturanlar:

15
Lazutin Feliks

16
Və kağız parçasında yazan kiminsə əli.

17
Qolubovski Arkadi Lvoviç

18
Vaqon şüşəsində axıb süzülən yağış damcısı.

19
Rozaliya Leonidovna

20
Qadın çantasından düşən kiçik çəhrayı zərf.

21
Koşeleva Alevtina Nikitiçna, xadimə.

22
Və televiziya diktorunun səssiz tərpənən dodaqları.

23
A.V.Sutyaqin

24
Və bahar irmağı ilə axıb gedən şəkil parçası

25
Qavrilin A.P., məktəb ayaması «Taksiderinist»

26
Və yaşlı fəhlənin əllərinin şişmiş venaları

27
Prof. Vitte.

28
Və körpü altından açılmış çətirin yavaş-yavaş çıxması

29
Ayaq üstdə

30
Martemyanov İ.S.

31
Və tənha yarpağın buzlu payız küləyinə ümidsizcəsinə müqavimətini görürük

32
Və yazı: «Mən buraya necə düşmüşəm»

33
Mogilyovskaya S.Y. və Pilipenko V.N.

34
Və biz qırxılmış saçların qızılı halqalarının döşəməyə tökülməsini görürük

35
Və yazı: «Hamı suçludur, amma sən cavab verməlisən»

36
Tolpiqin Q.Y.

37
Və italyan xanım telejurnalistin ağlar üzünü görürük

38
Və Yazı: «O vaxtdan neçə illər keçib, amma sən yenə həmənkisən, bir şairin dediyi kimi, hətta onun adını belə unutmuşam»

39
İoahim Sartorius

40
Və biz dəri oturacağın üstündə iki cırılmış valet piki görürük.

41
Və yazı: «Burada hər şey olacaq qayıq: kürəyinin şappıltısı və krala və naz-qəmzə satmağa belə yaşı çatmayan qızın şirin «sevirəm» sözü».

42
Qovendo T.X.

43
Və biz uşağın titrəyən ovcunda altı, ya da yeddi dənə parlaq-çəhrayı tabletka görürük

44
Və yazı: Mən belə öləcəyəm. Başqasına ilişəcəyəm və yıxılacağam. Anam havayı qorxmurdu ki, mən hər sözə inanıram.

45
Makeyeva O.A.

46
Və biz coğrafi xəritədə işarələnmiş Bohum şəhərini görürük

47
Və yazı: «Bu cür vərdişlərin mövcudluğu o dövrlərə aiddir ki, onda uşaqlara səs-küy salmağa və üzlü olmağa icazə vermirdilər».

48
Konotopov V.N.

49
Və biz köpək nəcisinin qalağında velosiped təkərinin təzə izini görürük.

50
Və yazı: «Öz komanda bədbəxtliyi gözləməkdən yorulanda təzəcə yuyulmuş döşəmədə nəmli ayaq izlərini yadında saxla»

51
Zamesov V.N.

52
Və biz pianonun dillərində Şubertin «Qızıl balıqlar»ının melodiyasını inamsızlıqla çalmaq istəyən uşağın barmağını görürük.

53
Və yazı: «Səbir, şöhrət – bir-birindən xəbərsiz olan iki bacıdır. Ta səni döyüşə çağırana qədər sus, gizlən»

54
Və biz yarımqaranlıqda yatan uşağın üzünü imsələyən yekə bir siçovulun siluetini sezirik.

55
Bu, mənəm

56
Və nəhayət ölən qohumuna baş çəkməyə gedən gənc adamın yol plaşının iri gümüşü düyməsi görünür.

57
Və axsaq zabitin əlində duel tapançası titrəyir.

58
Və gənc xanımın əlində ortadan açılmış fransız romanı titrəyir.

59
Solğun üzlü gənc adamın əlində gümüşü tənbəki qabı titrəyir.

60
Və sərxoş əsgərin əlində qalaylı xaç titrəyir.

61
Və sərxoş hərbi həkimin əllərində iri gümüşü samovar titrəyir.

62
Və antik ilahə büstünün başında tərpənməz oturmuş iri qara quşun parlaq dimdiyi yüngülcə titrəyir

63
Bu lap özüməm

64
Lazutin Feliks: «Sağ olun. Artıq getmək vaxtıdır»

65
Çıxıb gedir.

66
Martemyanov İqor Stanislavoviç. Vəhy mövsumu: Ədəbi-tənqidi məqalələr toplusu. M. «Sovremennik». 1987.

67
Qolubovski Arkadi Lvoviç: «Belə. Getməyin vaxtıdır».

68
Çıxıb gedir.

69
Tolpiqin Gennadi Yakovleviç. Kreşenskdə bürkü. Şeirlər və poemalar. Tula.Priokskoe kn.izd.1986.

70
Rozaliya Leonidovna: «Artıq gecdir. Getmək vaxtıdır».

71
Çıxıb gedir.

72
Mogilyevskaya Susanna Yankelevna, Pilipenko Vladimir Nikolayeviç. Biz kefdəyik! Bəs siz? Zəifeşidənlər məktəbinin 4-6-cı sinif şagirdləri üçün repertuar toplusu. – M.: Prosveşenie, 1984.

73

Koşelova Alevtina Nikitiçna, xadimə: «Vay, dədə! Hələ bir otururam da? Artıq getmək lazımdır».

74
Çıxıb gedir.

75
Sartorinç İoahim. Təkər formulu. Roman. Alman dilindən tərcümə. Son söz V.A.Rivkinanındır. M., «Nauka»,1984

76
Rəhmətlik A.V.Sutyaqin: “Sizdə, Lyuboçka, elə vəziyyət olurmu ki, ya sizinlə və ya sizin ətrafınızda baş verib. Odur? qarını – görürsünüz – çantasında nəsə axtarır, odur pişik evin dalına qaçdı, – bütün bunlar hansısa böyük və sirli bir məna ilə edilib, bir azca, güc eləsən – və həmin an və həmişəlik hər şeyi anlayacaqsan? Üzr istəyirəm, nə?»

77
«Heç nə, mən dinləyirəm»

78
«Belədir, yoxsa, yox?»

79
«Nə belədir?»

80
Çıxıb gedir.

81
Qovendo Tamara Xaritonova. Ceyms Doussonun son dövr əsərlərində qeyri-konvensional poetikanın bəzi məsələləri – «Aktual labirint». 3-cü buraxılış. M., 1992, səh.12-21.

82
Makeyeva Olqa Aleksandrovna. Orta solsahil qəbilələrinin təqvim mərasimləri. – Orada, səh.12-21.

83
Konotopov Valeri Nikolayeviç. Tomas Banerin «Maldar qız və kurfürst» dramı. Əsas motivlərin təhlilinə dair – orada, səh.12-21

84
Zamesov Viktor Nikolayeviç. Parazitar düşüncənin böhranı. Daha sonra nə olacaq? – Orada, səh.12-21.

85
Qavrilin A.P. Biz, misalçün belə deyirik: külək səs salır. Hə?

86
«Hə də…»

87
Səs salan külək ha deyil, onun yoluna çıxan şeylərdir: ağac budaqları, damın çubuğu, soba boruları. Külək, Lyuboçka, səs-küy salmır? Niyə səs-küy salsın ki?

88
«Doğrudan da…»

89
Çıxıb gedir

90
Prof. Vitte (tək): “İlahi! Nə qədər dözmək olar? Bu dərdi çəkməyə taqətim yox. Axı, mən cani-dildən çalışıram. Allah görür, mən ürəkdən çalışıram”.

91
Qışqırığa sıçrayır.

92
Bu, odur! Odur! Küt meşanka Antonina! Onun qəşəng əmisi oğlu universitet diplomu ilə bəzənmiş bu acgöz heyvan, bir Allah bilir, nəyə başa gəlib? Ümumiyyətlə, deyəsən, mən nə edəcəyimi yaxşı bilirəm!»

93
Çıxıb gedir.

94
Bir bax. Öncə süngər ilə sürtmək lazımdır. Bax, axı mən sənə göstərirəm. Bu süngərlə. Sonra isə bu quru əski ilə. Paslanmasın deyə. Anladın?»

95
Çıxıb gedir

96
Onlar mənə demişdilər ki, bayram axşamı gələcəklər. Mən isə almalı piroq bişirdim. Onlar almalı piroqu sevirlər. Əynimi dəyişdim, oturub gözləyirəm. Onlar birdən şustergildən zəng edib deyirlər ki, Şusterlər onları qonaq dəvət ediblər və ora getməli olublar. Belə də iş olar? Kefim lap pozuldu. Axmaq kimi oturmuşam öz piroqumla. Zəng etdim, düşündüm, bəlkə bizə gələsən, piroqdan-zaddan yeyəsən. Axı, sən də sevirsən. Sən isə evdə yoxsan. Mən bir az ağladım da. Elə kədərli idim. Di, yaxşı, fikir vermə…

97
Çıxıb gedir.

98
«Bilirsən, mən getsəm, yaxşıdır»

99
«Haraya gedəcəksən, çudak? Bizdə bütün çardaq. Hər şey var: yastıq, yorğan…»

100
«Yox-yox. Sağ ol. Vaxtdır (Saatına baxır). Birə on dəqiqə işləyib. Çataram».

101
«Belə. Xeyirli olsun»

102
Çıxıb gedir.

103
Bu isə mənəm.

104
Bu qızıl şəfəqli səhər sadə şəhər uşağı qəzəblənmiş Zoya xalanın əlindən qaçıb canını qurtardı.

105
Bu isə mənəm

106
Bu isə Larıçeva Rayanın yarıunudulmuş siluetidir. Eynəyimin sağanağı sadədir. Mənim doqquz, onun on iki yaşı var.

107
Bu isə mənəm.

108
Bu Sanyanın dediyi o dörd sözdür ki, Tolya nalı əymək istədi, amma əyə bilmədi.

109
Bu isə mənəm.

110
Bu bayram günü paytaxtın albayraqlı paradının «ura»sı və bizim məhəllə qızlarının gümrah üzləri.

111
Bu isə mənəm.

112
Bu isə düz saat altıda himnin xoş səsi, sanki heç yatmamışam. Yəqin kimsə padionöqtəni bağlamağı unudub.

113
Bu isə mənəm.

114
Bu isə maykada və trusikdə olan mənəm.

115
Bu isə maykada və trusikdə, yorğan altından başı çıxan mənəm.

116
Bu isə mənəm, yorğanın altında, qaçıram günəşli gölməçələrlə.

117
Bu isə mənəm, yorğanın altında, qaçıram günəşli gölməçələrlə, marmatum mənimlədir.

118
Marmotum da mənimlədir.

119
Çıxıb gedir.

Ya o olur, ya da bu

Ya o olur
Ya bu olur.
Ya kimsə də ortadan çıxır.
Bu yandan da.

Ya hədsiz dəqiqdir.
Ya hədsiz yaxındır.
Bu yandan da hələ bir çiyni üstdən baxırlar…

Ya hədsiz genişdir.
Ya çox qısadır.
Ya nə odur, nə də bu.
Bu yandan da harasa çağırırlar.

Ya hədsiz işıqlıdır
Ya çox tutqundur.
Ya ağlın bir şey kəsmir.
Bu yandan da həmişə uyğun gəlməlisən.

Ya yeriməyə taqətin yox.
Ya dayanmaq mümkünsüz.
Ya ayaqqabı tozlu.
Bu yandan da düşünmək istəyirlər, amma elə şeylər danışırlar ki…

Ya yerindən tərpənməyə güc yox.
Ya da dözməyinin səbəbini bilmirsən.
Ya da kağız barmağını doğrayır.
Bu yandan da dörd tərəfdən təpikləyirlər.

Ya səhər nə düşündüyünü unudursan.
Ya «Şairin sətirləri arasında nədirsə, qıçları arasında odur» fikri səni rahatsız edir.
Ya da kimsə mafraxlaşır.
Bu bir yandan inamsızlıq əl-qol…

Ya şəxsi təsəvvürlər sisteminə təəssüflənirsən.
Ya da şəxsi təcrübən mənasız kimi.
Ya da qarğalar dolaşır boş əkin yerlərində
Bu yandan da qəfil güzgüyə də baxarsan.

Ya qəfil bir xatirə səs salar içində.
Ya dörd bir yanı kül basar.
Ya elə gizlədərlər ki, tapamazsan bir daha.
Bu yandan da gör nələr baş verir.

Ya sənə zülm verir susmağın da.
Ya söylənilməsi nə varsa,
artıq söylənildiyini güman edirsən.
Ya unudursan birdən misilsiz gözəlliyini
həmin məqamın
Bu yandan da adın dəftərdə yox…

Ya zülmət içrə dolaşır kabuslar, qorxudur bizi.
Ya da sirli-soraqlı olaylar.
Ya da kor ümidlər yolun düz ortasında.
Bu yandan da aləm qarışıb bir-birinə…

Ya bəxtin dumanında kəlləçarx olursan
Ya da acı xatirələr izləyir dabanbasaraq səni.
Ya da ömrün mənası sürüşüb çıxır əldən.
Bu yandan da təbiət bağışlamır bu boşluğu

Ya qızarır Doğu.
Ya alışıb külə dönür Batı.
Ya da gündəlik qayğılar.
Bu yandan da belə gəlib zəmanə …

Ya intəhasız, sonsuz çöllər.
Ya da zülmətdən seçmir göz-gözü
Ya ürək dumanlı.
Bu yandan da hər şeyi anlamağımız gərək.

Ya kef çəkməli əyyamlar haqqında.
Ya anlaşılma - anlaşılmazlıq haqqında.
Ya ümidlərin sönməsilə barışmaq haqqında.
Bu yandan da heç nəyi başa çatdırmaq olmur.

Ya təşəbbüskarlar sıramızda azalmaqda.
Ya da özgəsinin adını demək vərdişindən
qurtulmaq imkanı.

Ya şeylərə fərdi baxmağın mümkünsüzlüyü.
Bu yandan da otur, fikirləş: nə olar, nə olmaz…

Ya bilmirsən sevinirsən nəyə.
Ya bilmirsən narahatsan nədən.
Ya da bilmirsən nə istəyir ürəyin.
Bu yandan da cürbəcür söhbətlər.

Ya susmaq qızılmış, demə.
ya dilində sirr saxlamırsan.
ya düşünmədən danışırsan.
bu yandan da otur, gözlə ki, sənə də fikir verən olacaq.

Ya ömür cıdarlanmış at kimi.
Ya hər baş tərpətməyin də öz işarəti var.
Ya düşüncə başlayır cingildəməyə.
Bu yandan da səsinə səs verən yox…

Ya dəyişmir gidi dünyanın üzü.
ya gözlər qapı ağzında səni.
Ya ayılmaq cəhdin müşkülə dönür.
Bu yandan da görmək istəmirsən - yenə zühur edər…

Ya qosqoca yaddaşın başı əyilər yerə.
Ya sabah günortanın satqını.
Ya belindən elə basırlar, başını elə əyirlər ki.
Bu yandan da hər şeyin izahı var.

Ya gecə küləyinin soyuqlamış nəfəsi
Ya dilində yerin köpükləri.
Ya düşünürsən hər şeyi yola verəsən
Bu yandan da bu məsələ…

Ya bir başlanğıcın o birindən aşkarca üstün.
Ya o şey ki daim yuxuma girir.
Ya səni suçlamağa səbirləri çatmır.
Bu yandan da tamam anlaşılmaz təpki…

Ya bir sonsuzluğun necə variantı olur
Ya ağlına gəlməyən başına gəlir
Ya yoldaşı tanımağın üçün yol getməlisən
Bu yandan da heç nə olmamış kimi.

Ya yuxusuz gecədən sonra tutqun səhər gəlir.
Ya da bütün hər şeyi
Ya da içində dolaşır baqilik qüssəsi
Bu yandan da nağıllar sənə gerçək gəlir.

Ya yaşantılar reyestrində başqa bir həyəcan var.
Ya qarşına elə şeylər çıxır ki, nə edəcəyini şaşırırsan.
Ya da bilmirsən nəyə dözüb səbr edəsən.
Bu yandan da düz-əməlli.

Ya əziyyətlər və təşvişlər.
Ya ümidlər və təskinliklər.
Ya Alusterlitsin göyləri
Bu yandan da qərar özünü çatdırır…

Ya yapışqanlı varaqlar
Ya hər birini əvvəlki və sonrakı ilə müqayisə et.
Ya onsuz da aydındır, bu, uzun çəkə bilməz
Bu yandan da axırı, sonu görünmür

Tərcümə edən: Rüstəm Kamal

Kiril Medvedyev

(şeirlər)

***

tərcümədən bezmişəm
yəqin bir də tərcümə etməyəcəyəm
mənə elə gəlir ki sən nə vaxt ki
müəllifi tam dərk edəcəksən
onun hər misrasının altına
öz imzanı qoya biləcəksən
onun fəryadını duyub və bir az da
gücləndirə biləcəksən
yalnız o vaxt tərcüməyə girişə bilərsən
məsələn mən çarlz bukovski adlı
bir amerikalı
yazıçı və şairi
tərcümə edəndə belə olmuşdu
onu tərcümə edəndə
çox istəyirdim ki
mümkün qədər daha çox insan
onu eşidə bilsin
və mənim duyduğum kimi
onun anladıqlarının

heç olmasa azacıq bir hissəsini
anlasınlar
onu tərcümə edəndə
mənə elə gəlirdi ki
mənim qədər
onu heç kim anlaya bilməz
halbuki bizi
qətiyyən heç nə
bağlamır və
onda da bağlamırdı
nə xarici nə daxili
nə də bioqrafik
çarlz bukovski heç idealım da deyil
buna görə mənə elə gəlir ki
mən onun dili ilə
danışmırdım
çox vaxt
öz səsləri olmadığı üçün
özgə dili ilə danışan
tərcüməçilərdən fərqli olaraq
heç nəyi də dəyişdirməmişdim
mənə elə gəlir ki
bu doğrudan əsl ünsiyyət idi –
tamamilə iki fərqli insan
birdən bir-birini anlamağa başlayan zaman
məncə bu ünsiyyət
incəsənətdə və həyatda
elə əsl hadisənin özüdür ki var
mən bukovskinin bir romanını bütünlüklə
bir də çoxlu şeirlərini çevirdim
mənə elə gəlir ki hər ikisini

yaxşı çevirmişəm
mən bilmirəm roman bütöv necədir
amma orda sadəcə dahiyanə parçalar var
buna əminəm
məncə şeirlər də eləcə
çarlz bukovskinin
şeirlərini tərcümə edərkən
mənə elə gəlirdi ki
rus dilində ən yaxşı çağdaş poeziyanı
yaradıram
düzünü desəm mənə elə indi də
elə gəlir
təəssüf ki bilmirəm
bu nə vaxt dərc olunacaq
ola bilər
daha heç vaxt
və mən düzünü desəm
ümid də etmirəm
çünki bilirəm ki
bu romanı məni qabaqlayıb
başqa tərcümədə
nəşr edə bilərlər
ola bilər
pis tərcümə də olmasın
ancaq əlaqə də qırılmasın
tamam biabırçılıq da
ola bilər;
mən indi
xarici ədəbiyyat jurnalı üçün
bir detektiv çevirirəm
bu jurnalın

məncə "səfər kitabı" adlanan
yeni seriyası üçün detektiv
məndə elə bir hiss yaranıb ki
mən indi
burjuaziyanın qulluğunda durmuşam
bu detektivi con ridli yazıb
amerikalı zənci yazıçı
32 yaşı var
bu gərgin süjetli detektiv
nəyi iləsə kventin tarantinonun filmlərinə oxşayır
orda hollivuda satira
və hollivud isteblişmentinin
adətlərinin tənqidi var
ancaq yenə həmin köhnə hollivud fəndlərindən
istifadə edilməklə;
bu romanda cəmisi bir neçə
yaxşı yer var
bütövlükdə isə
mənə belə gəlir ki
uğurlu bir quramadır
düşünürəm ki tərcüməçilər
çox nadir istisnalarla
özgə qanını
sümürən xortdanlardır
çünki tərcümə
şirin yuxudur
yaradıcılıq isə məşəqqət
buna görə də
mən yəqin ki
bir də tərcümə ilə
məşğul olmayacağam

***

mənə elə gəlir ki
bu günlərdə
rojdestvenski bulvarında
evlərin yanıyla
gedərkən
boşluğun mənasını anladım
və birdən
evlərin arasından
mənə açılan bir boşluğu
hiss etdim;
mən dərhal duydum ki
bu boşluq
əvvəllər burda yox idi,
ancaq
uzun müddət anlaya bilmədim ki
əvvəllər onun yerində nə olub;
sonra xatırladım
ki
burda
monastırın yanında
iki gün əvvəl
rahiblər ağacları kəsirdilər,
mən isə əvvəlcə
buna fikir vermədim
və onların artıq mişarladığı
və elə indicə səkiyə yıxılacaq
ağacın düz altından
keçdim; və budur,
mən həmin yeri artıq demək olar keçmişdim ki,

bir qədər aralıda dayanmış bir rahib
mənə baxdı və başını yellədi,
çünki kəsdikləri həmin o ağac
məni basıb öldürə bilərdi;
və budur indi
həmin yerdən
keçəndə
ordan məni
sıxan
bu boşluğu
hiss etdim,
ağacların yerində
tilsimlənmiş bir yarıq
hiss etdim,
və bu an
onun yerində olan
və yanından keçib gedəndə
diqqət etmədiyim
o ağacları
öz təsəvvürümdə aydınca canlandırdım,
və mən o an
onların xışıltısını və qoxusunu
hiss etdim –
fikirləşdim ki
nəyinsə baş verməsi üçün
(hansısa bir həyəcan, daxili
sarsıntı,
çartıldamaq –
hansısa bir əyilmə
ruhi spazma,
ilişmə,

ola bilər,
şeytan sıçrayışı)
əvvəlcə başqa bir şey
olmalıdır –
görünür, əvvəlcə boşluq
qarabasma kimi
parıldamalıdır,
mənə elə gəlir ki, əvvəlcə
hansısa bir acı iflas gəlməlidir,
ona görə ki
insan ruhu
(insan ruhunun maşineriyası,
onun şıltaq yekəpər maşineriyası)
insandan
bir şeylərin alındığı yerdə
daha doğrusu, mahiyyətcə *boş*
yerdə
işləməyə başlayır
(yaxşı olardı ki onun
dəyər vermədiyi
daha yaxşısı
ümumiyyətlə haqqında
heç nə bilmədiyi
bir şeyini əlindən alsınlar)
rahiblərin ağacları kəsdiyi yerdə
üzümə açılan
boşluqla bağlı
bu təəssüratdan sonra
mənə elə gəlir ki
mən boşluğun mənasını
kifayət qədər yaxşı anladım

***

yenə bir azacıq ədəbiyyat haqda:
məni həmişə
bir şair tipi çox maraqlandırıb
yetərincə məşhur tipdir:
hələ otuzuncu illərdən
moskvaya gələn
sarışın oğlanlar
ədəbiyyat institutuna girdilər
və institutun yataqxanasında
guruldamağa başladılar
bu əyalətlərdən gələn
yalçın oğlanlar idi
nostalgiya ustaları
və əsrarəngiz naşılar;
mənə elə gəlir ki
onları daha çox istəyirdilər
çünki onlar
yaşlı paytaxt şairlərinin
xalqın qarşısında daimi kompleksdə olan
həqiqi vicdanını
təmsil edirdilər;
mənə elə gəlir ki
onlar çox istəyirdilər
şəhərdə
bu qədər
vakant
kənd şairi xanalarını
tutsunlar;
düşünürəm ki

onlar da çox istəyirdilər
Lelin gips cildinə girib yoxlasınlar
onların onlarcası
dəli oldu
çoxu bomja çevrildi
və hələ də
strastnı bulvarında
dilənçilik edirlər
(mən iki dəfə
üz-gözünü tük basmış kişilər
görmüşəm ki
oturacaqların arası ilə gəzir
şeirlər oxuyur
və deyirlər ki onlar
ədəbiyyat institutunun
keçmiş tələbələridirlər)
bu uşaqların bəziləri
özlərini asdılar
qalanı yoxa çıxdı;
hamıdan çox
məlumdur ki
nikolay rubsov məşhurlaşdı
lakin o da məlumdur ki
rubsov elə də sadəlövh deyilmiş
bir müddət piterdə yaşamış
orada piterli estetlərlə tanışlıq etmiş
müxtəlif formalist şeylər öyrənmiş
brodskini bəyənirmiş
və ilaxır
düşünürəm
hamıya məlumdur ki

moskvaya gələndə
ədəbiyyat institutunun
bu arıçıları
onu dövrəyə alıblar
mənə elə gəlir ki
onlar onu
mənfur çərçivəyə
itələyib salıblar
bununla da onu məhv edib
və onun küləş müqəvvasını
panteonda nümayişə qoyublar
orda indi də
belə uşaqları
hədəfə götürürlər

***

sadovı dairəsi
və arbatın tinindəki
"smolenski" qastronomunda
qalaq-qalaq tökülmüş
bahalı
və bərbəzəkli
yeyəcəklərin arasında
yeddi manata
şprot paşteti gördüm;
bankasında yazılmışdı ki
onun tərkibində
arpa yarması var

yəqin bu mikrorayonun
hər gün
bu mağazaya gələn sakinləri üçün
xüsusi gətirilib
deyə düşünüb
iki banka
aldım
buranın sakinləri
əlbəttə ki
öz maşınlarında
o biri rayonlardan
bura əməlli-başlı bazarlıq etməyə
gələn yekəqarın
burjua daydaylardan
elə də varlı deyillər;
mən paşteti götürdüm
və tərəvəz rəflərinin
arası ilə getməyə başladım;
həm də
ucuz bir balıq almalı idim
və mən hər şeyə
rəflərin üstünə
düzülmüş
ərzaqlara
qida məhsullarının fonunda
çox qəribə görünən
jurnallara
elə hey baxırdım baxırdım
mən orda o qədər
gəzdim ki
heç nə oğurlamasınlar deyə

qarovul çəkən
gözətçilər
mənim dalımca baxmaqdan
yoruldular
ancaq ora
çox gözəl idi
və mənim də
ordan xoşum gəlirdi;
yadıma gəlir ki
alıcılar fikrimi dağıtmırdı
çünki onlar məni
maraqlandırmırdı
özü də ki çox az idilər
və onlar laqeydcəsinə
demək olar heç baxmadan
ərzaqları
təkərli səbətlərə
doldururdular
mən isə əksinə
hər bir ərzağı
ehtiyatla
və ehtiramla gözdən keçirir
çox qəşəng qablaşdırılmış bu yeməklərin
zərif
bəzən başgicəlləndirən adlarını
(məsələn orda "iki əlvan alabalıq"
adlı bir ərzaq var idi)
oxuyurdum
o qədər çox gəzdim ki
axırda məni
qəribə bir hiss

bürüdü;
bu sıxıntıya oxşar
bir şey idi;
bu dəhşətli
boğucu bir sıxıntı,
təəssüf idi;
bu balıqlara,
bu universamda
satılan
neçə yüz növdə
şəraba,
bütün peçenyelərə,
bütün jurnallara,
konfetlərə,
iri konfet qutularına,
iri ət tikələrinə,
balıqlara təəssüfləndim;
və mən orda,
univermaq rəflərində
düzülmüş
bütün bu
qəşəng səfeh bahalı
bəbələrə
bir xeyli baxdım
və fikirləşdim ki
yəqin
sivilizasiyanın
əsas yanacağı elə budur
(ona görə yox ki biz hamımız
istehlak sivilizasiyasında yaşayırıq,
sadəcə ona görə ki

yerdə qalanlar hamısı
şəraitdir
yemək isə,
nə desən də,
zülaldır,
yemək
ailə xoşbəxtliyi və rifahının
təminatıdır
hər şey də əsasən
onun uğrunda baş verir,
elə bunun üçün də
ona görə ailələr dağılır,
sevgililər ayrılır
qətllər törədilir
fikrində yəqin ki
təəccüblü heç nə yoxdur);
bir azca da gəzəndən sonra
fikirləşdim ki
mənim bu ərzaqlara
boğucu təəssüfüm də
fetişizmin bir növü
və həm də əşyaçılığın
bir təzahürüdür;
buna görə də
güman etmirəm ki
bütün
bu baş verənləri
doğuran əşyalara
təəssüflənmək lazımdır;
mən balıq filesi
və öz-özümdə

"kasıblar üçün paştet" adlandırdığım
bu çox ucuz paştetdən
iki banka aldım;
bu ərzaqlarla
qastronomdan çıxanda
fikirləşdim ki
necə tez-tez mənim
istehlak cəmiyyətinin ağız-burun əymələrinə
münasibətimdəki
nifrəti
sentimentallıq əvəzləyir

***

dünən axşam,
qonaqlıqdan qayıdarkən,
mürgüləmişəm, öz metro stansiyam
vernadski prospektini ötüb keçmiş
və axırıncı stansiyaya gedib çıxmışam;
orda
məni mavi paltarlı bir qadın oyatdı
və geri qayıtdım;
öz stansiyama qayıdıb
vaqondan çıxanda
fikirləşirdim ki
bu və bunun kimi qadınlar
görəsən tez-tezmi
axırıncı stansiyalarda
boş vaqonlarda

ölüləri oyadırlar;
yadıma düşdü ki,
əvvəllər yazdığım
şeirlərdən birində
(yeri gəlmişkən,
mən əvvəllər tamam başqa cür
şeirlər yazırdım –
onların bəzilərini yəqin
hələ xatırlayırlar;
aralarında məncə
bir neçə dənə yaxşısı da vardı;
indi tamam başqa cür yazıram:
söz düşmüşkən, bu yeni forma
mənə bir xəstəliyin nəticəsində məlum oldu)
belə,
bir köhnə şerimdə
daha dəqiqi o şerin
axırıncı iki misrasında
mən bu formalı qadınların
axırıncı stansiyalarda
metronun boş vaqonlarında
oyatdıqları ölülər
haqqında yazmışdım:
"gecə metrosu şəbəkələrində nə qədər sərxoş
iylənə-iylənə qımıldanır"

***

xəstəlik;
bütün həyatım
xəstəliklə bəzənib;
mən indi
evləri, ağacları
onun bihuşedici nəmli
şəfəqlərində görürəm;
boş küçələrdə, ya da aralıq həyətlərdə
(və ya sakit boş yerlərdə)
tək tənha gəzəndə
onun zərdab qoxusu
məni izləyir;
çoxları kimi mənim də
hələ yazılmamış roman ideyam var;
bu, bütün həyatı
xəstəliyə bürünmüş
(mənim həyatım kimi)
insan haqqındadır;
(mənə deməyin ki
mən məsələni dramatikləşdirirəm
şişirdirəm, lazım deyil – mən özüm də
bunu deyə bilərəm
və yəqin ki, bu, qismən elə belədir – amma
mənə elə gəlir ki, mənim şüurum
hardasa öz məqsədələri üçün
hansısa ağrılı komponentləri
canına çəkir
mənə elə gəlir ki,
bu nə isə anesteziya ilə

əks bir şeydir:
boşluğu elə bil
dolduran ağrı)
bəli,
xəstəliklə bağlı hər şey
mənimçün çox vacibdir
çünki ondan
yetərincə çox şey öyrəndim;
məsələn, ölümü,
daha dəqiqi,
onun sayəsində mən bildim ki,
uşaqlar ölümü necə başa düşürlər:
bu, beş il əvvəl oldu;
mən xəstəxanada
sarılıq tutmuş əsgərlərlə
bir palatada yatırdım –
onların kazarmasında
sadə sarılıq epidemiyası varmış –
mənimki isə daha kəskin
daha təhlükəli idi,
sarılığın xroniki forması
(narkoman xəstəliyidir!
birdəfəlik şprislərdən istifadə edin)
və budur mən
əsgərlərlə bu ağ palatada
daha çox ağ kazarmaya bənzəyən
palatada yatırdım
və içimdə mən çox gözəl təsəvvür etdiyim
bu xəstə iltihablı orqanı
hiss edirdim
(insanın qaraciyərini

mən məsələn çox gördüyüm
ət dükanlarında mal ətinin
digər parçaları ilə yanaşı qoyulmuş
inək qaraciyəri ilə müqayisədə
daha gözəl təsəvvür edirdim –
belə gözəl bir qalaq, ya da *topa* –
gölməçə kimi çox gözəl),
bax belə,
əsgərləri müşahidə edərək,
onların bir-birinə, elə mənə də
danışdıqları əhvalatları dinləyərək,
onlarla mən krossvord da tapırdıq –
məndə hamıdan yaxşı alınırdı,
ona görə də
onların arasında
nə cürsə intellektual avtoritet oldum;
onda xəstəxanada ağlıma gəldi ki,
qaraciyər
ölənə kimi belə qalacaq;
iş orasındadır ki,
fərz etmək olar ki,
sən yaşadıqca
hər şey dəyişəcək;
fərz etmək olar ki,
məsələn, sənin
yeni tüklərin
çıxacaq, dərin dəyişəcək
yaxud da
dırnaqlarına
(və ya lap sümüklərinə)
nə isə olacaq,

amma sağalmaz xəstə yer
axıradək
əvvəlki kimi qalacaq
(bu sanki köhnə yara kimi
bir şey olacaq);
bax onda mən düşündüm ki,
nə üçün uşaqlar ölümdən qorxmurlar –
onlara elə gəlir ki,
tamam başqa cür
öləcəklər;
düşünürəm ki,
onlar elə bilirlər
o vaxtadək
onların hər şeyi başqa olacaq,
buna görə də
elə bil onlar olmayacaqlar –
(yadımdadır:
mən kiçik olanda elə bilirdim,
mən öləndə hər şeyim tamam
başqa olacaq,
və bu, sanki mən olmayacağam)
uşaqlar elə bilir ki,
onlar indi olduqları
şəkildə
əbədi yaşayacaqlar

***

mən dəhşətlə anladım ki,
heç kimi ovundura bilmirəm;
mənə təsəlli verə bilən bir-iki adam var;
ədəbiyyatdan uzaq adamlardılar;
mən isə heç kimi sakitləşdirə bilmirəm
hələ nə üçünsə fiziki ağrını da
ifadə edə bilmirəm
anam sənin başın
axı necə ağrıyır soruşur
ağrını təsvir elə deyir
sən axı ədəbiyyatçısan
mən isə öz fiziki ağrımı
təsvir edə bilmirəm
və deməli özgəsinin ağrısın
heç təsvir edə bilmərəm
ona görə də
heç kimi də sakitləşdirə bilmirəm
bu haqda hələ georgi ivanov yazırdı ki
ədiblər daha heç kimə təsəlli verə bilmirlər
düşünürəm ki ola bilər onlar
nə isə başqa bir şeyi bacarırlar
amma sakitləşdirməyi yox;
nə üçünsə ədəbiyyat indi oxucudan çox uzaq düşüb;
axı oxucu hələ də istəyir ki
onun iztirablarını təsvir etsinlər
onu qorxutsunlar, güldürsünlər
arada da ona təsəlli versinlər
ədəbiyyat isə oxucuya xəyanət etdi

bəlkə də tərsinə – oxucu ədəbiyyatı satdı –
oxucu onu bayağı əyləncəyə satdı
ucuz macəraya
başqa şeylərə
siyasət mistika
psixologiya
kompyuter
kinematoqraf
dəli rəqslərinə
cəhənnəm odunun
qaynar qır qazanının qırağında
məhkumların vəhşi həyəcanına
və düşünürəm ki
bu xəyanət qarşılıqlı oldu

***

Bu yaxınlarda
biz lvovlu şairlə, mənim şeirlərimin
qəhrəmanlarından biriylə,
onun şeirləri də xoşuma gəlir
(mənkilər də onun)
eskalatorda qarşılaşdıq;
lvovlu aşağı, mənsə yuxarı gedirdik;
mən saqqız çeynəyirdim,
elə saqqızı ağzımda köpürdürdüm ki,
bir-birimizi gördük;
göz-gözə gəldik
və bir-birimizə gülümsədik;

mənə çox maraqlıdı
o mənə baxanda nə düşündü görəsən;
mənə dedilər ki,
elə təxminən həmin gün,
ola bilər
bir gün ya əvvəl, ya sonra
hansısa internet-saytda
mənim şeirlərim müzakirə olunurmuş
və lvovlu şair də
məsələn, medvedyev gənc olanda
onun atası böyük kitabxanasını satıb
və oğlu
müntəzəm mütaliədən,
rus verlibrinin tarixi haqqında
bilgilərdən məhrum qalıb kimi
fikirlər bildirən adamlarla müzakirə aparırmış;
və mənə dedilər ki,
bu lvovlu
çox alicənablıq və təmkinlə
onlarla söhbət edir
və onlara nə isə izah edirmiş;
bax bütün bunlar məni çox incidir;
mən ulduz deyiləm
fərdiyyətçi yaramaz deyiləm
araqarışdıran deyiləm
mən *peşəkar deyiləm*
başa düşə bilmirəm
nəyə görə hər şeyi belə hay-küyə salıblar
sevimli şairlərimdən Leonid Qubanovun yazdığı kimi –
"mən lətifələrin və iltifatların arasında qalmışam";
atamın kitabxananı niyə və necə satdığı haqda

sonra birtəhər ayrıca danışaram;
növbəti əhvalat da budur ki, ev siçovulu
məni necə də pis dişləyib;
məndən soruşanda ki
yazdıqlarının hamısı doğrumu,
adətən deyirəm:
"bəli, əlbəttə, bunlar hamısı düzdür,
doğrudanmı siz fikirləşirsiniz ki,
bütün bu zir-zibili
mən özümdən uydururam?" – əsas odur:
əsas odur ki, insan öz qiymətini bilsin
öz qiymətini bilən insan;
öz qiymətini bilən kişi
öz qiymətini bilən qadın
bax indi məni bunlar
hər şeydən lap çox maraqlandırır
bizim indi olduğumuz yerdə
öz qiymətini bilmək çox vacibdir;
indi yaşadığımız dünyada
qovaq ağacı, tozağacı, palıd kimi, pərğu və ya balta kimi
və ya heyvan kimi –
pişik, ya da xoruz,
ya fil kimi,
ya da it kimi
tam və qüsursuz
olmaq çox vacibdir
(olduqca zəruridir),
metroda boğulanda,
qonaqlıqdan gələndə
yorğun, qəşəng, azacıq sərxoş olanda,
biçimsiz geyinəndə

qocalıqda
ölməz olanda;
mən başa düşmürəm
hamı nə üçün belə təlaşa düşüb
anonimlər
tənqidçilər
jurnalistlər
balaca şairciklər
(lousy little poets, Leonard Koenin oxuduğu kimi –
bit basmış balaca şairciklər)
məyus
(*boz*; yaxud onların özləri haqqında
özlərinin belə deyəcəkləri –
astar kimi boz – mən metaforaları sevmirəm) tənqidçilər,
mənim şeirlərimdə
hansısa *dəruni səriştəni*
görə bilmədiklərini yazanlar
aman Allah,
dəruni səriştəni
(mən düşünürəm ki, şeirdən dəruni səriştə gözləmək
bu öz qiymətini tamamilə bilməməkdir)
istəyirəm hamı sakitləşsin, özünə gəlsin
və burda iş, əlbəttə, onda deyil ki,
məsələn mən özümü təqdim etmirəm
ÖZÜMÜ
BİVEC MÜASİRLƏRİNİN TƏQİB ETDİYİ
YEKƏ GÜCLÜ CANAVAR
MAYAKOVSKİ KİMİ TƏQDİM ETMİRƏM
təəssürat belədir ki,
elə bil mən birdən durub hamıya və ya çoxuna
demişəm ki onlar zibildirlər

(yaxud da buna oxşar bir şey)
mən bunu onlara
necəsə qeyri-adi demişəm
mən bunu onlara
özüm istəmədən demişəm
bunu ona görə demişəm ki,
özüm mənasız, fağır, zəif düşmüşəm
düşünürəm ki, mənim şeirlərim
nəsə qəribə sınaqdır;
mükəmməllik üçün
hansısa bir qəribə ritual test
və ya daha doğrusu
mükəmməlliyi bacarmaq testi
özünü olduğun kimi:
aciz, kifir, fərsiz,
şöhrətpərəst, qəlbsiz,
uçurumun
hansısa bərq vuran üfunətli uçurumun üstündə
başıaşağı asılmağını
(düşünürəm ki,
üfunətli uçurumun üstündə asılmışlardan –
bunlar isə kifayət qədər çoxdur –
çətin ki hansısa dərin məna tələb olunur)
görməyi
və qəbul etməyi
BACARMAĞI
bacarmaq testi
özüm haqqında
bu qədər çox danışdığıma görə məni bağışlayın
düşünürəm ki, tezliklə özüm haqqında
daha bu qədər çox danışmayacağam

mən artıq hətta bu vərdişdən qurtulmağı
az ya çox təsəvvür də edirəm
söyüşlərə görə məni bağışlayın
mən, ümumiyyətlə, şeirlərimdə
çalışıram söyüş söyməyim,
çünki məncə əgər nəyisə ifadə etmək istəyirsənsə,
söyüşsüz də deyə bilərsən
bu mətn ünsiyyət probleminə həsr olunmalı
kompozisiyasının mərkəzində də köpük durmalı idi,
amma sonra hər şey necəsə dəyişdi
və qarışdı
mən bunu demək istəyirdim:
bəzən olur ki ünsiyyət olmayanda
fizioloji cəhətdən pis olur,
ancaq bəzən ünsiyyətlə daha betər olur
və nə qədər ki hələ hər şey itirilməyib,
və hələ də kimlərsə bizi
bu nəslin səsi hesab edir
(və nə qədər ki biz,
ümumiyyətlə, hələ ayaq üstdə tam dururuq)
istərdim bir də yenidən deyim:
biz tənhayıq
bizə inananlar azdır
biz valideynlərimizə, yaxın dostlarımıza
tanışlarımıza şeirlərimizi həvəssiz göstəririk
şən iş günündən sonra
kimsə bizi qarşılamır
kimsə bizlə pivə içmir
tənhalığa alışdırmır.

Tərcümə edən: Əliş Mirzallı

Yevgeni Çiqrin

(şeirlər)

***

Yetim qaranlıqda dönə-dönə mən,
Beynimdə fırlayıb, deyirəm: – Nədən
Araya ayrılıq salmışıq, bizim
Üzüntü alıbdır günlərimizi.

Özüm özlüyümdə danışıram hey,
Bizi unutmayan otaqda key-key
Gəzişir, anıram yaxşı-yamanı,
Ömrümüzdə birgə olan hər anı.

Həmin həyat budur qalıb uzaqda…
Məndən başqa kimsə yoxdur otaqda.
Ezopluq nə gərək, əzizim, indi,
Cənnəti üzümə bağlayan kimdi…

«Biz» sözün çıxarıb lüğətimizdən,
Kədərin dalınca baş alıb gələn
Zülmətdə tək-tənha yaşayırıq biz,
Geridə qalıbdır xoş günlərimiz.

***

Çöldə narın yağış göbələk əkir,
Qısılır qız kimi evə söyüdlər,
Otaqda bir «blatnoy» musiqi səkir:
Uğursuz məhəbbət, göz yaşı, kədər.

Dalaş, xəstəxana, nəşə, düşərgə –
Bizim ölkəmizin budur qədəri.
Dostlarım şərabla gəldilər birgə -
Dəhşətlər içində açaq səhəri.

Oturub vururuq bala-bala biz –
Hərdən yığılırıq vurmaqdan ötrü,
Gələcəyə yollar salır birimiz,
Birimiz ağlayır boş keçən ömrü.

Məclis şirin… yenə səslənir tostlar
Qismətə, nemətə, yağan yağışa…
Hələ ki canımız sağdır, a dostlar,
Ömür vəfa edə, bir də yığışaq.

***

Göyün pərdəsin çəkək,
Xosunlaşaq biz bir az,
Fındıqlı yoqurt içək,
Şaturun mebeli saz.

Abajur altda işıq
Yoxdur, zülmət hökmran,
Mazaq – evə yaraşıq,
Qayğı edir mehriban.

Forslusan sən, sənsən ay,
Daxili aləminlə,
Öpüşü ömürə say
Dərinlikdə mənimlə!

Öpüşlərdən qəhvə, qə…
Qəhvədanda qalıbdı.
Göyün yazısını qəlb
Badələrdən alıbdı.

Çılğın həqiqət asan –
Amur dəmliyi atlı,
Qalan nə var – axtarsan
Boş şey, ədəbiyyatdı.

***

Güman edirəm ki, sabahdan məni
Tamam başqa həyat axtarıb tapar,
Dağıdar ömrümdən dumanı, çəni,
Ahıl vaxtı korluq yaxamdan qopar.

Güman edirəm ki, belə olacaq –
Gərək ümidlərlə yaşasın adam –
Mən ki nə əfələm, nə də ki sarsaq,
Başım da yerində, kələyə yadam,

Tamam başqa həyat, başqa ömür-gün
e-mail-lər göndərir: möhkəm dayan, dur,
Mən artıq yoldayam, özün bir düşün,
Qapıya çatıram mən artıq budur…

Artıq neçə ildir belədir ancaq,
Narahatam, nə vaxt bu qurtulacaq.
Yaxşı olar qapı zəngim çalına,
Çək-çevir olmadan işim alına.

Göndərilməmiş məktub

Gələcəyəm, tezlik ilə əl-əlbət,
Gələcəyəm ya çərşənbə, ya şənbə.
Yol nə qədər uzaq olsa, yenə mən
Gələcəyəm, keçib dərddən, kədərdən.

Gələcəyəm, pay gətirib özümlə,
Mirvari, kəhrəba sapda düzümlə,
Çin limonu ağacından üç budaq,
Rəngli yuxu haqqında qeyd bir varaq,

Dostum çəkən «Sədəflərin bəhsini»,
Gəmi fitin lentdə olan səsini,
Yerli şair yazan neçə sətiri,
Bir də bollu kəskin dəniz ətiri…

Yadımdadır sevinciniz, qəminiz,
Sözləriniz, xülyalarda gəminiz,
Dərdə hələ yanan ürək, özünüz,
Yorğunluqdan qırış yığmış üzünüz…

Gələcəyəm, tezlik ilə əl-əlbət,
Gələcəyəm ya çərşənbə, ya şənbə.
Amma hansı ildə? – demək çətindi,
Gələcəyəm, qərar dəyişməz indi.

***

Ereba zil zülmətdə,
Bir də ki şeir gəlir:
«Mənim» bu ciddiyətdə
Qeyrilərdən gizlənir.

Bu arağa mən hədər
Bir sandıq ömür verdim –
Belə yazıbmış qədər –
Cin-şəyətin şahidim,

Ordınkanın sakini
Qar da şahiddir buna,
Qızıllarla oynayan
Yunan dəstəkdir buna.

Buna şahid – qardı, qar,
Ordınkada yer alan,

Təminatçı, haqqı var,
Qızıl saatlı yunan.

Gəmilərin yelkəni,
Bir kilsənin prixodu,
Nesmelovun Xarbini,
Bir də qədərin kodu.

Səslənir qulağımda
Civətək ağır sözlər,
Korsakovsk batlağında
Onlar axıb da itər..

…Musiqiyəmi? Hədər
Bir sandıq il vermişəm.
Tanınmıram Rurk qədər,
Nimdaş geyməkdir peşəm.

Şeirdə – ağızam lap,
Buludda su kimi mən.
Musiqidən baş xarab
Olacaq? Haçan? Nədən?

Batyuşkovdanmı zülmət?
Batyuşkovdan gəlir nur.
Tanrı edir mərhəmət –
Yaz, əbləh, qələm budur.

***

Möhtəşəm əliylə elektrik «Ç»
Söndürən zamanlar bizim işığı,

Alqırmızı şamı yandırıb haman
Otaqda tapatup salardıq yaman

İçərdə ətirşah, bayırda tufan
Yürüş eyləyirdi, aman, ay aman,

Sənsə pıçıltıyla deyirdin mənə,
Rəfiqə deyəni öz rəfiqinə.

Cənnət yaranırdı təxəyyülümdə,
Ürəyimdən keçən bir cənnət, bir də…

Bu qarlı gecəni söyüb qovlayan
«Məhəbbət əsiri» olmuşdum o an.

Cənub çayının yuxusu

…yuxu xəzinəsi, sözdən o yanda…
Vıyıltıyla duzlu küləklər əsir,
Günəş kərə rəngli iş paltarında,
Bulud başdan-başa qırlara əsir,
Uşaqlar üzündə qəhqəhə silgin,
Sanki kətan üstə rənglər qarışıb,
Mayak pıçıltısı – quyu tək ölgün,

Körpüyə yan alır qədimi qayıq,
Dalğalar – sanırsan əcaib balıq,
Səxavət incili andırır bu gün.
…kilsədəki xorun - incil əlində -
Dua oxuduğu - latın dilində -
Mələk ki, çevirib iblisə arxa
Maviyə bülənmiş məkana doğru
Qədim əlyazmasın sərgərdanların.
Bir azca şən gəmi dartıb aparır
Burda bir də əjdaha (deyil «ex libris»)
İmza atıbdır burda, saxla, dinmə, sus …
Bir cüt kəpənəksə dayanıb mətin
Dorda keşiyində əbədiyyətin,
Körpələr üzündə gülüş, təbəssüm,
Hansı mənimkidir? Bilmirəm özüm.
…«Hoxland» pendirinin kağızı parlar
Bulanıq dalğada dığırlanaraq,
Səs gəlir: balaca əks-səda bu an
Üz tutur səhərin oğlan çağına,
Gülüş qığılcımı parlayıb sönür,
Külək vıyıltısı boğulur, ölür..

***

Sərbəstlik. Tənhalıq. Sərinlik.
Yay bağı, armudluq, ənginlik.

İçimdə – çox şeylər qalmada.
Dünya öz zurnasın çalmada!

Nə gərək bu hava – çox arsız –
Qışqıran, narahat, cavabsız?

Vermirəm onunla mən əngə.
Mən – bulud. Mən – sükut. Mən – kölgə.

Bu bağda özümdən əminlik.
Sərbəstlik. Tənhalıq. Sərinlik.

***

Uzun bir yuxuda gəzirik qoşa.
Sən mavi paltoda, gödəkcədə mən,
Qəlbim həyəcanlı, gəlibdir cuşa,
Axşama «Sağ ol» mən deyirəm, nədən

Həyatın özütək gözəlsən bu gün,
Qarşıda güləcək səadət bizə.
Bizə nəsib olar yəqin toy-düyün,
Bir ildir baxırıq sənlə göz-gözə,

Göydə ulduz, yerdə sükut hökmran,
Necə də istidir öpüşlərimiz,
Oyanmış ağaclar altında bu an
Xoşbəxtlik vəd edir görüşlərimiz.

O bahar səninçün sonuncu oldu,
Əbədi iyirmi yaşlı qalmısan –

On yeddi il əvvəl həyatın soldu,
O vaxtdan cənnətdə məskən salmısan.

Sən öldün… əbədi yuxuya döndün –
Sən mavi paltoda, gödəkcədə mən,
Gəzir, şirin söhbət edirik bu gün,
Bizi ayırammaz bir kimsə bu dəm.

***

Gəlmədi… musiqi bitdi, tükəndi,
Axı, həqiqətən şən səslənərdi,
Beşinci, altıncı mərtəbələrdən?
Bəzənib gəlmişdim, nə umacaqdım?
İndi dayanmışam dayanacaqda,
Qara qanlar axır yara qəlbimdən.

Necə pis… Məhəbbət qaçıb, keçib yan?
Dünən qucaqlardı məni mehriban
Qoyub əllərini çiyinlərimə.
Bu günsə incimiş əsgər kimiyəm,
Ən alçaq adamam, and içirəm mən,
Heç kim girə bilməz daha qəlbimə.

Durmuşam… Dağınıq durna qatarı
Qanad çalıb soyuq havanı yarıb,
Uçur, bu bəlamın keçir üstündən.
Durmuşam axmaqtək, bir mənə baxın,
Bir də o şeytana getmərəm yaxın,
Özü çağırsa da, gen dursun məndən.

Yadıma salıram olub-keçəni,
Cavanlıq çoxdandır unudub məni,
Mən isə anıram onu hər axşam.
Həyat hey endirib mənə zərbələr,
Dərs verib, öyrədib nə bilim nələr…
Bağışla… Mən artıq bağışlamışam.

Amarilis

Sentyabrın acığına
Gül Afrika qoxuyur.
İşıq təslim qaranlığa,
Bazar günü soyuyur.

Dostum dünən etdi səfər
Əl yetişməz göylərə,
Gözləyirdik bu gün gələr…
Həyat qadir nələrə?

Kimisinə dadlı balıq
Kimi gələr qarmağa,
Kimisinə verib xalıq
Azar, salıb yatağa.

Kimisinə şeir, şərab,
Sel tək gəlir dalbadal,
Görən hansı xani-xarab
Yazır bizə qeylü-qal.

Kimisinə şöhrət verər
Bir damla, bir xırdaca,
Kimisinə çoxlu zəhər,
Kimi Mosartdan uca.

Amarilis – nadir çiçək,
Ləçəklərin gətirin -
Bu bölgünü ölçək gərək
Mizanında şeirin

***

…Anamız yemək verərdi bizə –
Balıqla kartof – doyana qədər.
(Bulud uçardı. Nə vecimizə.)
Bir qırıntı da getməzdi hədər.
Televizorda timsah çalırdı
Qarmonda hava… Yağış…gölməçə
İlham pərisin biz nə tanırdıq…
Amma dostlarla həvəslə necə
Gah oynayardıq, gah vuruşardıq,
Hərdən keyfimiz xarab olardı,
Ağlayıb, gülüb, susub durardıq.
Səmada bulud qatar-qatardı…
Bulud gəmi tək uçub keçir yan,
Nə hərləyir o bizim bu kəndi…
Bunlar olubmu? – düşündüm o an.
Qaranlıq kəsib bərəni-bəndi…
Həmin o bulud budur ahəstə

Keçir anamın məzarı üstdən.
Anamız yemək… Axşama yaxın
İşığı solur köhnə lampanın.

«Yandeks»: Laqorio

Laqorio dənizi. Külək, şər qovuşması
(Rəssamın dənizidir: yetkinlik nişanası…),

Yelkənli tənha gəmi çağlayan dalğalarda,
Dalğayla ha çarpışır… Batır, yazıq, axırda.

Qərq olurlar dənizdə, balığa yem olurlar…
Sanırsan inilti var, səsi batırır sular…

Loqario dənizi. Kobud dəlilik, yetər.
Qatı zülmət və züyd-vest. Dənizbaz bada gedər

Tezlikləmi? – Cavabın rənglərlə vurub, yıxan
Bir Loqario bilir, tək o deyər ki, haçan.

Dalğalarla ölümü qatıbdır, görün, necə,
Paseydon sevir bunu, bir də çaqqıldək gecə.

Dəniz təlatümlüdür, şahə qalxıbdır sanki…
Kəndirbaz qalxır, enir, bilmədən qorxu-hürkü…

Adanın kabusumu? Qarabasmadır nədir?
Onu bu şəkildəki düşkün qoca çəkibdir,

Onun şəklini bu gün məndən tapşırıq alıb,
Şəbəkədə taparaq, «Yandeks» yaddaşa salıb

Loqario krımlıdır, Krım rəssamı, krımlı rəs…
Dənizçilər məhv oldu, qurtarmadı bircə kəs.

***

Şaxtalar güclənir ara vermədən,
Zülməti cəzb edib bu köhnə həyət.
Yəni bu yerlərdə cavan idim mən
Nə vaxtsa? Sovuşdu necə tez… Əlbət

Odlara tutuşdu, kül oldu getdi,
Titrədi və susdu sim tək tədricən,
Nə gözləyir məni qarşıda indi –
Böyük ehtiraslar, sükutmu hərdən?..

Amma əvəzində səslənir aydın
Qulağımda mənim mələyin səsi.
Göyləri dərk edib, çəkdikcə adın
Oluram tanrının fağır bəndəsi.

…Qaranlıq sıxlaşır, yenə şeytan, cin
Yuxu bişirirlər bağda bu axşam.
Eşqim ölməyəcək, unutmam çətin,
Ölən anda belə səni anacam.

Səni aparacam ürəyimdə mən
Özümlə axirət deyilən yerə,
Vida lüğətinə, o anda gələn
Naqafil sətirə, qəfil şeirə.

Amsterdam qatarında

Vətəndən kənarda qorxurdum öləm!
(Konstantin Batyuşkov)

Qorxmuşdum qürbətdə –
Sarsıtdı ağrı…
Son həddə çatdırdı
Dərman axırı.
Yeməyim - alaçiy,
Ölümsə, alçaq,
Görünür gözə hey,
Bir mən, bir çardaq…
Ölmək qürbət yerdə…
Tam? Az qalmışdı.
Burda qışda bahar,
Sinəmdə qışdı…
Amsterdam qatarı
Gedir aramla,
Pozğunluq tən yarı
Burda haramla.
Shocking Blue oxunmur
Bu yerdə daha,
Kələklər toxunur

Ucuzdan baha…
Bəs balıq? Nə gərək
Təfərrüatlar.
Birdən tutdu ürək,
Yıxdı necə var.
Gillədim hey araq
Yüz-yüz aramsız,
Həyatı oyuncaq
Sandım mən arsız.
Çöldə görünürdü
Qərib mənzərə,
İçimdə dönürdü
İçki zəhərə.
…Sevirəm vətəni
Artıq həddindən,
Fevral dartır məni,
Ölüm sinəmdə …
…Şair sözü daim
Məndədir, məndə,
Ölümə «Rədd!» dedim,
Qopdu sinəmdən.

***

Şər qovuşub… Danış bir az, qoy düşsün yada
Yaxşı, yaman, gözəl, çirkin – hamı dünyada,
Mənim kimi ciyərə çək soyuq havanı,
Diqqətlə süz ulduzlardan erkən çıxanı,
Gəl yemə qəm, kədər nədir, qurtar əlindən,

Darıxırsan, evə qayıt, incimərəm mən,
Küçələrdə tək-tənha hey dolanıb gəzim,
Təsadüfi bir sətiri beynimdən süzüm,
Bir vaxt mənlə yoldaş olan neçə insanı
Sağ qalanı, uzaq qaçıb odda yananı
Xatırlayım bircə-bircə… Ömür qəribə
Çoxusunu yola saldıq artıq qəbirə…
Yada salım, qovuşaraq bu qaranlığa
O kəsləri ki, çatmadı firəvanlığa,
O kəsləri ki, lazımdır indi də mənə,
O kəsləri ki, girmişdi bir vaxt qəlbimə…
İllər ötüb, gör arxada bir nələr qalıb,
O şeylər ki, məni bir vaxt təşvişə salıb,
O şeylər ki, nə zamansa qəlbimi didmiş,
Onlar indi sanıram ki, oyuncaq imiş.
Ötənləri həsrət ilə salaram yada,
Bu qaydayla günlər, aylar gedibdir bada,
Tezlik ilə mən özüm də cığır salacam
Zülmət yerə, ey İlahi, torpaq olacam…

***

…Gah səs, gah xırtıltı, gah da cırıltı,
Sanıram, qapıdan gəlir tıqqıltı.
Gecə bu dalanda kimdi gəzən, kim?
Küçədə sətəlcəm soyuğu hakim.
Şaxta bülluruya naxışlar düzür,
Buz saqqal içində şəhərin üzü.
Fənər cığırında təpə-təpə qar,
Qaranlıqda zorla sezilir onlar.

Gecədən keçəndə yatmaq nə gərək,
Ötən günün dəqiq şəklini çəkək.
Tünd çay, bir stəkan da nə verim şərab,
Durub rəflərindən Konan Doylu tap,
Mehriban Vatsonla, sərt Ş.X-la
Faytonda çapmaq nə? Şeiri başla…
Ölçünü, bölgünü hesabla bir-bir –
Hələ işıq yanır, qələm əldədir…

***

Rəngli təşbihlərdə – bahar,
Ləzzətli – başqa yuxular.
Bu necə bir yaşıl yazar –
Sehrbaz tək işıq saçar?
…Parklarda hər şey oyanır,
Göylərdən yerə hey yağır,
Küçük kağızı oynadır –
Dodaqdan təbəssüm axır.
Sezan şaftalısı – işıq,
Yarpaq xışıldayır hərdən,
Sözə verməkçün yaraşıq
Bükəcəyəm qızıla mən,
Ürəyim istəyən kimi,
A bülbüllər, uçun gəlin!
Musiqinin yetir dəmi –
Narıncı rəng, yüngül, həzin,
Tale təki məhəbbətin

Qucağına atılacaq.
Bu vecsiz çalğına sənin
Kifara, kim qatılacaq?

***

Xoşbəxtsənsə, qışda – işıq,
Qəhvədanın pıçıltısı,
Yorğan taxtına yaraşıq,
Yeni bir söz tapıntısı.

Xoşbəxtsənsə, qışda – külək,
Qarları hey sovurmada,
Stol üstündə pendir, çörək,
Bişmiş yumurta tavada,

Bir az qatıq, bir az şirə –
Yeyib, içib, deyib gülək,
Üz tutarıq o göylərə,
İlahidən alıb kömək.

Xoşbəxtsənsə, qışda – səkir
Xəyal uzaqlarda bir az,
Çöldə şaxta naxış çəkir,
Ekrandasa ya yay, ya yaz.

Ayın əksi düşür südə -
Kökə kimi – yeməlidir,
Sükut içində bir badə
Öz sözünü deməlidir.

Ulduz bürcü qarmağında
Məhəbbətin mələyinin,
Qəpik oynar barmağında,
Barmaq kəsər kələyini.

Xoşbəxtsənsə, qışda – sənə
Mərhəm olan həmin o qız…
Çətin nə var – dönüb yenə
Dəf edərik biz, ey ulduz.

***

Görürsən gözün açanda:
Nə qədərmiş burda allah:
Kilsədə, göydə – hər yanda
Hətta evdə var bu sabah,
Mələyin, quşların səsi,
Daha nə? Bir də yay ayı,
Oyadır rənglər həvəsi –
Al, yaşılın yoxdu sayı.
Görürsən gözün açanda:
Nə qədərmiş Tanrı burda –
Gül-çiçəkdə, quşcuğazda,
Ömür sürüb, xırda-xırda
Qədərdən deyib bir az da
Lap astadan, deyiləni
Başa düşər bir mələklər,
Bir də günəş – qızılı-al,

Və bir də ki, bizə bəzən
Bir az gülüş, bir az kədər
Bağışlayıb gedənlərin
Ölməz ruhu hərdən-hərdən.
Görürsən gözün açanda:
Vətənimin daşdan açmış
Çiçəyi tək, tək dayanmış
Üzü birbaş şərqə baxan,
Ətrafına qızıl saçan
Znamenski kilsəsi…
Həm yarpaqda, həm sərçədə
Yaradanın var hissəsi,
Hər hərfdə səs var, bir də
hər yerdə musiqi səsi.

***

Dənizin ağzına günortadan biz
Baxaraq, içirik günəş şərabı,
Necə gözəl həftə – sentyabr, dəniz
Xoşbəxtlik anının yoxdur hesabı.

Həyat qanunumuz başqadır tamam:
Qızıl tənbəlliyi bir yana atıb.
Mavilik payını alırıq haman -
Paylanma anına vaxtında çatıb.

Dəniz quldurunun ağ gəmisində
Birgə Stivensona qonaq gedəkmi?

O köhnə kitabın öz səpkisində
Yeni bir tarixcə gopu edəkmi?

Bu yağlı sahilmi vurulub bizə,
Yoxsa bu həyata bizlər aşiqik?
Hələ yol gedirik, gəlməyək gözə,
Hələ yuxuları vərəqləyirik.

***

Yuxusuzluq evdə küncü ələklər,
Ayın gözləri, bax, neçə rəng alır,
Komaya düşübdür körpə küləklər,
Qarlar ağ dəftəri dönüb vərəqlər,
Kosmik kapron içrə bədən saralır.

Evdə, sanki şarda, su altındayam,
Baxışlar heyvanı andırır nədən?
Notbuka ilişib, saytda qalmışam,
Mən sağam, bəs kimə yetişsin qadam,
«Dirilik suyundan» ölən zaman mən?

Yuxusuzluq gəzir belədən-belə,
Nə bir həmsöhbət var, nə də bir qadın.
İlham mənbəyi də düşübdür ələ,
(İblisim qab yuyur, su verir yelə),
Heç bir açar açmaz mələk qapısın…

Yenə yuxusuzluq içində hər yan.
Geyiblər dəhşətli maska kabuslar,

Ürəyə ağrını sözlər verən an,
Xilası gözləsək yalnız çalğıdan,
Axı, kim ilahi nuru anladar?

***

Çöldə tüğyan edir payız küləyi,
Qız kimi divara qısılır söyüd,
Bayağı mahnılar kəsir kələyi –
Uğursuz məhəbbət, yalan, qəm, öyüd,

Nəşə, xəstəxana, dalaş, düşərgə –
Bunlar ölkəmizdə boğaza qədər.
Dostlarım yanıma gəliblər birgə –
Ortada şərab var, bir də dəhşətlər,

Oturub vururuq biz bala-bala,
Vururuq, badənin bilinmir sayı,
Biri çağırır hey yeni bir yola,
Digəri söyləyir: həyat əfvayı…

Vururuq ki, yenə yağır yağışlar,
Yenə yığılmışıq bir yerə belə,
Süfrəmiz boş deyil, yeməyimiz var,
Başa çatmayıbdır ömrümüz hələ…

Tərcümə edən: Heydər Orucov

İÇİNDƏKİLƏR

Ən yeni rus nəsri və poeziyası
yeni tərcümə layihəsində (T.Vəlixanlı).....3

M.Ayzenberq. *Şeirlər*.. 7

T.Kibirov. *Şeirlər*.....18

V.Nekrasov. *Şeirlər*.. 25

V.Kuçeryavkin. *Şeirlər*.. 18

V.Filippov. *Şeirlər*.. 46

A.Anaşeviç. *Şeirlər*.....61

Y.Quqolev. *Şeirlər*.. 78

D.Vodennikov. *Şeirlər*.. 90

Q.Şulpyakov. *Şeirlər*.....102

V.Kupiryanov. *Şeirlər*.....109

İ.Yermakova. *Şeirlər*.....117

L.Rubinşteyn. *Şeirlər*.. 140

K.Medvedyev. *Şeirlər*.. 158

Y.Çiqrin *Şeirlər*.. 185

Новейшая русская литература

Антология

В 2-х томах

Том 2. Поэзия

Ən yeni rus ədəbiyyatı

Antologiya

2 cilddə

2-ci cild. Poeziya

Nəşriyyatın direktoru – T.Cəfərov

Nəşriyyat redaktoru – A.Məmmədov

Kompüter tərtibatı – X.Tağıyeva

Üz qabığının dizaynı – C.Kişiyev

Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.

Çapa imzalanıb: 20.05.2014.
Format: 84x108 1/32. Qarnitur: Times. Ofset çap.
Ofset çap üsulu. Həcmi: 13, 25 ç.v. Tiraj: 1000 (1 z: 500).
Sifariş № 30.

MÜTƏRCİM

**TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ**

**Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru**

www.mutercim.az